AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

## ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 34
(II HİSSƏ)

Bakı - 2024

ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 34
(II HİSSƏ)

BAKI – 2024

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 34 (II hissə). Bakı, 2024, 140 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəfail Musa oğlu Həsənov,** sosiologiya elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Səxavət Nəsrulla qızı Əliyeva,** psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# SOSİAL ELMLƏR

## POLİTOLOGİYA

### Seçki komissiyalarının formalaşdırılması sahəsində Azərbaycan təcrübəsi

*f.ü.f.d. dosent Eyyubov İsmayıl Əhməd oğlu*
***Bakı Dövlət Universiteti***
***Axundova Gülarə Eldar qızı, magistrant***
***Bakı Dövlət Universiteti***
*gul.lady@bk.ru*

***Açar sözlər***: Seçki komissiyaları, partiya, namizəd, parlament, nümayəndə, MSK, səs, test imtahanı
***Keywords***: Election commissions, party, candidate, parliament, representative, MSK,vote, test exam
***Ключевые слова***: Избирательные комиссии, партия, кандидат, парламент, представитель, ЦИК, голосование, тестовый экзамен.

Azərbaycan Respubliksaında seçki komissiyalarının formalaşdırılması ilə bağlı bu vaxta qədər müxtəlif təkliflər irəli sürülüb, müxtəlif qanunlar qəbul edilib. Bunlar əsasən aşağıdakılardır:

"Mərkəzi Seçki Komissiyası haqqında" Qanunun (15 may 1998 - ci il) 2-ci maddəsində qeyd olunurdu ki, MSK həlledici səsə malik 24 üzvdən ibarətdir. Bunlardan 12 üzvü Milli Məclis tərəfindən, həlledici səs hüququna malik olan digər üzvlər isə Azərbaycan Respublikası Konstitutsiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq prezident tərəfindən təyin edilir. Bundan başqa, həmin qanunda qeyd olunur ki, həlledici səsə malik olan MSK üzvləri heç bir siyasi partiyanın üzvü olmamalıdırlar. 2000-ci il parlament seçkiləri ilə əlaqədar qəbul olunmuş "Mərkəzi Seçki Komissiyası haqqında" Qanuna görə, 18 nəfər üzvü olan MSK-nın 1/3-i hakim partiyanın, 1/3-i Milli Məclisdə təmsil olunan 2 müxalifət partiyasının, 1/3-i müstəqil deputatları tərəfindən təyin olunmalı idi.

Müstəqil deputatların da təyin edəcəyi 6 nəfərdən biri iqtidar partiyası, biri isə həmin 2 müxalif partiya ilə razılaşdırılmalı idi. Qərarların MSK-da üzvlərin 2/3- nin səsi ilə qəbul olunması da qanunda öz əksini tapmışdı. Bir nəfərin müxalifətlə razılaşdırılması, yəni onun rəyi ilə təsdiq olunması MSK-da heç bir tərəfin, yəni nə iqtidarın, nə də müxalifətin 2/3 səsə malik olmamasına gətirib çıxarırdı ki, MSK haqqında həmin qanun məhz bu cəhəti ilə əvvəlki qanunlardan fərqlənirdi. Lakin müxalifət ilə razılaşdırılmalı olan bir namizədin seçilməsi ilə bağlı problem yarandığına görə həmin müddəa sonradan dəyişdirildi.

Venesiya Komissiyası 2003-cü ildə Seçki Məcəlləsinə MSK-nın tərkibi ilə bağlı yeni təklif verdi. Təklifə görə 1/3-i iqtidar partiyalarından, 1/3-i parlamentdə təmsil olunan partiyalardan, 1/3-i isə parlamentdən kənarda bir faizdən artıq səs toplayan partiyalardan təşkil olunması nəzərdə tutulurdu. Hazırda qüvvədə olan "Seçki Məcəlləsi"nin 24-cü maddəsinə görə "Mərkəzi Seçki Komissiyası 18 üzvdən ibarətdir.

Mərkəzi Seçki Komissiyasının üzvləri Milli Məclis tərəfindən seçilir. Mərkəzi Seçki Komissiyasının 6 üzvü Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı, 6 üzvü parlamentdə təmsil olunan bitərəf deputatları, 6 üzvü Milli Məclisdə azlıq təşkil partiyaları təmsil edir.Azərbaycan Respublikasında seçki komissiyalarının təşkili ilə bağlı siyasi

partiyaların, QHT və müstəqil ekspertlərin mövqeləri 2007 – ci ilin noyabrında aşağıdakı kimi olub və faktlar göstərir ki, bu mövqelərdə elə bir ciddi dəyişikliklər baş verməyib: Yeni Azərbaycan Partiyası (YAP) Seçki komissiyalarının tərkibi olduğu kimi qalmalıdır. Partiya paritetin əleyhinədir. Milli Məclisin müstəqil üzvləri MSK-datəmsil olunmalıdırlar. Ana Vətən Partiyas mövcud modeli dəstəkləyir. Paritet əsaslı sistem alınmayacaq, çünki partiyaların sayı çoxdur. Komissiya üzvlərinin təyin edilməsinə məsuliyyət hökumətin üzərinə düşməlidir.

MSK siyasi mənsubiyyəti olmayan peşəkarlardan ibarət olmalıdır və onların namizədliyini Parlament və ya Prezident Aparatı irəli sürməlidir. DSK-lar və MnSK-ların üzvləri bələdiyyə üzvlərinin ümumi yığıncağının qərarı ilə təsdiq olunmalıdırlar.ADP, Müsavat, AXCP və ALP Seçki Komissiyalarının tərkibinin 50% son seçkilərdə çoxluq qazanmış YAP-ın Qalan 50% isə son parlament seçkilərində 60-dan çox seçki dairəsində təkbaşına və ya seçki bloku tərkibində seçkilərə qatılmış və namizədləri seçicilərin etibarlı tanınmış səslərinin minimum 1%-nı toplaması rəsmən etiraf edilmiş siyasi partiyaların (ADP, Müsavat, AXCP və ALP-nin) nümayəndələrindən təşkil olunsu Azərbaycan Milli İstiqlal Partiyası (AMİP) Seçki komissiyaları paritet əsasda, parlament və bələdiyyədə təmsil olunan partiyaların üzvlərindən formalaşdırılmalıdır.

Partiyaların ən azı 50 rayonda təmsilçiliyi olmalıdır Ümid Partiyası MSK paritet əsasda formalaşdırılmalıdır. MSK son parlament seçkilərində iştirak edən siyasi partiyaların üzvlərindən təşkil olunmalıdır. DSK və MnSK-lar da eyni qaydada, MSK-nın təşkil olunduğu əsasda formalaşmalıdır. Bitərəf üzvlər də komissiyalarda təmsil olunmalıdırlar. MSK 18 üzvdən təşkil olunmalıdır. Böyük Quruluş Partiyas Mərkəzi Seçki Komissiyası 12 üzvdən ibarət olmalıdır. Bu üzvlər 2005-ci il parlament seçkiləri zamanı ən azı 5 namizədi qeydə alınmış partiyaların üzvləri olmalıdırlar.

Azərbaycan Liberal Demokrat Partiyası Mövcud sistemi inkişaf etdirmək lazımdır. 1-ci variant: Birinci mərhələdə MSK siyasi partiyaların qeydiyyatdan keçmiş namizədlərinin nümayəndələrindən formalaşdirilmalıdır. İkinci mərhələdə MSK yalnız parlamentdə nümayəndəsi olan siyasi partiyaların nümayəndələrindən formalaşdırılmalıdır. 2-ci variant: MSK-nın üçdə biri parlamentdə çoxluq təşkil edən partiyaların nümayəndələrindən, üçdə biri parlamentdə azlıq təşkil edən partiyaların nümayəndələrindən, digər üçdə biri is namizədləri qeydiyyatdan keçmiş lakin parlamentdə yer almayan partiyalar arasından püşkatma yolu ilə formalaşdırılmalıdır.

Açıq Cəmiyyət Partiyası MSK-nın üzvləri neytral olmalıdırlar. Seçki komissiyaları dövlət orqanlarında çalışan şəxslərdən təşkil olunmalıdır və onlar test imtahanı əsasında işə qəbul edilməlidirlər. Hökumət seçki komissiyalarının tərkibinə görə məsuliyyət daşımalıdır və beynəlxalq təşkilatlar hökumətə bu prosesi müşahidə etməkdə yardım göstərməlidirlər. Paritet qəbul edilən deyil. Azərbaycan Sosial Demokrat Partiyası (ASDP) MSK-nın sədrliyinə və katibliyinə namizədlər Prezidentin təqdimatı əsasında Milli Məclis tərəfindən təsdiq olunmalıdır. Seçki komissiyaları təlimatlar və normativ xarakter daşıyan qaydalar hazırlamağı bacaran hüquqşünaslardan təşkil olunmalıdır.

MSK üzvlərinin sayı 18-dən 12-yə endirilməlidir. Üzvlər beynəlxalq təşkilatların keçirdiyi test imtahanları vasitəsilə seçilməlidirlər. MSK nümayəndələri Parlamentdə çoxluq təşkil edən 4 siyasi partiyadan, nümayəndələri Parlamentdə azlıq təşkil edən 4 siyasi partiyadan və heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) 4 üzvdən təşkil edilməlidir. Seçicilər, namizədlər seçki məsələləri barədə maarifləndirilməlidirlər.

Müstəqillərdən ibarət seçki komissiyasının yaradılmasına böyük ehtiyac var və müxalifət liderləri hazırda bu məsələnin üzərində çalışırlar. Azərbaycanda MSK üzvlərinin sayı həddindən çoxdur. Nəticələrin saxtalaşdırılmasında protokollar böyük rol oynadı. Biz seçki prosesində hər hansı bir işıq görmürük. Nə hakimiyyət nə də müxalifətə etibar var. Mövcud sistemdə MSK 18 üzvdən ibarətdir: 6 üzv iqtidarda olan partiyadan, 6 üzv

müxalifət partiyasından, 6 üzv isə bitərəflərdən(hər üç tərəf parlamentdə təmsil olunur). 6 bitərəf üzv gələcəkdə QHT nümayəndələri ola bilər.

Proporsional sistemin olmaması, "müxalifətin" ziddiyyətli qruplara bölünməsi kimi bir sıra amillər MSK-nın paritet əsasda formalaşmasına əngəl törədir. Seçki komissiyaları test imtahanları əsasında formalaşmalı və yalnız hüquqşünaslar imtahanda iştirak edə bilərlər. Test imtahanı zamanı ən çox bal toplayan hüquqşünas sədr, ikinci yeri tutan şəxs sədr müavini, ən yaxşı üçüncü və dördüncü nəticələri əldə edənlər isə katiblər olmalıdırlar.

Tələbə qəbulu sistemi etibar qazanmışdır, buna görə də seçki komissiyasının üzvlərini seçmək üçün də oxşar sistem təşkil edilməlidir. Test imtahanlarının nəticələri elə həmin gün elan edilməlidir.Test imtahanı vermək istəyənlər üçün heç bir məhdudiyyət olmamalıdır. Meyarlar müəyyən olunmalıdır. Hamı bərabər hüquqa malik olmalıdır. Üzvlər müstəqil olmalıdır. Onların azı 5 il toxunulmazlığı olmalıdır.Seçki komissiyaları üzvlərinin maaşı yüksək olmalıdır ki, onlara rüşvətlə təsir etmək mümkün olmasın..Komissiyalara dövlət statusu verilməlidir.

Azərbaycanda müxalifətin paritet sistemini tarazılaşdırmağa qüvvəsi yoxdur.Komissiyalar hörmət qoyulan quruma çevrilməlidir. Seçki komissiyalarının tərkibi barədə danışanda hədəf DSK və ya MnSK-lar deyil, həmişə MSK olur.Venesiya Komissiyası paritet əsaslı tərkibi təklif edib. Yaxşı olar ki, fikirlər bu istiqamətdə cəmlənsin. Bu, prosesi sürətləndirə bilər. Paritet barədə olan təkliflər dəstəklənirMSK-nın 50%-i iqtidar və onu dəstəkləyən partiyalardan, digər 50%-i isə 60-dan çox dairədə qeydiyyatdan keçən partiya üzvlərindən təşkil edilməlidir.

Seçki komissiyasının üzvləri bir mərhələli test prosesi vasitəsilə seçilməlidirlər. Cəmiyyətin siyasi partiyalara etimadı yoxdur.QHT-lərin təklifləri çox güman ki, həyata keçməyəcəkdir.MSK qeydiyyatdan keçmiş 52 siyasi partiyanınn təmsilçilərindən püşkatma vasitəsilə yaradılmalıdır.Proporsional sistem bərpa olunarsa, MSK üzvləri bütün partiyaları təmsil etməli və bunun üçün də bir qayda müəyyən edilməlidir.

Hazırda bizdə majoritar sistem mövcud olduğundan MSK üzvü müstəqil, bitərəf olmalıdır.Seçki prosesi siyasi prosesdir və buna görə də siyasi partiyalar bu proseslə məşğul olmalıdırlar.Siyasi partiyalar bu gün çox zəifdirlər. Onların heç bir prosesə təsirləri yoxdur.Paritet sisteminin təsdiq olunması o demək deyil ki, seçkilər demokratik keçiriləcək. MSK üzvü olmaq üçün müstəqil insanları tapmaq çətindir. Heç bir partiya hegemon rolunu oynamalı deyil.

MSK həddindən artıq güclüdür. Saxtakarlıqlar baş verdi və MSK protokolları ləğv etdi. Seçki komissiyasının üzvləri bir mərhələli test prosesi vasitəsilə seçilməlidirlər.Bütün namizədlərin bərabər hüquqları olmalıdır.Tələbə Qəbulu üzrə Dövlət Komissiyası test imtahanlarını keçirməlidir. Parlamentdə təmsil olunan və 1%-dən çox səs toplamış partiyalar, hökumət nümayəndələri və beynəlxalq təşkilatlar test imtahanı komissiyasının üzvü olmalı və imtahanın keçirilməsini müşahidə etməlidirlər.3000-3500 sualdan ibarət bank/baza yaradılmalıdır.

Test imtahanından 1 ay əvvəl bütün suallar çap olunmalı və namizədlərə paylanmalıdır.Test imtahanı günü imtahan üçün bankdan/bazadan ixtiyari 100 sual seçilməlidir. Bütün xarici dövlətlər öz suallarını banka/bazaya daxil etmək üçün göndərməlidirlər.Sualların 70%-i Seçki Məcəlləsindən və digər 30%-i isə Konstitusiyadan, İnzibati Xətalar Məcəlləsindən və Mülki Prosessual Məcəllədən olmalıdır.Ən çox bal toplayan 11 şəxs MSK-nın üzvü təyin olunmalıdır. Ən yüksək bal toplayan namizəd MSK-nın sədri seçilməlidir.Digər yüksək bal toplayan namizədlər DSK sədrləri təyin olunmalıdırlar (əgər rayonlara köçməyə razılıq verərlərsə).

## ƏDƏBİYYAT


1. Z. Əsgərov «Konstitusiya hüququ». Dərslik. Bakı, 2016.
2. İ. Cəfərov Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2010.
3. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı, 2003.
4. İ. Cəfərov Azərbaycan Respublikası Konstitusiya hüququnun əsasları. Bakı,
5. Konstitusiya hüququ (Mühazirə mətnləri). Fəxrəddin Nağıyev. Qanun-2009


**Seçki komissiyalarının formalaşdırılması sahəsində Azərbaycan təcrübəsi**

**Eyyubov İsmayıl Əhməd oğlu**
**Axundova Gülarə Eldar qızı**

**XÜLASƏ**

Məqalədə Azərbaycan Respubliksaında seçki komissiyalarının formalaşdırılması ilə bağlı qanunlar siyasi partiyaların, QHT və müstəqil ekspertlərin mövqeləri, Seçki komissiyalarının tərkibi barədə normativ xarakter daşıyan qaydalar açıqlanır.

**Azerbaijani experience in the field of formation of election commissions**

**Eyyubov Ismail**
**Akhundova Gulara**

**Abstract**

In the article, the laws related to the formation of election commissions in the Republic of Azerbaijan, the positions of political parties, NGOs and independent experts, normative rules on the composition of election commissions are explained.

**Азербайджанский опыт в сфере формирования избирательных комиссий**

**Эюбов Исмаил**
**Ахундова Гулара**

**Резюме**

В статье разъясняются законы, связанные с формированием избирательных комиссий в Азербайджанской Республике, позиции политических партий, общественных организаций и независимых экспертов, нормативные правила о составе избирательных комиссий.

# DİASPOR VƏ LOBBİZMİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

***Ağayeva Nərmin Əhliman qızı, magistrant***
***Bakı Dövlət Universiteti***
*narminaghv06@gmail.com*

***Ключевые слова***: диаспора, лоббирование, зарубежное лоббирование, группа, интересы, политика.
***Açar sözlər***: diaspor, lobbiçilik, xarici lobbizm, qrup, maraqlar, siyasət
***Key words***: diaspora, lobbying, foreign lobbying, group, interests, politics.

Bir sıra ədəbiyyatlarda diaspor və lobbi anlayışları bir-birilə eyniləşdirilir. Halbuki bu iki anlayışın oxşar xüsusiyyətləri olsa da, mənaca fərqlidirlər. Diaspor sözü yunanca tərcümədə "diaspora" terminindən, termin isə kökü fel olan "diasreikein" sözündəndir, mənası "dağılma", "səpələnmə" deməkdir. İlk dəfə Yunan əsatirlərində və dövrün mütəfəkkirləri tərəfindən onların əsərlərində istifadə olunmuşdur.

Lakin bu termin o dövrdə müasir mənasında deyil, "ordunu və ya pulu dağıtmaq, səpmək" kimi işlənmişdir. Öz müasir mənasında isə yəhudilərin müqəddəs dini kitabı olan İncildə "yəhudilərin digər dinlərə sitayiş edənlər arasında səpələnməsi" mənasında istifadə olunmuşdur. Deməli, diaspor anlayışının əsas mahiyyəti hər hansı etnosun ölkə hüdudlarından kənarda digər etnosların əhatəsində yaşamasıdır. Ümumiləşdirərək qeyd edə bilərik ki, "Xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması diaspor anlayışının meydana çıxması deməkdir"(1).

Diaspor məfhumu özündə bir sıra xüsusiyyətləri birləşdirir: könüllü və ya zorla, iş və ya digər səbəblərdən asılı olaraq doğma ölkəsini tərk etmək, doğma Vətənlə bağlı ümumi tarixin, ideologiyanın, diaspor şüurunun,milli adət-ənənələrin, milli kimliyin, milli-mədəni xüsusiyyətlərin qorunub saxlanılması, onların təbliği və təşviqi istiqamətində işlərin görülməsi, məskunlaşdığı ölkədə yaşayan həmvətənlərlə əlaqə qurulması, məskunlaşdığı ölkənin vətəndaşları ilə kollektiv birgəfəaliyətin həyata keçirilməsi sahəsində işlər görmək və s. Ümumiyyətlə, güclü diaspora sahib olmağın iki yolu var: birincisi, milli kimliyinə, milli-mədəni dəyərlərinə sahib çıxmaq, onları qoruyub saxlamaq; ikincisi isə bu dəyərləri digər ölkələrdə təbliğ etmək. Ancaq bu iki vasitə ilə güclü təşkilatlanmış diaspor yaratmaq mümkündür.

Lobbi termini ingilis dilindən götürülüb, mənası "dəhliz", "holl" deməkdir (2). İlk dəfə İngiltərə monstrlarında "gözətçi meydançası" mənasında işlənirdi. Parlament nümayəndələrinin qərarlarına təsir etmək istəyən şəxslər dəhlizdə nümayəndələrlə manipulyativ danışıqlar aparırdılar. Nəticə olaraq, dəhliz və vestibüllərdə aparılan görüşlər getdikcə siyasi xarakter alaraq 1829-cu ildən ABŞ-da geniş yayılmağa başladı. Hakimiyyəti təmsil edən şəxslərə çox böyük vədlər verirdilər, hətta pul qarşılığında səs satın alırdılar. Bir sıra mütəxəssislər tərəfindən qeyri-peşəkar siyasət kimi qınanılan lobbiçilik yalnız XX əsrdən başlayaraq siyasətə təsir mexanizmi kimi qəbul edilməyə başlandı.

Lobbiçilik 1946-cı ildə Birləşmiş Ştatların Ədliyyə Nazirliyində rəsmən qeydiyyata alınır və qanunvericilik əsasında maliyyə nəzarətinə keçir. Federal Lobbi qanununda Lobbiçilik fəaliyyətinə aşağıdakı öhdəliklər qoyur: Amerika Konqresində qanunlara təsir göstərən və ya qanunun qəbuluna və əngəllənməsinə çalışan birbaşa və dolayı pul və qiymətli əşyaları alan və ya toplayan, ya da əsas məqsədi bu olan şəxslər hər 3 aydan bir xərcləmələrinə aid olan qeydləri müəyyən idarəyə təqdim etməlidirlər. (3).

ABŞ qanunvericiliyinə uyğun olaraq lobbi fəaliyyəti iki yolla həyata keçirilir:

1. Birbaşa lobbiçilik. Bu fəaliyyət açıq-aşkar, birbaşa lobbisi ilə qərar verən qurumun səlahiyyətli nümayəndəsi arasında aparılan danışıqlar və görülən işə deyilir. Bu zaman

görüləcək işdən ətrafdakı şəxslər və quruplar xəbərdar olmaqla, bu məsələdə öz mövqeyini bildirmək və bildirməmək hüququna malik olurlar.

2. Dolayı lobbiçilik. Bu iş artıq professional lobbi şirkətləri vasitəsilə aparılan fəaliyyət növü olmaqla onları siyasi reklamçılıq adlandırmaq olar (3).

Hər bir siyasi struktur kimi lobbiçilik də siyasi struktura malikdir və iki səviyyədən təşkil olunur: birinci səviyyəyə hər hansı qərarı yaxud məsələni müzakirəyə cəlb edən siyasətçi yaxud siyasətçi qrupu daxildir. İkinci səviyyəyə isə işin icraçıları daxildir. Təbii ki, siyasətçi tərəfindən ortaya qoyulan iş analitiklər tərəfindən araşdırılır, hüquqşünaslar, ekspertlər, rəyçilər tərəfindən müzakirə edilir.

ABŞ-da lobbistlərin fəaliyyətini tənzimləyən qanunlar içərisindən, 1938-ci il "Xarici Nümayəndələrin qeydiyyatı haqqında", 1946 və 1995-ci illərdə "Lobbiçiliyin Açıq Xarakteri haqqında" sənədlərin adlarını sadalamaq olar. Bu gün Amerika siyasi sisteminin mühüm qolu olan lobbiçilik fəaliyyəti Qanunverici- İcraedici- Məhkəmə hakimiyyətilə yanaşı digər sahələrdə müxtəlif formalarda aparılır. İri transmilli korporasiyalar, keçmiş və hazırki konqresmenlər, bankirlər, hüquqşünaslar, siyasi-ictimai xadimlər, qeyri-hökumət təşkilatları, fermerlər, iş adamları, etnik diasporlar və digər peşə sahibləri imkanları çərçivəsində lobbi fəaliyyəti ilə məşğul olurlar (3).

Beynəlxalq təcrübədə "xarici lobbizm" anlayışı geniş istifadə olunur. Böyük və nüfuzlu dövlətlər digər dövlətlərə müdaxilə forması kimi xarici lobbizmdən istifadə edirlər. Bu zaman həmin dövlətin daxilində diplomatik olmayan mərkəzlər yaradılır və belə mərkəzlər məxsus olduğu dövlət tərəfindən idarə edilir. Bu mərkəzin fəaliyyətindən məsul olan şəxs isə açıqca xarici dövlət tərəfindən himayə edilir. Belə şəxs "xarici agent" adlanır. Xarici agent anlayışı ABŞ-da meydana gəlib, ilk dəfə 1938-ci ildə "Xarici agentlərin qeydiyyatı haqqında" Qanunla (Foreign Agents Registration Act) tənzimlənir (4). Bu mənada ABŞ-ın ilk uğurlu fəaliyyəti 1960-1970-ci illərdə İsrail və Tayvanda həyata keçirildi.

Lobbizmi birtərəfli və təhrif olunmuş şəkildə təqdim edən kitablarda və məqalələrdə insanların şüuruna "Lobbizm korrupsiyanın sinonimidir" kimi sırınmışdır. O, hər hansı bir qrupun maraqlarının nəzərə alınması məqsədilə hökumət qurumlarına birbaşa, yaxud dolayı yolla təsiretmə fəaliyyəti kimi adlandırıla bilər. Bu cür adlandırma ümumi mahiyyətli olduğu üçün hər hansı siyası, yaxud ictimai fəaliyyəti bura aid etmək olar. Ona görə də bir sıra dəqiqləşmələr aparmaq zərurəti yaranır. Birincisi, qurum dedikdə konkret olaraq vəzifəli şəxslər nəzərdə tutulur ki, hansısa qərarın qəbul olunması və ya olunmaması onlardan asılı olur.

Bu, bir, yaxud bir neçə adam ola bilər. Məsələn, deputatlar qrupu, hökumət üzvü, yaxud adminstrasiyanın yüksək vəzifəli nümayəndəsi. İkincisi, lobbiləşdirilmiş qərar həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Məsələn, ABŞ-dakı erməni lobbisi vaxtilə Konqres tərəfindən məlum 907-ci düzəlişin qəbul olunmasına nail olmuş, hazırda isə Azərbaycana qarşı ədalətsiz və diskriminasiya xarakterli bu qərarın aradan qaldırılması üçün palata üzvülərinə bütün istiqamətlərdə təzyiq göstərir. Yəni lobbizm eyni dərəcədə həm müsbət, həm də mənfi istiqamətə yönəldilə bilər.

Üçüncüsü, lobbiləşmə vəzifəli şəxslərin yalnız maddi stimullaşdırma prinsiplərinə əsaslanmasa da, bu metod lobbizmdə ən geniş yayılmış və təsirli amil hesab olunur. Primitiv mahiyyətli və qanunla təhdid olunan rüşvətvermə əvəzinə, hazırda başqa metodlardan istifadə olunur; seçki fondlarına birdəfəlik, yaxud mütəmadi yardım göstərilməsi, pulsuz xarici səfərlərin təşkil olunması, sərfəli mühazirə turları, vəzifəli şəxslərin qohumlarının, köməkçilərinin, bəzən də ki, hökumət qurumundakı yerlərini itirdikdə özlərinin də "yağlı yerlərlə" təmin olunması.

Dördüncüsü, lobbizmi dövlət strukturları üzərində mafioz, klan, yaxud mason nəzarəti ilə qarışdırmaq düzgün olmazdı. Ona görə ki, dediklərimiz gizli və qanunazidd

mahiyyət daşıdıqları üçün lobbizmdən tamamilə fərqlənir (3). Deməli, lobbiçilik məqsədə çatmaq üçün bir metod, vasitədir. Hakimiyyət və cəmiyyət arasında siyasi təsir mexanizmidir.

"Diaspor xüsusi maraqları olan bir qrup kimi siyasi proseslərdə iştirak edir və digər maraq qrupları kimi o da öz maraqlarını təmin etmək üçün təzyiq vasitəsi kimi lobbizmdən istifadə edir. Mövcud taktikadan istifadə etdiyi üçün diaspor lobbi qrupu kimi tanınır. Beləliklə, diaspor qrup, lobbizm isə qrupların istifadə etdiyi taktikadır" (5).

## ƏDƏBİYYAT

1. Əliyev Z. Diaspor. İzahlı sözlük və məlumat kitabı. Bakı, 2007
2. Politologiya. İzahlı lüğət. Bakı, Şərq-Qərb, 2007
3. https://antikorrupsiya.gov.az/storage/postFile/Lobbicilik_17-05-2023_19-28-15.pdf
4. https://www.justice.gov/nsd-fara
5. Əliyev Z . Dünya diasporları (nəzəriyyə və təcrübə). Bakı, Qismət, 2005.

**Agaeva Narmin**

**SIMILAR AND DIFFERENT ASPECTS OF DIASPORA AND LOBBYING**

**SUMMARY**

The article provides a broad explanation of the concepts of diaspora and lobby, their similarities and differences are examined and analyzed.

**Агаева Нармин**

**СХОЖИЕ И РАЗЛИЧНЫЕ АСПЕКТЫ ДИАСПОРЫ И ЛОББИЗМА**

**РЕЗЮМЕ**

В статье дается широкое объяснение понятий диаспора и лобби, рассматриваются и анализируются их сходство и различие.

**Ağayeva Nərmin**

**DİASPOR VƏ LOBBİZMİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ**

**XÜLASƏ**

Məqalədə diaspor və lobbi anlayışlarının geniş izahı verilmiş, onların oxşar və fərqli cəhətləri araşdırılmış və təhlil olunmuşdur.

# DEMOKRATİYANIN YARANMA TARİXİNƏ NƏZƏRİ BAXIŞ

***Azadxan Elçin oğlu Vəlizadə***
***Bakı Dövlət Universiteti***
***e-mail:*** *azadxan1616@gmail.com*

***Açar sözlər:*** demokratiya, güc, yumşaq güc, siyasi lider, ictimai diplomatiya
***Keywords:*** democracy, power, soft power, political leader, public diplomacy
***Ключевые слова:*** сила, мягкая сила, политический лидер, публичная дипломатия

Demokratiyanın yaşının dəqiq nə qədər olması və nə vaxt yaranması haqqında konkret bir nəticəyə gəlinməmişdir. Lakin ayrı-ayrı tədqiqatlar göstərir ki, demokratiyanın ilk cücərtiləri hələ ibtidai icma quruluşunda özünü biruzə vermişdir. Belə ki, qəbilələrin bəzilərində olan ağsaqqallar şurasında kollegial qərarların verilməsi, bu şuraya qəbilə iştiraklarının iradəsi ilə ağsaqqalların seçilməsi kimi nüanslar diqqətdən yayınmamalıdır. Ancaq sonra yığıcılıq və ovçuluğun ikinci plana keçməsi, əkinçilik və maldarlığın inkişafı ilə cəmiyyətdə daha çox sərvət toplaya bilən tərəfindən avtoritar qaydalar tətbiq olundu ki, bu da ilkin dövrdəki bərabərliyi pozmuşdur.

E.ə. V-IV əsrlərdə xalqın özünüidarəetməsinin bir sıra formaları formalaşmağa başladı. Bunlardan ən məşhuru e.ə. 507-cu ildə yaranan Afina demokratiyası idi ki, o da təxminən 200 il mövcud ola bildi. Afinanın ali qanunverici orqanı Ekklesiya adlanırdı. Burda yalnız kişilər toplaşardılar. Səsvermə prosesi əl qaldırma ilə keçirilir, qərar səs çoxluğu ilə qəbul olunurdu. İkinci siyasi institut isə dikasteriy adlanan iclasçılardan ibarət xalq məhkəməsi idi. Afina demokratiyasının səciyyəvi xüsusiyyəti onun dinlə sıx əlaqəsi idi. Afina əmlak senzi də var idi. E.ə 321-ci ildə Makedoniya əmlak məhdudiyyətləri qoyduqdan sonra Afina sakinlərinin bir çoxu hüquqları və seçkidə iştirak edə bilmək qabiliyyətlərindən məhrum olundular [2].

Yunan demokratiyası haqqında danışarkən bütün dövrlərin ictimai-siyasi ideyalarına təsir etmiş yunan filosoflarının demokratiya haqqındakı təsəvvürlərinə də nəzər yetirmək gərəkir. Antik mütəfəkkirlər, xüsusən də Platon və Aristotel kimi dühalar “demokratiya nədir?” sualına cavab verərkən, ilk növbədə, demokratiyanı idarəetmə forması kimi nəzərdə tuturdular. Onlar idarəetmə formalarını bir nəfərin, az sayda adamların və ya bütün xalqın idarə edib-etməməsindən asılı olaraq fərqləndirir və idarəçiliyin üç əsas vəziyyətini göstərirdilər: monarxiya, aristokratiya və demokratiya.

Platonun təsəvvüründə demokratiyanın dəyişkənliyi məntiqsizliyə gətirib çıxarır: bir tərəfdən, bu, idarəetmə formalarının ən yaxşısıdır, hamı azadlıq alır, hər kəsin öz həyatını istədiyi kimi qurmaq imkanı var, lakin digər tərəfdən, guya, “həyatda qətiyyətli adamların və qayda-qanunun olmaması” nəticəsində belə dövlətdə hər şey dağılıb gedir. Demokratiyanın dəyişkənliyini və mütəhərrikliyini Aristotel də qeyd edir. O, sadə, təbiətə yaxın şəraitdə yaşayan xalqlarda demokratik quruluşu ən qüsurlu sayır. Demokratiyanın digər növləri ona qeyri-konstruktiv dəyişmələrə meyilli kimi görünür, özü də o, xalqın hökmranlığı görüntüsü yaratmaqla dövləti bir yığın demaqoqun idarə etdiyi ictimai quruluşu ən pis quruluş adlandırır.

Məlum olduğu kimi, yarandığı ilk gündən İslam irqi əlamətə, dərisinin rənginə, yaşına, milliyyətinə və fiziki xüsusiyyətlərinə görə insanlar arasında ayrı-seçkilik qoyulmasının əleyhinə çıxmışdır. Quranda deyilir: “Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Ondan başqa onların heç bir hamisi də olmaz” [1, s.11]. Cəmiyyətin ictimai-siyasi tərkib hissəsi kimi təşəkkül tapdıqdan sonra İslam elə fundamental prinsipləri dəstəkləmişdir ki, indi onlar təkcə dini ehkamlar kimi deyil, həm də fəlsəfi təlim kimi qarşıda durur. Lakin İslamın hələ VII əsrdə təklif

etdiyi prinsiplər və ideyalar bizim zəmanəmizdə Qərb təfəkkürü və liberal cəmiyyət ilə təcəssüm olunur, halbuki onlar ilk dəfə ərəb dünyasında elə bir dövrdə irəli sürülmüşdü ki, o vaxtlar Avropa qüdrətli Bizansı itirirdi, germanlar isə Roma imperiyasını dirçəltməyə çalışırdılar. Məhz onda İslam demokratik yanaşı yaşamanın aşağıdakı fundamental prinsiplərini bəyan etmişdir:

- Güc həqiqətdədir. İslam həqiqətin gücün tərəfində olduğu barədə geniş yayılmış ideyanı inkar edir.
- Ədalət və qanun çox mühüm şeylərdir.
- Dini etiqad azadlığı və yaşamaq hüququ, fərdi mülkiyyət, habelə sağlamlıq (həm cismani, həm də əqli) pozula bilməz.
- Sirrin qorunmasına və şəxsi həyatın toxunulmazlığına təminat.
- Təqsirsizlik prezumpsiyası. Sübuta yetirilmədən heç kim cinayətdə təqsirləndirilə və ya başqa birisinin törətdiyi cinayətə görə cəzalandırıla bilməz.
- İcra hakimiyyəti sisteminin məşvərətliliyi.

İslam təbliğ edir ki, cəmiyyət seçim azadlığı verilmiş və həm özü üçün, həm də ətrafdakılar üçün məsuliyyət daşıyan şüurlu fərdlərdən ibarətdir. Üstəlik, İslam dünyada ideya baxımından da irəliyə doğru addım atır. XIX əsrin bəzi Qərb fəlsəfi cərəyanlarının, - məsələn, dialektik materializm və tarixilik, - fundamentalist və digər yanaşmalarının əksinə olaraq, İslam şəxsiyyəti, deməli, bəşəriyyəti ictimai və tarixi inkişafın "mühərriki" kimi qiymətləndirir.

Xristian dünyasında son orta əsrlər demokratik təfəkkürü öz ifadəsini kilsəyə və Papaya müxaliflikdə tapırdı. Mütəfəkkirlərin əksəriyyəti təkcə siyasi sifarişlərin yerinə yetirilməsi üçün deyil, həm də öz baxışlarının ifadəsi üçün dəstəyi imperatorlarda axtarırdılar. Foma Akvinalıdan sonra daha çox tanınmış sxolast olan Uilyam Okkamın imperatorla görüşdə söylədiyi bu sözlər səciyyəvidir: "Sən məni qılıncla müdafiə et, mən isə səni qələmlə qoruyacağam" (9).

Beləliklə, kilsəyə müxaliflik və müvafiq olaraq, kralların və hökmdarların mənafelərinin qorunması qələmlə təmin edilirdi. Təbib və ilahiyyatçı Marsili Paduanski (1270-1342) imperatora, əsasən, fəxri bəzək rolu ayırmağa çalışan Papa hakimiyyətinə qarşı siyasi müxalifətin təməlini qoymuşdur. O, papaların mütləq hakimiyyətə olan iddialarına qarşı xəyali ümumdünya monarxiya nəzəriyyəsini deyil, demokratik azadlığı qoyur, kilsə xadimlərinin hər cür məcburi hakimiyyətini inkar edirdi. O, hər cür iyerarxik kilsə qaydasını rədd etmiş yeretiklər arasında XIII əsrdə meydana gələn təlimi katolisizmin ən dərin qatlarına keçirmişdir. Paduanskinin 1324-cü ildə nəşr edilən "Dünyanın müdafiəçisi" (Defensor Pacis) əsəri belə siyasi baxışların manifesti oldu. O deyirdi ki, qanunverici hakimiyyət çoxluğa məxsus olmalıdır və çoxluğun hökmdarları cəzalandırmağa ixtiyarı var. Marsili Paduanskinin təklif etdiyi sistemdə, dünyəvilər də daxil olmaqla, yerli kilsə məclisləri çağırmaq nəzərdə tutulurdu və onlar ümumdünya kilsə məclislərinə nümayəndələr seçməli idi. Kilsədən uzaqlaşdırmaq və Müqəddəs kitabın icbari olan şərhini vermək hüququ ancaq ümumdünya kilsə yığıncağına məxsus olmalı idi. Belə sxem doktrinal məsələlərin həllində dindarlara səs hüququna malik olmaq imkanı verərdi. Paduanski təkid edirdi ki, kilsə dünyəvi hakimiyyət iddiasında olmamalıdır; mülkihakimiyyətin razılığı olmadan kimisə kilsədən uzaqlaşdırmaq olmaz; Papa heç bir əlahiddə hakimiyyətə malik ola bilməz. Paduanskinin təlimində əsas qanunverici və hər cür hakimiyyətin mənbəyi kimi xalqın aydın şəkildə vurğulanması nəzərə çarpır [5, s. 234].

İngilis filosofu, liberalizmin banisi Con Lokk (1632-1704) təbii hüquq, ictimai müqavilə, xalq suverenliyi, şəxsiyyətin məhrum edilə bilməyən azadlıqları, hakimiyyətlərin tarazlılığı, müstəbidə qarşı üsyanın qanuniliyi ideyalarına tam şərik çıxırdı. C.Lokk bu ideyaları inkişaf etdirdi, şəklini dəyişdirdi, yeniləri ilə təkmilləşdirdi və bütöv siyasi-hüquqi

təlimə - erkən burjua liberalizmi doktrinasına daxil etdi. O, öz siyasi- hüquqi təliminin şərhini "İdarəetmə haqqında iki traktat" əsərində vermişdi. Lokk yazır ki, insana xas olan azadlıq vəziyyəti heç də özbaşınalıq vəziyyəti deyil və insan qeyri-məhdud azadlığa malik olsa da, bu azadlığın çərçivəsi, ən azı, özünümühafizə qanunu ilə müəyyənləşdirilmiş hədlərdən kənara çıxmır. Hobbs kimi, Lokk da ilahiyyat konseptlərinə müraciət edir. O yazır: "Təbii vəziyyət təbiət qanununa malikdir. Təbii vəziyyət bu qanunla idarə olunur və o, hər bir kəs üçün icbaridir; bu qanunu təşkil edən zəka onunla hesablaşmaq istəyən bütün insanları öyrədir, bütün insanlar bərabər və müstəqil olduğuna görə, onların heç biri başqasının həyatına, sağlamlığına, azadlığına və ya mülkiyyətinə zərər vurmamalıdır; çünki bütün insanlar tək bir Tanrı və hədsiz dərəcədə müdrik Yaradan tərəfindən xəlq olunmuşdur; onların hamısı bir olan Rəbbin bəndəsidir, dünyaya Onun əmri və işi ilə göndərilmişdir; bütün insanlar onları xəlq edənin ixtiyarındadır və onların varlığı özlərinin deyil, Onun istədiyi qədər davam etməlidir" [4, s. 24].

Yeni dövrün Qərb demokratiyasının əsasını Maarifçilik epoxasının iki ən böyük nümayəndəsinin - Şarl Monteskyönün və Jan Jak Russonun baxışları təşkiledir. Fransız filosofu, tarixçi, hüquqşünas, XVIII əsr maarifçilərinin yaşlı nəslinin nümayəndəsi Şarl Lui Monteskyö (1689-1755) Fransa burjuaziyasının mötədil müxalif dairələrinə qoşulmuşdu, feodal qaydalarına, mütləqiyyətə və feodal-klerikal ideologiyasına qarşı çıxırdı. O, "mantiya zadəganları"na, yüksək məhkəmə məmurlarına mənsub olan qədim əsilzadə ailəsində doğulmuşdu. T.Hobbsun irəli sürdüyü və indiyədək aktual olan hakimiyyət bölgüsü nəzəriyyəsini məhz Monteskyö inkişaf etdirmişdir. Yeni dövr siyasi fəlsəfəsinin digər nümayəndəsi Jan Jak Russo (1712-1778) sosial ədalət uğrunda alovlu mübariz, Böyük Fransa inqilabı ideologiyasının istər-istəməz əsası olmuş fəlsəfi-siyasi traktatların müəllifidir. Azad fikirli və feodal-mütləqiyyət rejiminin tənqidçisi kimi tanınan, "İran məktubları" romanının (1721-ci il) Hollandiyada anonim nəşrindən sonra onun müəllifi olduğunu etiraf edən Monteskyö, həm də geniş ədəbi şöhrət qazanmışdır. Monteskyö "İran məktubları"nda uydurma fars səyyahlarının dili ilə Fransadakı mövcud qaydaları, siyasi özbaşınalığı, XIV Lüdovikin sarayındakı əxlaqsızlığı, tamahkarlığı, azadlığın qəddarcasına boğulmasını və kilsənin yadfikirlilərə divan tutmasını çox ustalıqla masqaraya qoyurdu.

Müəllif öz etiraz səsini təkcə krala qarşı deyil, o vaxtlar katolik irticasının mərkəzi olan Vatikana qarşı da ucaldırdı. "Qanunların ruhu haqqında" traktat (1748-ci il) Monteskyönün yekun fəlsəfi əsəri olmuşdur. Burada o, öz fəlsəfi, sosial, hüquqi, iqtisadi və tarixi baxışlarını ümumiləşdirərək sistem halına salmışdır. Müasirlərinin etirafına görə, Ş.Monteskyönün kitabı bütün mütərəqqi ruhlu fransızların "başını gicəlləndirmiş" və Sorbonna (Paris Universiteti) irticaçıları və Vatikan ruhaniləri tərəfindən pislənmişdir. Monteskyö əsərində yazır ki, digər xilqətlər kimi, insan da daim qanunlarla idarə olunur, amma eyni zamanda, "ağıl-kamal verilmiş məxluq kimi o, Allahın qoyduğu qanunları durmadan pozur və özünün müəyyən etdiyi qanunları dəyişdirir". Monteskyönün fikrincə, insan Allahın qoyduğu, filosofların təyin etdikləri və qanunvericilərin yaratdıqları qanunların daim təsiri altındadır [3, s. 340348].

İkinci Dünya Müharibəsindən sonra müstəmləkəçilik anlayışı sona çatdı və təkrarən bir çox müstəqil ölkə meydana çıxdı. Demokratikləşmə hərəkatları Qərb Avropada sıxlaşdı. Almaniya və Yaponiyada diktatorluqlar sona çatdı, silahlanma siyasəti yerinə, İkinci Dünya Müharibəsinin sonunda imzalanan razılaşmaların da təsiriylə rifah dövləti məqsədləri müəyyən edildi. 20-ci əsrdəki ən böyük çəkişmələrdən biri də demokratik olmayan Sovet Bloku ölkələriylə Qərb demokratiyaları arasında reallaşan Soyuq Müharibə idi. Kommunizmi yaymağa çalışan Sovet Rusiya ilə digər demokratiya növləri arasından ayrılaraq üstünlük qazanmış liberal demokratiyanı yaymağa çalışan ABŞ liderliyindəki Qərb qrupu arasındakı çəkişmə 1989-cu ildə sona çatdı. Fransis Fukayama "Tarixin Sonu" adlı məşhur məqaləsində, Soyuq Müharibənin bitməsiylə liberal demokratiyanın, yəni

başqa sözlə demokratik idarəçilik prinsiplərinin bütün dünyada yayılacağı müjdəsini verirdi [2, s. 234].

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Abbasbəyli A. Etibar Nəcəfov. Beynəlxalq münasibətlər nəzəriyyəsi (Dərslik), Bakı Mütərcim, 2007. - 212 s.
2. Gözler, K., (2004). Anayasa Hukukuna Giriş. Bursa Ekin Kitabevi Yayınları.
3. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005-420 s.
4. Монтескье Шарль Луи. Избранные произведения / Общ. ред. и вступ. ст. М. П. Баскина. — М.: Гослитиздат, 1955.
5. Современная мировая политика: Прикладной анализ. Богатуров А.Д., ред. Москва.: “Аспект-пресс”, 2009. 558 ст.


**Azadxan Elçin oğlu Vəlizadə**

**Demokratiyanın yaranma tarixinə nəzəri baxış**

**Xülasə**

Dövlətlər arasında müasir beynəlxalq münasibətləri tənzimləyən amillərdən biri və ən aktualı idarəetmə sistemlərinin uyğunluğudur. “Demokratiya müharibə etmir” ifadəsi aktuallaşdıqdan sonra dövlətlərin demokratikləşməsi tələbələrin rəhbərliyi altında oldu. Soyuq Müharibə bitdikdən sonra demokratiya daha çox araşdırma obyektinə çevrildi.

**Велизаде Азадхан Эльчин**

**Теоретический обзор истории демократии**

**Резюме**

Одним из регулирующих факторов в современных международных отношениях между государствами и наиболее актуальным является совместимость систем управления. После того, как фраза «демократии не ведут войну» стала актуальной, демократизация государств стала студенческой. Вот почему после окончания холодной войны демократия стала предметом дополнительных исследований.

**Velizade Azadkhan Elchin**

**Theoretical overview of the history of democracy**

**Summary**

One of the regulatory factors between states in modern international relations and the most relevant is the compatibility of governance systems. After the phrase "democratic states do not wage war" became relevant, the democratization of states has become a student. That is why, after the end of the Cold War, democracy became the subject of more research.

# YUMŞAQ GÜC KONSEPSİYASININ YARANMASI SƏBƏBLƏRİ VƏ MAHİYYƏTİ

***Ceyhun Elcan oğlu Parlanov***
***Bakı Dövlət Universiteti***
***e-mail:*** *ceyhun.parlanov9@gmail.com*

***Açar sözlər:*** güc, yumşaq güc, siyasi lider, ictimai diplomatiya
***Keywords:*** power, soft power, political leader, public diplomacy
***Ключевые слова:*** сила, мягкая сила, политический лидер, публичная дипломатия

Beynəlxalq münasibətlər dinamik və daim dəyişikliyə məruz qalan bir sahədir. Bu çərçivədə zamanla bəzi anlayışlar əhəmiyyətini itirsə də, bəzi yeni anlayışlar elmi ədəbiyyata daxil olur və ya mövcud anlayışlar dəyişən şərtlərə uyğun olaraq inkişaf edir. Müasir dövrümüzdə geosiyasətdə yeni anlayışlar tez-tez daxil olur. Məhz bu anlayışlardan biri də Amerika analitiki J.Nay "yumşaq güc" terminidir. Beynəlxalq münasibətlərdə bu termindən müxtəlif məqamların təhlilində istifadə olunur. XX əsrə qədər olan dövrdə bir ölkənin gücü qeyd olunduqda hərbi potensialı ön plana çəkilirdi, ancaq son zamanlar iqtisadiyyatın mühüm təsir vasitəsinə çevrilməsi ilə iqtisadiyyat mühüm güc potensialı kimi qəbul edilməyə başladı. Soyuq müharibədən sonrakı dövrdə güc anlayışını fərqli istiqamətlərdən təqdim edən yumşaq güc anlayışı beynəlxalq münasibətlər ədəbiyyatına daxil oldu və xüsusilə ABŞ-da 11 sentyabr terror aktları ilə həm alimlər, həm də siyasət aparıcıları tərəfindən tez-tez istifadə olunan bir konsepsiya çevrildi.

1990-ci ilin sonunda elmi ədəbiyyatlara daxil olan bu termin “bir dövlətin digər dövlət üzərində güc tətbiq etmədən həmin dövlətə istəklərini qəbul etdirmək qabiliyyətinə malik olmaq” kimi mənalandırılır [1, 42]. Bu termin hər hansı bir ölkənin siyasi potensialını reallaşdırma səviyyəsi ilə bağlıdır. Həmçinin “yumşaq güc” daxili siyasətlə yanaşı, xarici siyasətdə də nəzərə alınır.

Sovet İttifaqı dağılandan sonra ABŞ yumşaq gücü ilə dünyada rəqabətsiz bir dövlət imici yaratmağa nail olmuşdur. Ancaq bəzi analitiklərin yanaşmasına görə ABŞ-ın gücü həmin dövr üçün tənəzzül mərhələsində idi. Hətta bu vəziyyəti ifadə etmək üçün ABŞ-ın simvol əsərlərindən biri olan “Azadlıq Heykəli” məşhur bir jurnalın üz hissəsində gözlərindən yaş axdığı kimi təsvir edilmişdir. Amerikalı siyasətçi Klinton dövründə fəaliyyətdə olmuş Jozef Nay 1980-ci illərin sonlarında xarici siyasət ədəbiyyatına yeni bir konsepsiya təqdim etdi. Soyuq müharibədən sonrakı dövrü müəyyənləşdirmək çərçivəsində bu anlayışı "yumşaq güc" adlandırdı. J.Nayın 1990-cı ildə çapdan çıxan “Bound To Lead: The Changing Nature Of American Power” adlı əsəri vasitəsilə ABŞ-ın gücünün tənəzzülə uğraması və dağılması fikrinə etiraz etdi. Həmin əsərdə ABŞ-ın gücünün yalnız hərbi və iqtisadi potensialdan asılı olmadığını, həmçinin öz məqsədlərini reallaşdırmaq üçün digər aktorları cəlb etmə qabiliyyətinə diqqət yetirməyi də xüsusi vurğulamışdır [2, s.49].

\Yumşaq güc siyasəti anlayış olaraq həmin əsərlə elmi ədəbiyyatlara daxil olmuşdur. Müəllif tərəfindən yumşaq güc terminini təsvir etmək üçün limitsiz tərif təklif etmişdir. Başlanğıcda termini bu cür müəyyənləşdirir: Məcburiyyət və ya təhdid əvəzinə cazibə ilə istədiyinizə nail olmaq yumşaq güc deməkdir. Yumşaq gücü fikirlərin cəlbediciliyi və ya başqalarının seçimlərini dəyişdirmək qabiliyyətinə malik məfhum kimi qeyd etmək mümkündür. Əslində yumşaq güc proqram kimi 1948-ci ildə ABŞ dövləti Smit Mund tərəfindən təklif edilmişdi. Proqramın əsas məqsədi Sovet İttifaqına qarşı mübarizədə informasiyadan, yayım və mübadilədən istifadəyə üstünlük vermək olmuşdur. Qısacası yumşaq güc “könüllü iştirak”ı nəzərdə tutur. “Sərt güc” də isə başlıca prinsip məcburiyyətdir.Ancaq “könüllü iştirak”da da yekun nəticə olaraq digər dövlətlər lider

dövlətin mədəni meyarlarını qəbul etməlidir.

Yumşaq güc konsepsiyası nəzərdən keçirildikdə, ABŞ-ın fövqəldövlət olmaq axtarışında bir vasitə olduğu görülür. Əslində, Soyuq müharibənin sonunda 2 + 3 (ABŞ - Sovet İttifaqı + Çin - Yaponiya - AB) güc balansı SSRİ-nin süqutundan sonra və 1 + 4 (ABŞ + Rusiya - AB - Yaponiya - Çin) güc balansı, ABŞ-ın bu yeni mövqeyində istədiyi bölgədə təhdid, təminatçı, müttəfiq və ya müdaxiləçi imici yaratmaqla yanaşı, beynəlxalq birliyi cəlb edəcək yumşaq gücə də ehtiyacı yaranmışdı.

Yeni beynəlxalq sistem dövlətlərarası münasibətlərdə sərt güc elementlərinin təsirini azaltdı, əksinə, diplomatiya, mədəni rabitə və qarşılıqlı fəaliyyətə əsaslanan yumşaq gücün əhəmiyyətini artırdı. Bir ölkə özünün siyasi dəyərləri, mədəniyyəti və xarici siyasəti ilə cazibə mərkəzinə çevrildiyi zaman yumşaq güc yaranır. Sözügedən ölkənin dəyərləri digər ölkələri cəlb edir və onları bənzəməyə təşviq edir. Bu kontekstdə dövlətlər arasındakı güc münasibətlərinə baxdıqda məcburiyyət, mükafat və ya inandırmaya deyil, könüllülüyə əsaslanan bir vəziyyət olduğu görülür. Məsələ hədəf aktoru istədiyinizi istəmək nöqtəsinə gətirməkdən gedir. Son zamanlar yumşaq güc məfhumunun ön planda olmasının səbəblərinə sərt gücün istifadəsinin yüksək xərc tələb etməsi, istifadə edilməklə əldə edilən nəticələrin daimi olmaması və həmçinin qanunilik problemlərinin yaranması daxildir.

Yumşaq güc ənənəvi xarici siyasət vasitələrindən yayınır, şəbəkələr qurmaqla, cəlbedici tədbirlərlə ünsiyyət qurmaqda, beynəlxalq qaydalar yaratmaqda və ölkəni dünyaya təbii cəlbedici edən mənbələrə əsaslanmaqla nüfuz əldə etmək istəyir [5]. Yumşaq güc siyasəti özündə tarixi, mədəni və diplomatik təsirləri cəmləşdirir. İş dünyasında ağıllı idarəçilər bilirlər ki, rəhbərlik yalnız əmr vermək deyil, həm də nümunə göstərməklə lider olmaq və başqalarını istədiklərinizi etmək üçün cəlb etməkdir Yumşaq güc gündəlik demokratiya siyasətinin əsasını təşkil edir.

2004-cü ildə J.Nay "Yumşaq güc" əsərində yumşaq güc anlayışını ilə bir neçə istiqamətdə izah etmişdir. Müəllifə görə, yumşaq güc həmişə sərt gücün bir davamıdır və gələcəkdə də belə olacaqdır. Yumşaq gücün məşhur 3 mənbəsindən əlavə bu güc növünün formalaşmasına təkan verən 6 indeksi mövcuddur. Həmin indekslərə : təhsil, qlobal öhdəçilik, hökumət, müəssisə və rəqəmsal dünya daxildir. Məsələn, bir ölkənin müəssisələrinin, iqtisadi modelinin cəlbediciliyi, işgüzar dostluq və innovasiya imkanlarını artırmaq qabiliyyətinə sahibdir. Hökümətin azadlıq, insan hüquqları və demokratiya dəyərlərini hər zaman rəhbər tutması və siyasi institutların keyfiyyətinin yüksək səviyyədə olması həmin dövlət üçün sadiqlik imici yaradır[4].

Yumşaq güc anlayışının mənbələri haqqında da fikirlər vahid deyildir. J.Nay bu güc formasının 3 mənbəsinin (mədəniyyət, siyasi dəyərlər və xarici siyasət) olduğunu qeyd etmişdir. Ancaq elmi ədəbiyyatlarda bu təsnifatın daha şaxələnmiş formaları mövcuddur. Məsələn, McClory, yumşaq gücün əsas kateqoriyaları kimi mədəniyyət, idarəetmə keyfiyyəti, diplomatiya, təhsil və iqtisadi fəaliyyət təqdim etdi. Zheng isə Çinin yumşaq gücün mənbələrini bu cür qeyd etmişdir: investisiya, sülhməramlı və humanitar fəaliyyətlər, mübadilə proqramları, diplomatiya və beynəlxalq təşkilatlarda fəal iştirak etmək idi. Bəzi nəşrlərdə isə ABŞ və Yaponiyanın yumşaq güc mənbələri ali təhsil, populyar mədəniyyət, ictimai diplomatiya və vətəndaş cəmiyyəti gösdərilmişdir [3, s.9].

Yumşaq güc həmişə liderliyin əsas elementi olmuşdur. Bacarıqlı liderlər hər zaman cəlbediciliyin etibar və legitimlikdən qaynaqlandığını başa düşmüşlər.Güc heç vaxt yalnız bir silah lüləsindən çıxmamışdır, hətta ən qəddar diktatorlar qorxu, təhdid ilə yanaşı cazibəyə də etibar etdilər. Yaşadığımız dövrün, informasiya əsri adlandırılan ümumi xarakter, məlumatın önə çıxdığı və hərbi və iqtisadi elementlərin əvvəlki dövrlərə nisbətən dəyər itirdiyi bir dövr kimi təsvir olunur. Yumşaq güc ünsürlərindən mümkün qədər reallıqları pozmadan istifadə olunması onun etibarlılığını və uzunmüddətli təsirini artırır.Həqiqi olmayan tezislərlə yumşaq güc sistematikasının qurulması, uzunmüddətli

müddətdə zərərlidir və yumşaq gücün potensial təsir gücünü azaldır.

Son zamanlar beynəlxalq münasibətlərdə baş verən bəzi dəyişikliklər yumşaq güc anlayışından sərt güc konsepsiyasına istiqamətləndirmə meyillərin mövcud olmasını göstərir. Məsələn, Rusiya əslində Krımı Ukraynadan aldı və İkinci Dünya Müharibəsinin sonundan bəri ən vacib regional qazancını əldə etmiş oldu. Bundan əlavə, Moskvanın Suriyadakı güclü hərəkətləri, hərbi iştirakı və vətəndaş müharibəsi prosesini öz xeyrinə dəyişdirməyi bacarmasını da qeyd etmək lazımdır [6]. Hər hansı bir dövlət sərt gücə əsaslanaraq başqalarını idarə edə bilər, lakin, şirkətlərə, fondlara, universitetlərə, dini qurumlara və digər qeyri-hökumət təşkilatlarına yumşaq güc elementləri vasitəsi ilə təsir edərsə daha geniş bir əraziyə nüfuz edə və uzunmüddətli münasibətlərini öz xeyrinə dəyişdirə bilər. Bu çərçivədə Nay hərbi vasitələrdən və sərt gücdən istifadə olunmasını birbaşa yumşaq güc istehsalında mühüm rol oynaya biləcəyini vurğulamışdır. Müəllif, həmçinin uğurlu dövlətlərin həm sərt gücə, həm də yumşaq gücə ehtiyacı olduğunu ifadə etmişdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Joseph S. Nay Jr.Soft Power : The means to success in the world politics. New York: “Policy Review”, 2004, 458 p.
2. Reyhan İnan Aydin(tercüman).Nay, Yumuşak Güç: Dünya Siyasetinde Başarının Yolu. Ankara : “Elips Kitap”, 2005, 231 s.
3. Tim Johnson.China Muscles In: From Trade to Diplomacy to Language, the U.S. is being Challenged. Canada: “The Gazette (Montreal)”, 30 October 2005, 15 p.
4. https://hbswk.hbs.edu/archive/the-benefits-of-soft-power
5. https://softpower30.com/what-is-soft-power/
6. https://foreignpolicy.com/2018/08/20/the-rise-and-fall-of-soft-power/

**“Yumşaq güc konsepsiyasının yaranmas səbəbləri və mahiyyəti”**
**Ceyhun Elcan oğlu Parlanov**
**Xülasə**

Yumşaq gücün hədəf alınan bir ölkədə təsirli olması üçün, bu ölkədə gücün bir mərkəzdə cəmləşməkdənsə, bütün ölkəyə səpələnməsi çox vacibdir. Gücün bir insana toplandığı diktaturada yumşaq gücün təsiri çox məhdud olaraq qalır. Çünki yumşaq güc, əsasən xalqın üzərinə hərəkət etməkdir, ancaq xalqın fikirləri diktator hökumətlərdə nəzərə alınmır. Ancaq demokratik sistemlərdə bu belə deyil və xalqın fikirləri rəhbərliyin qəbul edəcəyi qərarlara böyük təsir göstərir.

**«Причины и суть концепции мягкой силы»**
**Джейхун Эльджан оглы Парланов**
**Резюме**

Чтобы «мягкая сила» была эффективной в конкретной стране, крайне важно, чтобы власть в этой стране была рассредоточена по всей стране, а не сконцентрирована в одном центре. В диктатуре, где власть сосредоточена в руках одного человека, влияние «мягкой силы» остается весьма ограниченным. Потому что мягкая сила в основном действует на народ, а мнение народа не учитывается в диктаторских правительствах. Однако в демократических системах это не так, и мнение народа имеет большое влияние на решения, принимаемые руководством.

**“The reasons and essence of the concept of soft power”**
**Jeyhun Eljan Parlanov**
**Summary**

For soft power to be effective in a targeted country, it is critical that power in that country be dispersed throughout the country rather than concentrated in one center. In a dictatorship where power is concentrated in one person, the influence of soft power remains very limited. Because soft power is basically acting on the people, but the opinions of the people are not taken into account in dictatorial governments. However, in democratic systems, this is not the case, and the opinions of the people have a great influence on the decisions made by the leadership.

# İKİNCİ QARABAĞ VƏ RUSİYA-UKRAYNA MÜHARİBƏLƏRİNİN TÜRKİYƏNİN XƏZƏR-QARA DƏNİZ REGİONUNDA HƏRBİ-SİYASİ MARAQLARINA TƏSİRİ

***Magistrant Eldəniz Yəhyayev***
***Hərbi İdarəetmə İnstitutu***

***Açar sözlər*:** İkinci Qarabağ müharibəsi, Rusiya-Ukrayna müharibəsi, Türkiyə, Azərbaycan, NATO

***Ключевые слова*:** Вторая Карабахская война, российско-украинская война, Турция, Азербайджан, НАТО

***Keywords*:** Second Karabakh war, Russia-Ukraine war, Turkey, Azerbaijan, NATO

İkinci Qarabağ müharibəsinin nəticələri Türkiyənin Xəzər-Qara dəniz regionunda geostrateji rolunun artmasına, hərbi-siyasi maraqlarının genişlənməsinə zəmin yaradıb. Birinisi, Türkiyə son 100 illik kənarlaşmadan sonra Cənubi Qafaqz regionuna hərbi güc sahibi kimi qayıdıb. Məlumdur ki, Moskva və Qars müqavilələrinin (1921-ci il) şərtlərinə görə Türkiyənin Naxçıvan üzərində protektoratlığı ona regionda qalmağa imkan versə də, SSRİ-nin Cənubi Qafqazda hegemonluğu, sonra isə Türkiyənin NATO-ya daxil olması qlobal bloklaşma şəraitində rəsmi Ankaranın "soyuq müharibə" dönəmində regiona daxil olmasını əngəllədi. Yalnız "soyuq müharibə"dən sonra belə bir şans yarandı. Düzdür, Türkiyə bu illər ərzində Azərbaycanın və Gürcüstanın hərbi quruculuğunda iştirak etsə də, bunu ancaq "yumşaq güc" münasibələri kateqoriyasına aid etmək olar. Lakin Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli Bəyanat (10 noyabr 2020) və Şuşa Bəyannaməsi (15 iyun 2021) Türkiyəyə regionda hərbi plandan de-yure fəaliyyət göstərmək azadlığı vermiş oldu.

Türkiyə NATO üzvü kimi deyil, müstəqil geostrateji aktor kimi Cənubi Qafqazda geosiyasi plüralizmin banisi hesab edilir. Əlbətttə, NATO üzvü olması ona əlavə güc versə də, öz müstəqil siyasətini milli maraqlarına görə aparmağa imkan vermir. Fərdi qaydada isə Türkiyə daha çox nailiyyətlər əldə etmək qabiliyyətinə malikdir. Necə ki, Rusiya məhz müstəqil siyasət yertidiyinə görə Türkiyə ilə eyni mövqedən çıxış edir. Bunu həm Suriyada, həm də Qarabağda müşahidə etmək mümkün olub. Türkiyənin Rusiya-Ukrayna müharibəsində rəsmi Moskvaya qarşı Qərbin sanksiyalarına qoşulmaması onun Kreml qarşısında belə bir kritik məqamda etmadının artmasiyla nəticələnib.

İkincisi, Türkiyə ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq daha sürətlə inkişaf etməyə başladı. Azərbaycana Türkiyənin silah tədarükü Rusiyadan qat-qat aşağı olsa da, 44 günlük müharibə zamanı türk istehsalı olan pilotsuz uçuş aparatları özünü yaxşı tərəfdən göstərməklə, mediada geniş təbliğ edildi. Hazırda Ankara Azərbaycana yüngül zirehli maşınlar, MLRS, PUA-lar, atıcı silahlar, rabitə, bələdçilik və gecə görmə cihazları tədarük edir. İmzalanmış Şuşa Bəyannaməsində nəzəri cəhətdən Azərbaycan ərazisində Türkiyə hərbi bazasının yaradılması imkanının nəzərdə tutulmasına baxmayaraq, hələlik belə bir qərar verilməyib. Hələ ki, Türkiyənin "sərt gücdən" istifadə imkanları məhduddur.

Hazırda Türkiyə özünün Cənubi Qafqaz siyasətində "sərt güc" tətbiq etməyə çalışmır. Onun regional məsələlərdə öz rolu və çəkisi var, Azərbaycan və Gürcüstan üçün mühüm tərəfdaşdır və həyata keçirdiyi hərbi-texniki əməkdaşlıq sahələrində Rusiya, ABŞ və Qərb ölkələrini əvəzləyəcək alternativ kimi çıxış edir.

Azərbaycan Türkiyə üçün son dərəcə əhəmiyyətli silah bazarına çevrilib. Məsələn, 2020-ci ilin ilk doqquz ayı ərzində (ikinci Qarabağ müharibəsi başlamazdan əvvəl) Ankara Bakıya 123 milyon dollar dəyərində müxtəlif növ silah satıb. Ümumiyyətlə, 2020-ci il ərzində Azərbaycan türk istehsalı olan silahların ABŞ-dan (784,2 mln.dollar) sonra ikinci ən böyük idxalçısına (261 milyon dollar) çevrilib [1, s.325].

Eyni zamanda həmin məbləğ müharibə zamanı Türkiyədən silah tədarükünün intensivləşdiyinə dəlalət edir. Tədarük edilmiş silahlara Bayraktar TB2 PUA-ları, müxtəlif mənzilli raketlər, TR-300 Kasirga və T-122 Sakarya, ən yeni Kaplan özüyeriyən tank sistemləri, Kobra zirehli texnikası, SOM-B1 uzaq mənzilli qanadlı raketlər daxildir [2, s.100-101].

Postmüharibə dövründə də Türkiyədən Azərbaycana silah tədarükü yüksək templə davam etməkdədir. Belə ki, 2021-ci ilin ilk beş ayında Türkiyə Azərbaycana təxminən 136 milyon dollar dəyərində silah tədarük edib [2, s.101]. Bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə çoxluq təşkil edir. Türkiyənin "Anadolu" agentliyinin məlumatına əsasən, 2021-ci ilin yanvar - noyabr aylarında Azərbaycanın Türkiyədən idxal etdiyi hərbi təyinatlı məhsullar 192,126 mln.dollar təşkil edib [3].

İkinci Qarabağ müharibəsi zamanı Türk pilotsuz təyyarələrinin mediada tanıtımı bu məhsullara dünyada tələbatın xeyli artmasına səbəb oldu. Müharibədən sonra Bakı Ankara ilə PUA sahəsində əməkdaşlığı genişləndirmək qərarına gəlib: məsələn, Azərbaycanda PUA-ların, o cümlədən yeni "Akınçı" ağır zərbə PUA-larının birgə istehsalının aparılması ilə bağlı danışıqlar keçirilib. 22 may 2022-ci ildə Akıncı pilotsuz uçan aparatı Türkiyədən 3200 km məsafədə uçaraq Bakıya eniş edib. Ümumiyyətlə, Azərbaycan türk silahları üçün son dərəcə vacib bazardır: əslində Bakı vasitəsilə Türkiyə öz pilotsuz təyyarələrinin tədarük coğrafiyasını genişləndirməyə müvəffəq olub.

Beləliklə, Azərbaycan Türkiyə üçün siyasi, iqtisadi, enerji baxımından mühüm tərəfdaşdır ki, onun dəstəyi həm də türk xalqının milli hissləri və Ankaranın geosiyasi mövqeyinin xüsusiyyətləri ilə şərtlənir.

İkinci Qarabağ müharibəsi zamanı Türkiyə-Azərbaycan əməkdaşlığının uğurları Şuşa Bəyannaməsinin imzalanması ilə nəticələndi ki, bu da Bakı və Ankara arasında strateji müttəfiqliyin yeni mərhələsinə keçid kimi qiymətləndirilir. Hərbi ittifaqa öz sadiqliyini təsdiq edən Türkiyə və Azərbaycan eyni zamanda, Zəngəzur dəhlizinin açılması və Cənub Qaz Dəhlizinin inkişafı ilə bağlı geosiyasi məqsədlərini Şuşa Bəyannaməsində birbaşa ifadə ediblər. Bundan əlavə, bəyannamənin de-yure imzalanması hələlik bu istiqamətdə konkret addımların atılmamasına baxmayaraq, Azərbaycanda Türkiyənin hərbi bazasının yaradılmasına imkan verir.

Hazırda Azərbaycan ərazisinin Ağdam rayonunda Rusiya-Türkiyə birgə monitorinq mərkəzi fəaliyyət göstərir. Türkiyə kontingentində 60 nəfər xidmət edir. Rusiya tərəfi "Orlan" və "Forpost" PUA-larının, Türkiyə tərəfi isə Bayraktar PUA-nın köməyi ilə vəziyyəti izləyir.

Üçüncüsü, Türkiyənin son bir neçə ildə müdafiə qabiliyyətinin möhkəmlənməsi Azərbaycanın ordu quruculuğu fəlsəfəsinə ciddi təsir göstərib. Müasir türk silahlarının Liviyada, Suriyada və xüsusən də Dağlıq Qarabağda uğurlu sınağı, türk ordusunun müasir qaydasız savaşlara daha yaxşı uyğunlaşması Türkiyə Ordusunun kiçik modelinin Azərbaycanda qurulmasına yaşıl işıq yandırdı. İkinci Qarabağ müharibəsinin gedişində prezident İlham Əliyev müharibədən sonra Azərbaycanda türk ordusunun kiçik modelinə uyğun Silahlı Qüvvələrin yaradılmasının mümkünlüyü barədə bu sözləri söyləmişdi: "Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq" [4, s.62].

Türk modelinə keçid hərbi idarəetmənin təkmilləşdirilməsinə, yeni təşkilati-ştat strukturunun formalaşdırılmasına, müasir texnoloji vasitələrin köməyi ilə əldə edilən kəşfiyyat məlumatlarının sürətli təhlilinə və çevik qərar qəbul edilməsinə, struktur

islahatların aparılmasına, qoşunların döyüş qabiliyyətini yüksəltmək üçün yeni birlik və birləşmələrin yaradılmasına və onların peşəkar hərbi kadrlarla komplektləşdirilməsinə imkan verəcək.

Türk modelinə keçid hərbi-təhsil sahəsində özünü büruzə verməkdədir. Misal qismində, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universitetinin yaradılmasını qeyd edə bilərik. Belə ki, əvvəllər mövcud olan Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi lisey, Cəmşid Naxçıvanski adına hərbi lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi adı altında fəaliyyət göstərir [5].

Postmüharibə dövründə Azərbaycanın Silahlı Qüvvələrinin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması istiqamətində görülmüş tədbirlərdən biri də komando tipli hərbi hissələrin yaradılmasıdır. 44 günlük Vətən müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin – Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrinin yaradılmasını aktuallaşdırdı. Komando adına sahib olmaq üçün hərbi qulluqçuların komando təməl və komando ixtisas kursunu müvəffəqiyyətlə bitirməsi vacib şərtdir. İxtisas kursu dərin qarda və soyuqda döyüş əməliyyatı, quru komando əməliyyatı, suüstü komando əməliyyatı, hava-desant əməliyyatı, yaşayış məntəqələrində antiterror əməliyyatı mərhələləri üzrə keçirilir [6].

Komando tipli hərbi hissələrin Azərbaycanın işğaldan azad edilmiş yüksək dağlıq və sərt relyefə malik ərazilərində – Hadrut və Kəlbəcərdə yaradılması postmüharibə şəraitində ölkəmizin cənub-qərb (Ermənistanla dövlət sərhədi və Rusiya sülhməramlılarının nəzarətində qalmış Dağlıq Qarabağ ərazisinin bir hissəsi) istiqamətindən milli və sərhəd təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacağı, düşmənin təxribat fəaliyyətinin qarşısını qətiyyətlə alacağı istisna edilmir.

44 günlük müharibədən sonra Türkiyə ilə Azərbaycanın Silahli Qüvvələri arasında müxtəlif səpkili təlimlər daha da intensivləşib. İkinci Qarabağ müharibəsindən bu yana Azərbaycanla Türkiyə arasında start götürmuş “Qış təlimi”, “Anadolu qartalı-2021” və “Mustafa Kamal Atatürk - 2021” və s. taktiki təlimlər təcrübə mübadiləsi baxımından olduqca zəruridir.

İkinci Qarabağ müharibəsinin nəticələrinin Türkiyənin xeyirinə olması onun Cənubi Qafqazda hərbi-siyasi mövqelərinin möhkəmlənməsinə ciddi təkan verib. Azərbaycanda rus sülhməramlılarının müvəqqəti yerləşdirilməsi və Qərbin başının Rusiya-Ukrayna müharibəsinə qarışması Gürüstanı Türkiyəyə daha çox sığınmağa vadar edib. 2020-ci ildən etibarən Türkiyə Gürcüstan ordusuna müntəzəm silah tədarükünə başlayıb. Belə ki, 2020-ci ildə 12 zirehli ekskavator və 4 yük maşını, 2021-ci ildə - keçmiş 62 saylı hərbi bazanın yerində yerləşən hərbi baza üçün məsafə ölçənlər və mühəndis avadanlıqları tədarük edilib.Hazırda Türkiyənin Gürcüstana hərbi yardımı daha simvolik xarakter daşıyır. Bununla da Ankara Gürcüstanın yenidən silahlanma kursuna gedəcəyi təqdirdə Tbilisinin tərəfdaşı olmaq niyyətini gizlətmir. Üstəlik, bu, Türkiyənin artan regional təhlükəsizlik ambisiyaları ilə də əlaqələndirilir [7].

İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi qələbəsi və Türkiyənin regionda hərbi-siyasi cəhətdən möhkəmlənməsi türk dünyasının fəallaşmasına və Xəzər-Qara Dəniz regiona və Mərkəzi Asiya makroregionundan təsirli güc qütbünə çevrilməsinə zəmin yaradıb. Türkiyə prezidenti Turqut Özal “XXI əsr türk əsri olacaq” fikrini səsləndirəndə

bəlkə də çoxları buna ciddi yanaşmadı. Lakin bu ideyanın gerçəkləşməsi çox gözləmədi. "Soyuq müharibə"dən təxminən 30 il sonra 44 günlük İkinci Qarabağ müharibəsinin möhtəşəm finalı Avrasiyada yeni güc qütbünün – "Türk Birliyi"nin yaranmasına səbəb oldu.

TÜRKSOY (1993-cü ildə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı) və TÜRKPA (2008-ci ildə Türkdilli Ölkələrin Parlament Assambleyası) əsasında yaradılan Türkdilli Dövlətlər Şurası (TDŞ) 2009-cu ildə Naxçıvanda təsis edilib və təşkilata çevrilib. İkinci Qarabağ Müharibəsindən sonra Türk Dövlətləri Təşkilat (TDT) ilə əvəzlənib. Üzv dövlətlərin sayının 4-dən 7-yə yüksəldilməsi, geniş ərazi və əhaliyə, zəngin enerji ehtiyatlarına malik olması, TDT ölkələri arasında ümumi məhsul ixracının 2016-cı ildə 13,9 milyard ABŞ dolları, 2021-ci ildə isə bu göstərici nin 25,9 milyard ABŞ dollarına çatması, həmçinin "Türk Dünyasına Baxış - 2040" sənədinin qəbulu onun inkişaf perspektivlərindən xəbər verir [8].

TDT dörd fərqli geosiyasi xüsusiyyətə malikdir. Birincisi, geniş əhatə dairəsi və böyük əhali ilə xarakterizə olunur. Türkdilli xalqlar əsasən Avrasiyanın mərkəzi və qərb hissəsində yerləşir. Altı türkdilli dövlət 4,73 milyon kvadrat kilometr ərazini tutur və ümumi əhalisi təxminən 170 milyon nəfərdir ki, bunun da təqribən 125 milyon nəfəri türkdilli əhalidir ki, bu da dünyadakı türkdilli xalqların ümumi sayının 76,2%-ni təşkil edir. Başqa sözlə desək, TDT dünyada yüksək səviyyədə təmsilçiliyə və böyük səsə malikdir.

İkinisi, TDT-nin əhatə etdiyi Avrasiyanın mərkəzi-qərb bölgəsi təkcə Şərq və Qərb arasında sivilizasiyalararası təmaslar kanalı deyil, həm də müxtəlif siyasi ideyaların (avrasiyaçılıq, panturanizm və s.) yayılma zonasıdır. Mərkəzi Avrasiyanı müxtəlif tərəfdən birləşdirməyə çalışan bu "ideyalar" region ölkələrinin geosiyasi davranışına və xarici siyasət strategiyasına ciddi təsir göstərir.

Üçüncüsü, beş TDT ölkəsi Sovet İttifaqının dağılması nəticəsində yaranmış, tarixən və geosiyasi baxımdan Rusiya ilə bağlı olan və öz milli dövlət strukturlarının gücləndirilməsinə real ehtiyac duyan yeni müstəqil dövlətlərdir. TDT-nin hədəfi olan "türk inteqrasiyası" əslində hər bir ölkənin müstəqilliyinin qorunub saxlanılması və milli dövlət kimliyinin möhkəmləndirilməsi məqsədi daşıyır.

Son bir neçə ildə TDT beynəlxalq hüququn subyekti kimi dünya siyasətində fəal iştirak etməyə başlamışdır. Məsələn, TDT 44 günlük müharibədə Azərbaycanın haqq işini, 2022-ci ilin yanvar hadisələri zamanı Qazaxıstan xalqını və liderini, Kipr türk xalqının öz müqəddəratını təyinetmə hüququnu, Qırğızıstan və Tacikistan arasında sərhəd hadisəsinin sülh yolu ilə həllini, Suriya böhranının siyasi həll yolunu tapmaq üçün "Astana Prosesi" və Türkiyənin Rusiya-Ukrayna müharibəsinin sona çatması, əsirlərin dəyişdirilməsi və "Taxıl Dəhlizi"nin açılması istiqamətində səmimi vasitəçilik səylərini qətiyyətlə dəstəkləmişdir.

44 günlük müharibə Şərqlə Qərb arasında türkdilli ölkələrin coğrafiyasının geosiyasi potensialını hərbi-siyasi, iqtisadi, enerji, nəqliyyat-logistika və bir sıra parametrlər baxımından gücləndirdi. Cənubi Qafqazın erməni işğalından azad edilməsi və Zəngəzur dəhlizinin açılması ilə bağlı planların reallaşmasının Türkiyənin "Hartlend"ə sürətlə irəliləməsinə ciddi təkan verəcəyi istisna edilmir.

İkinci Qarabağ müharibəsində əldə edilmiş möhtəşəm qələbənin türk dünyasının hərbi əməkdaşlığına da təsirsiz ötüşə bilməz. Son zamanlar KİV-də Turan Ordusu adlı fikirlərə tez-tez rast gəlinir. Türkiyəli professor Kürşad Zorlu qeyd edib ki, Azərbaycanın Qarabağda Ermənistana qarşı mübarizədə uğur qazanması, həmin müharibədə Türkiyənin verdiyi dəstək sayəsində Azərbaycan ordusunun güclənməsi türk dövlətlərinin vahid ordusu olan Turan ordusu ideyasına olan ümidləri artırıb. O, bu layihənin uğurla həyata keçirilməsi üçün Türk Şurası çərçivəsində ümumi hərbi potensialın gücləndirilməsinə diqqəti yönəltməyə və hərbi-texniki əməkdaşlıq sahəsində konkret addımlar atmağa çağırıb [9].

Həmin ideya digər türkiyəli professor Cemalettin Taşkıran tərəfindən dəstəklənib. O, Türkiyə ilə Azərbaycan arasında uğurlu hərbi əməkdaşlıqda Türk dünyası ölkələri arasında hərbi yaxınlaşmanı Mərkəzi Asiya regionunda balansı dəyişən vasitə kimi görür [9]. Heş şübhəsiz, Mərkəzi Asiyada balansın dəyişməsi Xəzər-Qara dəniz regionunda geosiyasi vəziyyətə təsirsiz ötüşə bilməz. İranda azəri türklərinin, Krimda isə yerli türklərin fəallaşması və Türkiyə tərəfindən dəstəklənməsi Xəzər-Qara dəniz regionunda qüvvələr nisbətində və dövlətlərarası münasibətlər sistemində ciddi dəyişikliklərə rəva verə bilər.

TDT-nin əlverişli coğrafi mövqeyi və zəngin enerji resursları onun fəaliyyətində enerji və nəqliyyat-logistika komponentinin rolunu artırır. Bu istiqamətdə Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) layihəsini qeyd etmək olar. Beynəlxalq Birgə Yük Daşımaları və Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması ilə bağlı son sazişlər Orta Dəhlizinin əhəmiyyətini və səmərəliliyini daha da artıracaq. Bundan əlavə, Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) layihəsi "Bir kəmər, bir yol" layihəsinin gerçəkləşməsində mühüm rol oynaya bilər. Bu təşkilatın inkişafı Türkiyənin Xəzər-Qara dəniz regionunda - Mərkəzi Asiya makroregionunda hərbi-siyasi, sosial-mədəni və enerji və kommunikasiya sahəsində mövqeyini gücləndirə bilər. Bu təşkilat Türkiyəni dünyaya ağalıq edən strateji məkana – Hartləndə aparır.

Türkiyə bu qarşıdurmada Qara dəniz regionu qonşuları Rusiya və Ukrayna arsında tarzlaşdırılmış və "bərabər məsafəli siyasəti" ilə seçilir və bu siyasətinə görə istər qarşıduran tərəflərin, istərsə də dünya ictimiyyətinin rəğbətini qazana bilib. Bu münaqişədə Türkiyə unikal bir mövqe nümayış etdirir. Türkiyə lap əvvəldən balanslı bir strategiya həyata keçirməklə həm Moskva, həm də Kiyevlə dialoq kanallarını açıq saxlayıb. O, NATO üzvü olmasına baxmayaraq Qərbin sanksiya rejiminə əməl etməkdən boyun qaçırır. Üstəlik, Ankara Qara dəniz qonşuları ilə iqtisadi və siyasi münasibətləri əvvəlki kimi saxlayır [10].

Türkiyənin balanslaşdırılmış siyasəti son zamanlar öz bəhrəsini verməkdədir. Belə ki, uzun danışıqlardan sonra ötən ilin avqustunda İstanbulda Ukrayna və Rusiya Ukrayna taxılının dünya bazarlarına ixracı üçün dəhliz açmaq barədə razılığa gəliblər. Bu görüşdə BMT-nin Baş katibi Antonio Quterriş də iştirak etmişdir.

Türkiyə 2014-cü ildən bəri Qara dənizdə siyasətini sərtləşdirib. Həmin il Türkiyə Rusiya və Ukrayna ilə qonşu ölkə kimi gərginliyi azaltmağa çağırıb və Rusiyanın Krım yarımadasında suverenlik iddiasını tanımır. 2022-ci ilin fevralında münaqişə yenidən başlayanda Ankara Rusiyanın xüsusi əməliyyatını müharibə kimi xarkterizə edərək, Montö Konvensiyasına istinad etməklə fevralın 28-də boğazları istənilən üçüncü tərəfin hərbi gəmiləri üçün bağladı. Həm Kiyev, həm də Moskva bu qərarı məqbul qarşıladılar. Həmin konvensiya Türkiyəyə müharibə zamanı boğazları hər iki tərəfin hərbi gəmilərinin üzünə bağlamaq hüququ verir. Türkiyənin boğazları bağlamaq qərarı təkcə müharibə edən tərəflərə deyil, həm də böhran zamanı donanmasından istifadə etməyə cəhd edə biləcək hər hansı digər aktorun həmin boğazlardan istifadəsinə imkan vermir. Bu nöqteyi-nəzərdən Türkiyənin qərarı böhranın və spekulyasiyanın daha da artmasının qarşısını almış olur. Kiyev üçün bu, Rusiya donanmasının müharibədəki imkanlarını məhdudlaşdırmaq deməkdir. Bu məhdudiyyətə baxmayaraq, Moskva da Türkiyənin qərarını yüksək qiymətləndirib. Moskva üçün Türkiyənin bu qərarı müharibə zamanı qeyri-Qara dəniz dövlətlərinin hərbi gəmilərinin boğazlardan keçməklə Ukraynanın köməyinə gəlməsini əngəlləyir [10].

Qərbdən fərqli olaraq, Türkiyə Rusiyaya qarşı heç bir sanksiyaya (BMT TŞ-nin sanksiyasından başqa) qoşulmur, onunla energetika sahəsində əməkdaşlıq edir, Rusiya ilə ona məxsus "МИР"ödəniş sistemi vasitəsilə maliyyə əməliyyatlarını davam etdirir.

Ukraynaya gəlincə, Türkiyə Krim məsələsində Kiyevin ərazi bütövlüyünü tanıyır, onunla iqtisadi və hərbi sahədə əməkdaşlığı davam etdirir. Türkiyənin "Baykar" şirkəti Ukrayna Silahlı Qüvvələri üçün pilotsuz uçuş təyyarələrinin əsas təchizatçılarından biridir.

Liviya, Suriya və Qarabağda olduğu kimi, Türkiyənin pilotsuz uçuş təyyarələri Ukraynadakı döyüş meydanında həlledici rol oynayır.

Türkiyə hökuməti Rusiya-Ukrayna münaqişəsində konstruktiv rol oynamaqla iqtisadi itkilərini (müharibədən sonra onun turizm sektoruna həmin ölkələrdən axın azalıb) siyasi qazanclarla kompensasiya etməyə çalışır. Onun Kiyev və Moskvaya qarşı balanslaşdırılmış siyasəti bu məqsədə xidmət edir.

Taxıl dəhlizi sazişi istisna olunmaqla, indiyə qədər Türkiyənin vasitəçilik səyləri Rusiya və Ukrayna arasında siyasi danışıqlarda ciddi irəliləyişlə nəticələnməyib. Bununla belə, Türkiyə atəşkəs rejiminin yaradılmasını vacib hesab edir. Türkiyə ilə münaqişə tərəfləri arasında yüksək səviyyəli dialoq göstərir ki, bu ölkə həm Kiyevdə, həm də Moskvada etibarlı imicə malikdir.

**Nəticə.** Hər iki müharibə müxtəlif prizmadan Türkiyənin dünya siyasətində roluna ciddi təsir göstərib. İkinci Qarabağ müharibəsi Türkiyənin Cənubi Qafqazda hərbi – siyasi proseslərə təsirini artırıb və onun Mərkəzi Asiyaya çıxışına zəmin yaradıb. Həmçinin Türk dünyasının təşkilatlanmasına və Avrasiyada geosiyasi və geoiqtisadi plandan möhkəmlənməsinə təkan verib. Rusiya-Ukrayna müharibəsi isə Qərblə-Şərq arasında qarşıdurmada Türkiyəni əsas vasitəçiyə çevirib.

## İstifadə edilmiş ədəbiyyat


1. Шумилов, М.М; Шумилов, Ю.М., Военное сотрудничество Турции и Азербайджана в контексте реализации проекта создания пантюркистской армии: [Электронный ресурс] / КиберЛенинка. – РФ, 2022. URL: https://cyberleninka.ru/article/n
2. Буря на Кавказе / Д.Барри [и др.]. – М .: Центр анализа стратегий и технологий, – 2021. – 128 с.
3. Кямал, А. Аналитики сравнили военно-техническое сотрудничество Баку с Анкарой и Москвой: [Электронный ресурс] / Кавказский Узел. – РФ. 28.05.2022. URL: https://www.kavkaz-uzel.eu/articles/377597/
4. Azərbaycan tarix yazır: Yolumuz Qarabağadır: [Elektron resurs] / – Bakı, 07.12.2020. – 461 s. URL: https://kitabxana.net/files/books/file/1606132585.pdf
5. Azərbaycanda Milli Müdafiə Universiteti yaradılıb: [Elektron resurs] / Trend. az. – Bakı, 20 May 2022. URL: https://az.trend.az/azerbaijan/politics/3598030.html
6. Səlçuq, E. Komando hərbi hissələri peşəkar hərbçilərlə komplektləşdirilir – Müsahibə: [Elektron resurs] / 525-ci qəzet. – Bakı, 15.02.22. URL: https://525.az/news/186463
7. Военно-политическое присутствие Турции на Южном Кавказе. Национальный исследовательский университет «Высшая школа экономики» Центр средиземноморских исследований 2022. 27 с.
8. Daha güclü, daha yaxşı inteqrasiya olunmuş və daha sıx birləşmiş Türk dünyasına doğru: [Elektron resurs] / **AZƏRTAC.** – Bakı, 12.11. 2022. URL: https://azertag.az/xeber/
9. Türkiye (Турция): путь — Туранская армия: [Электронный ресурс] / inosmi.ru – Москва, 28.10.2020. URL: https://inosmi.ru/
10. Хасан Селим Озертем. Сбалансированная стратегия Турции в украинском кризисе: [Электронный ресурс] / Валдай международный дискуссионный клуб. – Россия, 12.08.2022. – URL: https://ru.valdaiclub.com

**Eldəniz Yəhyayev**

**İkinci Qarabağ və Rusiya-Ukrayna müharibələrinin Türkiyənin Xəzər-Qara dəniz regionunda hərbi-siyasi maraqlarına təsiri**

**Xülasə**

**Xülasə.** Məqalə İkinci Qarabağ və Rusiya-Ukrayna müharibələrinin Türkiyənin Xəzər – Qara dəniz regionunda hərbi-siyasi maraqlarına təsirindən bəhs edir. Türkiyənin son bir neçə ildə apardığı uğurlu siyasət, onun beynəlxalq münasibətlər sistemində rolunun artması, regional hərbi-siyasi proseslərə təsir imkanlarının artması səbəbləri geniş təhlil edilir. İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı möhtəşəm qələbənin Türkiyənin Cənubi Qafqaz və Mərkəzi Asiyada hərbi-siyasi imkanlarının genişlənməsinə və onun Hartlendə doğru irəliləməsinə zəmin yaratması və bu kontekstdə turançılığın əsas ideoloji xətt olması əsaslandırılır.

Məqalədə həmçinin Türkiyənin Rusiya-Ukrayna müharibəsində vicdanlı və altruist vasitəçi roluna ciddi vurğu edilir və bu da rəsmi Ankaranın qlobal təhlükəsizlik problemlərinin həllində artmaqda olan nüfuzuna dəlalət edir.

**Эльдениз Яхьяев**

**Влияние Второй Карабахской и российско-украинской войн на военно-политические интересы Турции в каспийско-черноморском регионе**

**Резюме**

В статье говорится о влиянии Второй Карабахской и российско-украинской войн на военно-политические интересы Турции в Каспийско-Черноморском регионе. Широко анализируются причины успешной политики Турции в последние несколько лет, ее возрастающая роль в системе международных отношений, возрастающие возможности влияния на региональные военно-политические процессы. Утверждается, что великая победа Азербайджана во Второй Карабахской войне заложила основу для расширения военно-политических возможностей Турции на Южном Кавказе и в Центральной Азии и ее продвижения в сторону Хартленда, и что туранизм является основной идеологической линией в этом контексте.

В статье также решительно подчеркивается роль Турции как честного и альтруистического посредника в российско-украинской войне, что свидетельствует о растущем влиянии официальной Анкары в решении проблем глобальной безопасности.

**Eldeniz Yahyayev**

**Impact of the second Karabakh and Russia-Ukraine wars on Turkey's military and political interests in the Caspian-Black sea region**

**Summary**

The article talks about the impact of the Second Karabakh and Russian-Ukrainian wars on the military-political interests of Turkey in the Caspian-Black Sea region. The reasons for Turkey's successful policy in the last few years, its growing role in the system of international relations, and increasing opportunities to influence regional military-political processes are widely analyzed. It is argued that Azerbaijan's great victory in the Second Karabakh War laid the foundation for Turkey's expansion of military-political capabilities in the South Caucasus and Central Asia and its advance towards the Heartland, and that Turanism is the main ideological line in this context.

The article also strongly emphasizes Turkey's role as an honest and altruistic mediator in the Russian-Ukrainian war, which indicates the growing influence of official Ankara in resolving global security issues.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ (1884-1955)

***Eyyubov İsmayıl Əhməd oğlu***
***Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının dosenti,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

***Açar sözlər***: M.Ə.Rəsulzadə, siyasi xadim, cümhuriyyət, istiqlal, hürriyyət, bərabərlik.

***Ключевые слова***: М.А. Расулзаде, политический деятель, республика, независимость, свобода, равенство.

***Keywords:*** M.A. Rasulzadeh, political figure, republic, independence, freedom, equality.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli nümayəndələrindən biri M.Ə.Rəsulzadənin anadan olmasının 140 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 30 dekabr 2023-cü il tarixində sərəncam imzalamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli nümayəndələrindən biri olmuş Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi fəaliyyətini nəzərdən keçirərkən məlum olur ki, o, gənclik illərindən ömrünün sonuna kimi Azərbaycan xalqının azadlığı uğrunda mübarizəsini əsirgəməmişdir.

Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvar ayının 31-də bakının Novxanı kəndində anadan olmuşdur. Atası din xadimi olsa da, oğlunun 7 yaşı tamam olanda onu Sultan Məcid Qənizadənin müdir olduğu “Rus-müsəlman” mərkəzinə qoymuşdur. Buranı bitirdiksən sonra M.Ə.Rəsulzadə öz təhsilini Bakı Texniki məktəbində, rus dilində davam etdirmişdir.

Onun inqilabi fəaliyyətinin ilk illəri də bu dövrə düşür. Bu dövrdə, yəni XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı yeni mərhələyə qədəm qoymuşdu. Azərbaycanın siyasi həyatını müəyyənləşdirən bu hərəkatın görkəmli rəhbər şəxsiyyətlərindən biri məhz Məhəmməd Əmin Rəsulzadə olmuşdur.

Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda yorulmaz mübariz, ictimai və siyasi xadim olan M.Ə.Rəsulzadənin siyasi fəaliyyətini aşağıdakı mərhələlərə ayırmaq məqsədəuyğundur.

**Birinci mərhələ**: 1902-1908-ci illəri əhatə edir. 1902-cildə o, müsəlman gənclərinin azadlıq uğrunda mübarizəyə qaldırmaq məqsədi ilə “Müsəlman Gənclik Təşkilatı”nı yaradır. 1904-cü ildə müsəlman demokratlarının “Hümmət Təşkilatı”nın yaradılmasında fəal iştirak edir. Onunla yanaşı, 1904-cü ildə Məşədi Əzizbəyov, Nəriman Nərimanov, S.M.Əfəndiyev və başqaları da “Hümmət Təşkilatı”nın üzvü olmuşlar. 1906-cı ildə onlar “Təkamül” adlı inqilabi xarakterli qəzet nəşr etdirirlər (10, səh.275).

Həmin ildə Bakı neft mədənlərində işləyən fəhlələrə və Azərbaycanın qəzalarına ana dilində inqilabi qəzet və intibahnamələrin göndərilməsi bilavasitə M.Ə.Rəsulzadənin adı ilə bağlı olmuşdur. 1907-ci ilin sentyabrın 29-da inqilabçı fəhlə Xanlar Səfərəliyevin Bibiheybətdə dəfn günü, onun qəbri üstündə keçirilən böyük təntənəli yığıncaqda P.Çaparidze, S.M.Əfəndiyev, İ.V.Stalin ilə birlikdə M.Ə.Rəsulzadə də alovlu nitq söyləmişdir. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadə 1900-cu ilin əvvəllərindən başlayaraq 1907-ci ilin axırına kimi Bakıda inqilabi fəaliyyət göstərən İ.V.Stalinlə çox səmimi və yaxın dost olmuşdur. Onu da qeyd edək ki, 1905-ci ildə Balaxanı neft mədənlərində varlılar Stalini fəhlələri tətilə dəvət etdiyi üçün neft quyusuna

atmaq istəmişdilər. O vaxt özünü hadisə yerinə yetirən M.Ə.Rəsulzadə Stalini ölümdən xilas edə bilmişdir. Məhəmməd Əmin Rəsulzadə sonrakı dövrdə İ.Stalinin Bayıl həbsxanasından gizli surətdə qaçırılmasında da fəal iştirak etmişdir.

**İkinci mərhələ**: 1908-1913-cü illəri əhatə edir. M.Ə.Rəsulzadə 1908-c ildə çarizm tərəfindən həbs təhlükəsi yarandığına görə İrana mühacir edir. İran məşrutə inqilabının başçısı Səttarxanla görüşür. İran inqilabçıları ilə birlikdə İran demokratik partiyasını yaradır. Partiyanın sol cinahına – xalqa daha yaxın olan Ş.M.Xiyabani və M.Ə.Rəsulzadə rəhbərlik edir. Onlar "İran-nou", "İranə-Ahat" qəzetlərinin çap olunmasına başçılıq edirlər. 1910-cu ildə M.Ə.Rəsulzadə fars dilində "Tənqidi-firqeyi etiqad" və "Səadəti bəşər" adlı kitablarını çap etdirir. Bu kitablarda M.Ə.Rəsulzadə İranda baş verən ictimai-siyasi hadisələri təhlil edir və yaranmış mürtəce partiyalara öz münasibətini bildirir (10, səh.275).

1911-ci il çar hökuməti İrandakı inqilabdan qorxuya düşərək onun əsas rəhbərlərindən biri olan M.Ə.Rəsulzadənin ölkədən çıxarılmasına şah üsul-idarəsindən tələb edir. M.Ə.Rəsulzadə təqiblərdən yaxa qurtarmaq üçün 1911-ci ildə İstanbula gedir.

M.Ə.Rəsulzadə Türkiyədə həmyerlisi Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayevlə görüşür. Orada başqa yaşayan görkəmli alimlərlə yaxından tanış olur. O, Türkiyədə qısa bir müddətdə "Türk yurdu" jurnalının fəal yazarlarından birinə çevrilir. Onun bu jurnalın səhifələrində bir neçə məqaləsi çap olunur. Bu məqalələrdən biri "İran türkləri" ("İran türkləri" jurnalında - 1911-ci il №4) adlanır. Bu məqalə türklər arasında xüsusi maraq doğurmuşdur. Həmin məqalədə müəllif türk oxucusuna Cənubi Azərbaycanın ümumi coğrafiyası və əhalisi haqqında ətraflı məlumat vermişdir. Eyni zamanda məqalədə Rəsulzadə qeyd etmişdir ki, "Azərbaycanın Qafqaziyada vaqe Rusiya tabeliyində olan bir qismi də vardır. Bunları İrəvan, Gəncə və Bakı vilayətləri təşkil edir". Bu vaxta kimi bu Türkiyənin əksər əhalisinə məlum deyildir.

**Üçüncü mərhələ**: 1913-1917-ci illəri əhatə edir. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilən əfv-ümumidən sonra Rəsulzadə Bakıya qayıdır. Bu zaman o, Bakıda müsəlman Demokratik Müsavat partiyasına daxil olmuş, tezliklə onun rəhbəri kimi fəaliyyət göstərmişdir (10, səh.276).

1914-1915-ci illərdə M.Ə.Rəsulzadə "Dirilik" jurnalı və "Açıq söz" qəzetini çap etdirir. O, bu mətbuat nümunələrində bir sıra maraqlı fikirlər irəli sürür. Məlum olduğu kimi, 1908-ci ildən çar hökuməti tərəfindən Qafqaz Azərbaycanının adı xəritələrdən və rəsmi sənədlərdən silinmişdir. Rəsulzadə yeni məqaləsində əsasən Azərbaycan, azərbaycanlı ideyasını irəli sürür.

O, "Dirilik" jurnalının birinci bölməsində çap olunan baş məqaləsində isə milliyyət, xalq sözlərinin mənasını izah edərək yazırdı ki, "Bir din ilə bərabər həmin mədəniyyətə malik olan Azərbaycanlılardan bir milliyyət kimi bəhs etmək olar".

M.Ə.Rəsulzadənin böyük səyi sayəsində və onun rəhbərliyi altında "Müsavat" partiyası ölkənin tarixi adını bərpa etmişdir.

M.Ə.Rəsulzadə siyasi ideyalarla yanaşı, bədii yaradıcılığa da diqqət yetirir. O 1914-cü ildə Maksim Qorkinin "Ana" romanının bir hissəsini Azərbaycan dilinə tərcümə edərək çap etdirmişdir.

M.Ə.Rəsulzadə 1913-cü ildə əmisi qızı Ümmülbanu Əbdüləziz qızı ilə ailə həyatı qurmuş, dörd uşağı olmuşdur. Böyük oğlu Rəsul 1938-ci ildə "müsavatçı övladı" olduğu üçün güllələnmiş, qalan ailə üzvləri isə Qazaxıstana sürgün edilmişdir. Onlar orada məhv olmuşdular.

**Dördüncü mərhələ**: 1917-1920-ci illəri əhatə edir. 1917-ci ildə Müsəlman demokratik Müsavat partiyası və Türk Ədəmi-Mərkəziyyət partiyası birləşir. Bu partiyaların Bakıda I qurultayı keçirilir. Qurultayda M.Ə.Rəsulzadə Mərkəzi Komitənin sədri seçilir. Bu qurultaydan sonra Bakıda və Azərbaycanın bütün qəzalarında mili azadlıq hərəkatı başlayır. M.Ə.Rəsulzadənin siyasi fəaliyyəti daha da genişlənir (10, səh.277).

Həmin dövr xalqımızın tarixinə Milli Azərbaycan hərəkatı kimi daxil olmuşdur. Bu Milli hərəkatın banisi M.Ə.Rəsulzadə olmuşdur.

Lakin bu dövrdə M.Ə.Rəsulzadə, yəni 1918-ci ilin mart-aprel aylarında sovet Rusiyası tərəfindən himayə olunan ermənilərin (daşnakların xüsusi fəaliyyəti ilə) Azərbaycanın müxtəlif yerlərində törətdikləri türk-müsəlman soyqırımlarının qarşısının alınması üçün çoxcəhətli siyasi fəaliyyət göstərirdi.

M.Ə.Rəsulzadə demokratik dövlətin təşkil olunması üçün aşağıdakıları irəli sürmüşdür:

- Azərbaycanın siyasi milli inkişaf yolunu müəyyənləşdirmək;
- Qafqazın türk-müsəlman əhalisinin rus qoşunları və ermənilər tərəfindən həyata keçirilən soyqırımlarının qarşısının alınması;
- Azərbaycan dövlətçiliyinin bərpası və müstəqilliyimizi təhdid edən daxili və xarici qüvvələrinin (maraqlarının) zərərsizləşdirilməsi;
- Azərbaycan xalq cümhuriyyətinin (AXC) xarici siyasətinin əsas vəzifələrini və başlıca istiqamətlərinin müəyyənləşdirilməsi;
- (AXC) ərazi bütövlüyünün təmin olunması, onun beynəlxalq aləmdə tanınması, dövlətlərarası münasibətlər sisteminə daxil olması və s.

Bu məsələlər onun siyasi diplomatik fəaliyyətinin, o cümlədən də bir sıra beynəlxalq konfranslarda (Trabzon, Batum) gördüyü işlərlə bağlı olmuşdur.

M.Ə.Rəsulzadə sonrakı dövrlərdə də müstəqil Azərbaycan dövlətinin yaradılması uğrunda mübarizə aparmışdır.

M.Ə.Rəsulzadə 1918-ci ilin mayın 28-də yaradılan Azərbaycan Milli Şurasına və dekabrın 7-dən fəaliyyətə başlayan parlamentdə Müsavat fraksiyasına başçılıq edir. O, Azərbaycan Demokratik Respublikasının ideya-siyasi lideri kimi tanınır, dövlət strukturunun yaradılmasında fəal iştirak edir.

M.Ə.Rəsulzadənin siyasi baxışlarında Müstəqil Azərbaycan Demokratik Dövlətinin yaradılması məsələsi başlıca yer tutur.

Bu görkəmli ictimai-siyasi xadim Müstəqil Azərbaycan Demokratik Dövlətinin yaradılması ideyasını tədricən formalaşdırmışdır. Bu ideya aşağıdakıları əhatə edir:

2. Millətin özünü dərk etməsi üçün ideya-siyasi təbliğat aparılması;
3. Milli istiqlal azadlıq hürriyyət uğrunda mübarizə;
4. Muxtariyyət əldə edilməsi;
5. Tarixi şəraitdən asıb olaraq federasiya yaradılması;
6. Müstəqil Azərbaycan dövlətinin yaradılması;

M.Ə.Rəsulzadə tarixi şəraiti dərk edərək belə bir qənaətə gəlir ki, azadlıq mübarizəsinə başlamaq üçün artıq Milli özünüdərketmə, Milli oyanış üzə çıxır. M.Ə. Rəsulzadə nəinki, çarizmin, eləcədə bolşeviklərin imperiya, müstəmləkəçilik siyasətinə qarşı fəal mübarizə aparırdı.

M.Ə.Rəsulzadə yalnız Azərbaycanlıların deyil, əsarətdə olan bütün digər millətlərin azadlığı ideyasını və millətlərin dostluğu fikrini irəli sürürdü. Parlamentin açılışı zamanı etdiyi nitqində demişdir: «Bizim Rusiya camaatına qarşı heç bir ədavətimiz yoxdur. Bezar olduğumuz Rusiya, çarizm Rusiyası və istibadıdır. Bizcə mənfur olan Rusiya, millətləri əzən və hüquqları verməyən rəsmi Rusiyadır».

M.Ə.Rəsulzadənin siyasi baxışlarında ifadə olunan mühüm məsələlərdən digəri federasiyaya münasibətdir. O, 1917-d ilə kimi Muxtar federasiya tərəfdən idisə, sonra isə müstəqil dövlət yaratmaq ideyasını irəli sürmüşdür.

M.Ə.Rəsulzadə Müsavat partiyasının proqramındakı «Dövlət quruculuğu» bölməsində də milli məhəlli Muxtariyyət statusunu irəli sürmüşdür. Lakin yuxanda qeyd etdiyiniz kimı, o, sonradan müstəqil Azərbaycan dövlətinin yaradılması ideyasını irəli sürmüş və onu praktiki olaraq həyata keçirənlərdən biri olmuşdur.

XX əsrin əvvəllərində Azərbaycanda iki siyasi ideya islam federasiyası və türk federasiyası ideyaları geniş yayılmışdı. M. Rəsulzadənin əsərlərində həmin sıyasi ideyalara münasibət əhəmiyyətli yer tutur. O, «Əsrimizin Səyavuşu»nda yazmışdı: «İttihadiislam» (Islam birliyi) mümkün olmayacaq bir xəyal, bir utopiyadır. Bilkəs bütün türklərin, bütün farsların, bütün ərəblərin ictimai bir vücud kimi birləşmələri həm mümkün, həm də istənilən bir haldır».

M.Ə.Rəsulzadənin fəaliyyətində müstəmləkə idarəetmə sisteminə qarşı mübarizə, xalqın ictimai-siyasi şüurunda Milli dövlət ideyasının yaradılması və onun real həqiqətə çevrilməsi mühüm yer tutur. 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Demokratik Respublikası islam dünyasında ilk parlamentli respublika idi. M.Ə.Rəsulzadə 28 may 1919-cu ildə «Azərbaycan» qəzetində çap etdirdiyi məqaləsində yazırdı: «Türk mənşəli bütün başqa dövlətlər meydana gələrkən xüsusən dini əsasa söykənmişdirsə, Azərbaycan respublikası türk milli-demokratik dövlətçiliyi zəminində milli-mədəni təyini müqəddəratın müasir özülünə əsaslanmışdır. Bu nöqteyi-nəzərdən bizim respublikamız birinci türk dövlətidir».

M.Ə.Rəsulzadə Azərbaycanda təşkil edilən parlamentli respublika idarə formasını yüksək qiymətləndirirdi.1918-ci ilin mayın 28-də yaradılan Azərbaycan Demokratik Respublikası islam dünyasında ilk parlamentli respublika idi (7, səh.48).

M.Ə.Rəsulzadə Azərbaycan parlamentinin təntənəli açılışında demişdir: «Müsavat» partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi bayrağını yüksəyə qaldırmışdır. Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir... Bir dəfə yüksələn bayraq bir daha enməz”.(Azərbaycan qəzeti, №59, 13 dekabr, 1918-ci il).

M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi «Müsavat» fraksiyası parlamentin əsas fraksiyalarından hesab olunur. Bu partiya Azərbaycan dövlətinin müstəqilliyi, torpaqların kəndlilərin arasında pulsuz bölünməsi, 8 saatlıq iş günü, və s. başqa demokratik islahatlar uğrunda da mübarizə aparırdı.

Paris sülh konfransına Qafqaz Azərbaycanı nümayəndələri (nümayəndə heyətinin başçısı Ə.B.Topçubaşov olmuşdur) tərəfindən təqdim edilən tələblərdə parlamentin idarə edilməsi haqqında yazılmışdı: «Bütün Nazirliklərin Xarici işlər nazirliyi də daxil olmaqla inzibati, hüquqi, maliyyə, maarif, rabitə və sair sahələrindəki dövlət institutlarının fəaliyyəti Parlamentin nəzarəti altında həyata keçirilməlidir, hətta hərbi nazirlik də parlamentin nəzarəti altında olmalıdır».

Parlamentin istifadə etdiyi dil, dövlət dili statusuna malik Azərbaycan türkcəsi olmuşdur.

Azərbaycan Dövlət Universitetinin yaradılmasında M.Ə.Rəsulzadənin böyük xidmətləri vardır. 1920-ci il üçün Azərbaycan Respublikasının «təqvim-ünvanı»nın dördüncü hissəsindən məlum olur ki, M.Ə. Rəsulzadə Tarix-filologiya fakültəsində «Osmanlı ədəbiyyatı tarixi» fənnindən dərs demişdir.

**Beşinci mərhələ**: 1920-1955-ci illəri əhatə edir. 1920-ci ildə Azərbaycan ruslar tərəfindən işğal edildikdən sonra avqustun 17-də M.Ə.Rəsulzadə Lahıc qəsəbəsində həbsə alınmışdır (10, səh280).

Onun tutulması xəbərini həmin il noyabr ayının əvvəllərində Vladiqafqaz (indiki Orconikidze) şəhərində olan İ.V.Stalinə xəbər verilmişdir. İ.V.Stalin heç kəsə xəbər vermədən təcili Bakıya gələrək özü şəxsən Bayıl həbsxanasına getmişdir. M.Ə.Rəsulzadını Bayıl həbsxanasından çıxardaraq özü ilə birlikdə Moskva şəhərinə aparmışdır. M.Ə.Rəsulzadəni RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etmişdir.

1922-ci ilin payızında M.Ə.Rəsulzadə Peterburqa ezamiyyətə göndərilmişdir. Bakı müsavat partiyasının gizli təşkilat üzvlərinin köməkliyi ilə Peterburqdan fin körfəzinə

aparılmış, Finlandiyadan keçərək Türkiyəyə gətirilmişdir.

1923-cü ildə İstanbulda M.Ə. Rəsulzadənin “Əsrimizin Səyavuşu”, “Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti” adlı kitabları nəşr olunmuşdur.

1975-ci ildə İstanbulda “Yeni Qafqaziya” jurnalı çap edilmişdir. O 1925-ci ildə “İstiqlal məfkurəsi və Gənclik”, 1926-cı ildə isə “Rusiyada siyasi vəziyyət” adlı əsərlərini çap etdirmişdir.

1928-1931-ci illərdə M.Ə.Rəsulzadənin redaktorluğu ilə “Odlu yurd” və “Bildiriş” adlı qəzetlər nəşr olunmuşdur.

M.Ə.Rəsulzadənin 1930-cu ildə Fransada fransız dilində “Azərbaycan istiqlaliyyəti”, rus dilində isə “Qafqaz problemi ilə əlaqədar pantürkizm”, 1933-cü ildə Berlində “Azərbaycan Respublikası haqqında bəzi qeydlər” adlı əsərləri çap edilmişdir.

M.Ə.Rəsulzadə İstanbuldan Avropaya getmiş, 1938-ci ildə Polşa hökumətində məsləhətçi işləmiş, 1940-cı ildə isə Rumıniyada yaşamışdır. O, bu dövrdə yaradıcılığını davam etdirərək, əsərlərində Azərbaycan məfkurəsi ideyasını daha da inkişaf etdirmişdir.

Məhəmməd Əmin Rəsulzadənin həyat tərzi çox mürəkkəb keçmişdir. O, gənclik dövrünü Azərbaycanda, İranda, Türkiyədə keçirmişdir. Orta ömür dövründə Moskva şəhərində, yenidən Türkiyədə olmuş, oradan Polşaya getmiş, sonra Rumıniyaya gedərək orada yaşamışdır. Almaniyada sakitlik yarandıqdan sonra 1944-cü ildə Almaniyaya getmişdir. Özünü narahat hiss edən M.Ə.Rəsulzadə 1947-ci ildə Türkiyəyə qayıtmışdır.

Məhəmməd Əmin Rəsulzadə ictimai-siyasi fəaliyyəti ilə yanaşı, bədii ədəbiyyata da yaradıcılığında geniş yer ayırmışdır.

M.Ə.Rəsulzadə ictimai-siyasi fəaliyyəti dövründə bir sıra qəzetlərin, jurnalların redaktoru olmuşdur. O, eyni zamanda həmin dövrdə yazdığı məqalə və əsərlərində azadlıq, müstəqillik, bərabərlik haqqında bir sıra fikirlər irəli sürülmüşdür.

M.Ə.Rəsulzadə ömrünün sonuna yaxın 1947-ci ildə Avropadan Türkiyəyə qayıtmış, 1955-ci il mart ayının 5-də Türkiyənin Ankara şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur.

“Bir daha yüksələn bayraq bir daha enməz” fikri bu gün də Azərbaycan xalqı üçün əzizdir. İndi həmin bayraq müstəqil Azərbaycan Respublikasının bütün ərazilərində dalğalanır.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. 3 cilddə. Bakı, 1973
2. Müasir Azərbaycan ədəbiyyatı tarixi. II cild, Bakı, 2007
3. Azərbaycan Sovet Ensiklopediyası. VIII cild, Bakı, 1984
4. Rəsulzadə M.Ə. Seçilmiş əsərləri. Bakı, 2005
5. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 2015
6. Rəsulzadə M.Ə. Azərbaycan milli hərəkatı. Bakı, 2009
7. Şirinov A.M., İbadov N.S. Politologiya, B., 2019
8. Köçərli F. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı, 1926
9. İbadov N., Eyyubov İ.Ə. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda siyasi fikir. Bakı, 1996
10. Eyyubov İ.Ə. Azərbaycanın siyasi təlimlər tarixi. Bakı, 2011
11. “Türk yurdu” jurnalı, №4, 1911-ci il
12. “Bakı” qəzeti, №90 12 aprel 1917-ci il
13. “Azərbaycan” qəzeti 30 dekabr 2023-cü il

**Eyyubov İsmayıl**
**Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi görüşləri (1884-1955)**
**Xülasə**

Məqalədə M.Ə.Rəsulzadənin ictimai-siyasi fəaliyyəti geniş bəhs olunur və qeyd edilir ki, onun siyasi fəaliyyətində müstəmləkə idarəetmə sisteminə qarşı mübarizə, xalqın ictimai-siyasi şüurunda milli dövlət ideyalarının yaradılması və onun gerçəkləşməsi mühüm yet tutur. Məqalədə həmçinin M.Ə.Rəsulzadənin parlamentli respublika idarəetmə formasını yüksək qiymətləndirdiyi göstərilir.

**Эюбов Исмаил**
**Общественно-политические взгляды Мухаммада Амина Расулзаде (1884-1955)**
**Аннотация**

В статье подробно рассматривается общественно-политическая деятельность М.А.Расулзаде и отмечается, что в его политической деятельности борьба с колониальной системой управления, создание национально-государственных идей в общественно-политическом сознании народа, его реализация являются важными элементами. В статье также показано, что М.А. Расулзаде высоко ценил парламентскую республиканскую форму правления.

**Eyubov Ismail**
**Socio-political views of Muhammad Amin Rasulzade (1884-1955)**
**annotation**

The article examines in detail the socio-political activities of M.A. Rasulzade and notes that in his political activities the fight against the colonial system of government, the creation of national-state ideas in the socio-political consciousness of the people, its implementation are important elements. The article also shows that M.A. Rasulzade highly valued the parliamentary republican form of government.

# BEYNƏLXALQ SEÇKİ MÜŞAHİDƏSİ

***Axundova Gülarə Eldar qızı***
***magistrant***
*gulareaxundova@mail.ru*

***Açar sözlər***: beynəlxalq seçki müşahidəsi, seçki sistemi, hüquq və azadlıqlar, vətəndaş, ədalətli, düzgün

***Ключевые слова***: международное наблюдение за выборами, избирательная система, права и свободы, гражданин, честно, правильно.

***Key words***: international election observation, electoral system, rights and freedoms, citizen, honestly, correctly.

Ədalətli və demokratik seçkilər ölkənin suverenliyini əks etdirir ki, burada da xalq hökumətin səlahiyyətlərinin və qanuniliyinin əsasını təşkil edən söz azadlığına malikdir. Mütəmadi olaraq seçkilərin ədalətli və demokratik şəkildə həyata keçirilməsində vətəndaşların seçmək və seçilmək hüquqları beynəlxalq aləmdə qəbul edilmiş insan hüquqlarıdır. Seçkilərin ədalətli və demokratik keçirilməsi ölkə daxilində siyasi hakimiyyət uğrunda rəqabətin sülhməramlı həllinə xidmət göstərir və beləliklə, sülh və stabilliyin qorunub saxlanılmasına kömək edir. Seçkilərin ədalətli və demokratik keçirilməsi yolu ilə qanuniləşdirilmiş hökumətlərdə hakimiyyətin demokratikliyinə qarşı olan əngəllər aradan qaldırılır.Seçkilərin ədalətli və demokratik keçirilməsi demokratik idarəçiliyin zəruri şərtidir, çünki bu cür seçkilər vasitəsilə xalq qanunun tələb etdiyi əsaslarla öz iradəsini azad ifadə edir, onun adından və maraqları naminə idarə etmək kimi qanuni hüququn kimə aid olduğunu müəyyənləşdirir. Seçkilərin ədalətli və demokratik keçirilməsinə nail olmaq demokratik idarəçilik təsisatlarının yaradılmasının və buna dair daha geniş proseslərin bir tərkib hissəsidir.

Buna görə də, bütün seçki prosesləri seçkilərin ədalətli və demokratik keçirilməsinə dair ümumi prinsiplərə cavab versə də, seçkilər baş verdiyi siyasi, mədəni və tarixi şəraitə əsasən qiymətləndirilir.Digər insan hüquqları və əsas azadlıqları irq, dəri, cins, dil, din, siyasi və digər fikirlər, milli və ya sosial mənşə, mülkiyyət, məhsəb və digər statuslara görə ayrı-seçkilik qoyulmadan və heç bir əsassız məhdudiyyətlər olmadan həyata keçirilməsə, seçkilərin ədalətli və demokratik keçirilməsinə nail olmaq mümkün deyil.

Qanunun hökmünə əməl olunmadan digər insan hüquqları və geniş mənada desək, demokratiya kimi, seçkilərin də keçirilməsinə nail olmaq olmaz. Bu qaydalar insan hüquqları, digər beynəlxalq materiallar və bir sıra hökumətlərarası təşkilatların sənədlərində öz əksini tapır. Buna görə də, seçkilərin ədalətli və demokratik keçirilməsi həm beynəlxalq təşkilatların, həm də dövlət təsisatlarının, siyasi rəqabət iştirakçılarının, vətəndaşlar və onların vətəndaş cəmiyyətlərinin maraq dairəsinə çevrilib.Vətəndaş hüquqlarını və siyasi hüquqları nəzərdə tutan beynəlxalq seçki müşahidəsi beynəlxalq insan hüquqları monitorinqinin bir hissəsi olub, siyasi rəqabət iştirakçıları tərəfindən ədalətli şəkildə, ən yüksək standartlara uyğun həyata keçirilməlidir və ədaləti pozan ikitərəfli, yaxud çoxtərəfli fikirlərdən uzaq olmalıdır.

Beynəlxalq seçki müşahidəsi pozuntuların, saxtakarlığın qarşısını almaqla və seçki proseslərinin təkmilləşdirilməsi məqsədilə tövsiyyələr verməklə, seçki proseslərinin düzgünlüyünün qorunub saxlanmasına kömək edir. Beynəlxalq seçki müşahidəsi ictimaiyyətin etimadını gücləndirir, seçkidə iştirakı artırır və seçki ilə bağlı münaqişəni aradan qaldırır. Müşahidə həmçinin, demokratiyanın inkişafına dair təcrübə və informasiya mübadiləsi vasitəsilə beynəlxalq anlaşmanın gücləndirilməsinə də xidmət göstərir.

Beynəlxalq seçki müşahidəsi dünya ictimaiyyəti tərəfindən geniş şəkildə qəbul edilir, seçki proseslərinin xarakterini düzgün və qərəzsiz şəkildə qiymətləndirməkdə mühüm rol oynayır. Düzgün və qərəzsiz beynəlxalq seçki müşahidəsi etibarlı metodologiya və dövlət

hakim dairələri, siyasi rəqabətin iştirakçıları (siyasi partiyalar, namizədlər, namizədlər və referendumda qaldırılmış məsələlərə dair mövqelərini dəstəkləyənlər), yerli seçki monitorinqtəşkilatları, digər etibarlı beynəlxalq seçki müşahidə təşkilatları və digərləri ilə əməkdaşlığı tələb edir.Bu Bəyannaməni və Beynəlxalq Seçki Müşahidəçiləri üçün əlavə edilmiş Davranış Kodeksini dəstəkləyən hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatları aşağıdakıları birgə bəyan edirlər:

1. Ədalətli və demokratik seçkilər ölkənin suverenliyini əks etdirir ki, burada da xalq hökumətin səlahiyyətlərinin və qanuniliyinin əsasını təşkil edən söz azadlığına malikdir. Mütəmadi keçirilən seçkilərin ədalətli və demokratik şəkildə həyata keçirilməsində vətəndaşların seçmək və seçilmək hüquqları beynəlxalq aləmdə qəbul edilmiş insan hüquqlarıdır. Ədalətli və demokratik seçkilər sülh və sabitliyin qorunub saxlanılmasında mühüm rol oynayır və demokratik idarəçiliyə zəmin yaradır.

2. Ümumi İnsan Hüquqları Bəyannaməsi, Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt və digər beynəlxalq razılaşmalara əsasən, hər kəs beynəlxalq insan hüquqları prinsipləri tərəfindən qadağan olunmayan ayrı-seçkilik və əsassız məhdudiyyətlər qoyulmadan, öz ölkəsinin dövlət və ictimai məsələlərində iştirak etmək imkanına və hüququna malik olmalıdır. Bu hüquq referendumda iştirak etməklə birbaşa, seçilmiş vəzifəyə namizədliyini irəli sürmə və digər yollarla, yaxud azad şəkildə seçilmiş nümayəndələr vasitəsilə həyata keçirilə bilər.

3. Ölkədə xalqın iradəsi hökumətin səlahiyyətlərinin əsasını təşkil edir və bu iradə mütəmadi keçirilən ədalətli seçkilər yolu ilə müəyyənləşdirilir ki, bu seçkilər də gizli səsvermə və ya analoji azad səsvermə prosedurları yolu ilə ümumi və bərabər seçki hüququ vasitəsilə azad səs vermək və seçilmək imkanı və hüququ ilə təmin edir, səsvermənin nəticələri düzgün hesablanır, elan edilir və qəbul edilir. Buna görə də, seçkilərin ədalətli və demokratik şəkildə keçirilməsində bir sıra hüquq və azadlıqlar, proseslər, qanunlar və təsisatlar cəlb olunur.

4. Beynəlxalq seçki müşahidəsi aşağıdakılardan ibarətdir: seçkilərin keçirilməsinə dair qanunlar, proseslər və təsisatlarla bağlı informasiyanın, bütün seçki mühiti ilə bağlı digər faktorların sistematik, ətraflı və düzgün şəkildə toplanması; bu cür informasiyanın qərəzsiz və keyfiyyətli təhlili; informasiyanın düzgünlüyü və təhlilin qərəzsizliyinə dair ən yüksək standartlara əsaslanan seçki proseslərinin xarakteri ilə bağlı rəy formalaşdırmaq. Beynəlxalq seçki müşahidəsi seçki və seçki ilə bağlı digər proseslərə müdaxilə etmədən, mane olmadan, mümkün olduğu zaman, bu cür proseslərin düzgünlüyünü və səmərəliliyini təkmilləşdirmək məqsədilə tövsiyyələr verir. Beynəlxalq seçki müşahidə missiyaları beynəlxalq seçki müşahidəsinin həyata keçirilməsi məqsədilə hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatları və assosiasiyalarının birgə səylərini özündə cəmləşdirir.

5. Beynəlxalq seçki müşahidəsi müxtəlif üsullardan istifadə edərək, hərtərəfli və uzunmüddətli müşahidə yolu ilə seçkiqabağı, seçki günü və seçkidən sonrakı dövrləri qiymətləndirir. Bu cəhdlərin bir hissəsi olaraq, peşəkar müşahidəçi missiyaları seçkiqabağı və ya seçkidən sonrakı məhdud məsələləri və xüsusi prosesləri (seçki dairələrinin sərhədlərinin müəyyən olunması, seçicilərin siyahıya alınması, elektron texnologiyadan istifadə və seçkiyə dair şikayətlərə baxılması mexanizminin fəaliyyəti və s.) nəzərdən keçirir. Təcrid olunmuş, peşəkar müşahidəçi missiyaları da fəaliyyət göstərə bilərlər, lakin belə missiyalar ictimaiyyətə açıq-aşkar bəyan edirlər ki, onların fəaliyyəti və rəyləri məhdudlaşdırılır və fəaliyyətlərinin bu cür məhdudlaşdırılması nəticəsində bütün seçki prosesinə dair rəy formalaşdıra bilmirlər. Bütün müşahidəçi missiyaları seçki gününün seçkinin keçirildiyi şəraitə nəzərən baxılmasına səy göstərməli və seçki əhəmiyyət kəsb edə bilər ki, bu zaman qərəzsiz və düzgün rəylər münaqişələrin yaranmasının qarşısının alınmasına kömək edə bilər.

6. Beynəlxalq seçki müşahidəsi ölkədə seçkini keçirən xalqın və beynəlxalq ictimaiyyətin mənafeyi naminə keçirilir. Bu, proses xarakterli olub konkret seçki nəticələri ilə bağlı deyil və yalnız o zaman seçki nəticələrinə aid olur ki, bu nəticələr şəffaf şəkildə və vaxtında ədalətli,

düzgün elan olunsun. Düzgün, qərəzsiz müşahidələr aparmağa və seçki prosesinə dair düzgün, qərəzsiz rəy formalaşdırmağa mane olan siyasi, iqtisadi və mənafe toqquşmasından uzaq olmayan heç bir kəs beynəlxalq seçki müşahidəçi missiyasının üzvü ola bilməz. Uzadılmış müddətlərdə uzunmüddətli müşahidəçilər tərəfindən, həmçinin, seçki günü müşahidələri zamanı məhdud müddətlərdə bu tələbə riayət olunmalıdır, belə ki, bu müddətlərin hər biri bitərəf və qərəzsiz təhlil aparmağa xüsusi çətinlik törədir. Beynəlxalq seçki müşahidəçi missiyaları seçkiləri müşahidə etdikləri hökumətdən maliyyə və maddi yardım qəbul etməməlidirlər, belə ki, bu, mənafelərin toqquşmasına səbəb olar və missiyaların rəylərinin düzgünlüyünə inamı azaldar.

7. Beynəlxalq seçki müşahidəçi missiyaları ictimaiyyətə vaxtında düzgün və qərəzsiz bəyannamələr çatdırmalı (seçki dairələrinə və onların münasib dövlət idarələrinə nüsxələrini verməklə) və seçki ilə bağlı proseslərin təkmilləşdirilməsinə kömək edəcəyini hesab etdikləri rəylər və münasib tövsiyyələr verməlidirlər. Missiyalar ölkədə olduqlarını, missiyanın mandatı, tərkibi və müddəti haqqında açıq şəkildə xəbər verməli, münasib hallarda hesabatlar hazırlamalı, müşahidələrə dair seçkidən sonrakı ilkin bəyannamə və seçki prosesinin nəticəsinə dair yekun hesabat təqdim etməlidirlər. Beynəlxalq seçki müşahidəçi missiyaları missiyanın müşahidələri, rəyləri və tövsiyyələrini müzakirə etmək üçün ölkədə ədalətli və demokratik seçkilərin təşkilində maraqlı olan şəxslərlə şəxsi görüşlər keçirə bilər. Beynəlxalq seçki müşahidəçi missiyaları nüfuzlu hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatlarına hesabat verə bilərlər.

**Ədəbiyyat siyahısı**


1. Çirkin Xarici ölkələrin Konstitusiya hüququ.Bakı,2000
2. Beynəlxalq seçki müşahidəsi haqqında bəyannamə. htpps://www.ndi.org
3. Beynəlxalq seçki missiyasının ilkin hesabatına dair XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev tərəfindən mətbuat açıqlama. htpps://www.osce.org


**Axundova Gülarə**

**Beynəlxalq Seçki Müşahidəsi**

**Xülasə**

Beynəlxalq seçki müşahidəsi insan hüquqlarına hörmət və qanunun hökmü də daxil olmaqla, demokratiyanın inkişafının bir hissəsi kimi seçkilərin demokratik keçirilməsində beynəlxalq ictimaiyyətin maraqlarını əks etdirir. Beynəlxalq seçki müşahidəsi pozuntuların, saxtakarlığın qarşısını almaqla və seçki proseslərinin təkmilləşdirilməsi məqsədilə tövsiyyələr verməklə, seçki proseslərinin düzgünlüyünün qorunub saxlanmasına kömək edir. Beynəlxalq seçki müşahidəsi ictimaiyyətin etimadını gücləndirir, seçkidə iştirakı artırır və seçki ilə bağlı münaqişəni aradan qaldırır.

**Akhundova Gulara**

**International Election Observation**

**Summary**

International election observation reflects the interests of the international community in the democratic conduct of elections as part of the development of democracy, including respect for human rights and the rule of law. International election observation helps maintain the integrity of electoral processes by preventing irregularities and fraud and making recommendations for improving electoral processes. International election observation strengthens public confidence, increases participation in elections and eliminates election-related conflict.

**Ахундова Гюляра**

**Международное наблюдение за выборами**

**Резюме**

Международное наблюдение за выборами отражает интересы международного сообщества в демократическом проведении выборов как часть развития демократии, включая уважение прав человека и верховенства закона. Международное наблюдение за выборами помогает поддерживать честность избирательных процессов, предотвращая нарушения и фальсификации, а также давая рекомендации по улучшению избирательных процессов. Международное наблюдение за выборами укрепляет общественное доверие, увеличивает участие в выборах и устраняет конфликты, связанные с выборами.

# XALQI MİLLİ İDEYA ƏTRAFINDA BİRLƏŞDİRƏN ÜMUMİLLİ LİDER

***Hüseynova Gülgün Kamal qızı magistrant***
***Bakı Dövlət Universiteti***
*huseynova_gulgun@mail.ru*

***Açar sözlər***: Heydər Əliyev, milli ideya, xalq, azərbaycançılıq ideologiyası
***Keywords***: Heydar Aliyev, national idea, people, Azerbaijani ideology
***Ключевые слова***: Гейдар Алиев, национальная идея, народ, азербайджанская идеология

**Giriş.**

Bir millətin tarixinin zənginliyində uzaqgörən liderlərin yeri çox vaxt onun şəxsiyyətinin formalaşmasında və xalqı arasında birlik hissinin gücləndirilməsində əsas rol oynayır. Köklü tarixə malik bir ölkə olan Azərbaycan belə korifeylərdən birini ümummilli lider Heydər Əliyev tapdı, onun əbədi irsi xalqın təhsil sisteminin toxumasına və möhkəm milli ideologiyanın inkişafına çox hopmuşdur.

1969-cu ildən başlayan Heydər Əliyevin rəhbərliyi milli tərəqqinin təməl daşı kimi təhsilin inkişafına dərin sadiqliyi ilə yadda qaldı. Ali təhsilin və elmi innovasiyaların əhəmiyyətini dərk edən Heydər Əliyev hər bir vətəndaşın keyfiyyətli təhsil almaq imkanının olması üçün əməli tədbirlər həyata keçirib. Onun rəhbərliyi ilə Azərbaycan milli məfkurəsinin möhkəmlənməsinə töhfə verə biləcək, əhalidə dərin dövlətçilik şüurunun aşılanmasına xidmət edən ixtisaslı kadrların yetişdirilməsinə yönəlmiş milli təhsil hərəkatı başlandı.

Əhalini ümumi məqsədlər altında birləşdirmək üçün mühüm əhəmiyyət kəsb edən milli ideologiya Heydər Əliyevdə öz möhkəm müdafiəçisini tapdı. Onun rəhbərliyi tarixi ənənələrə və əsaslara söykənən unikal ideologiya olan azərbaycançılığın formalaşmasında mühüm rol oynamışdır. Heydər Əliyev Azərbaycan cəmiyyətinin həmrəyliyini və bütövlüyünü təmin edərək, xalqın adət-ənənələrini, dəyərlərini qloballaşmanın yaratdığı çağırışlardan uğurla qorudu.

Heydər Əliyevin irsi təkcə onun həyata keçirdiyi siyasət və islahatlarla deyil, həm də azərbaycanlıları birləşdirən milli ideologiyanın formalaşmasına verdiyi dərin təsirlə davam edir. Ulu öndərin nəzərdə tutduğu azərbaycançılıq xalqın sosial-mədəni, etnik-geosiyasi və fəlsəfi-ictimai inkişafı üçün bələdçi çıraq olaraq qalır, Azərbaycanın davamlı tərəqqisinin və birliyinin əsasını qoyur.

**Əsas hissə.**

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqında milli məfkurənin güclənməsi, milli dövlətçilik şüurunun formalaşması üçün hər bir vətəndaşın yüksək təhsil almasını, elmi yenilikləri əxz etməsini son dərəcə vacib sayaraq bu sahədə də praktik addımlar atmışdır. Ulu öndərin rəhbərliyi altında respublikada milli maarifçilik hərəkatına start verilmiş, təhsilin milliləşdirilməsi, ictimai elmlərin milli xarakterinin qorunması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir. Böyük strateqin ötən əsrin 70-80-ci illərində minlərlə gəncin respublikamızın hüdudlarından kənarda yüksək təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də onun xeyirxahlığının və vətənpərvərliyinin əyani təcəssümüdür.

Ümummilli lider çox sonralar 1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edən bir çox məqamlara toxunaraq demişdi: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində

işləmişdim. Azərbaycanda təhsilin, xüsusilə ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdı və mən bu barədə xeyli məlumatlara malik idim... Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir... Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum" [1].

Tarix sübut edir ki, hər bir xalqın vahid məqsədlər uğrunda toparlanması üçün zəruri olan milli ideologiya da böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında real əsaslarını tapır. Şübhəsiz, milli ideologiya milli düşüncə sisteminin əsas potensiyasının real siyasi məqsədlər naminə səfərbər edilməsidir. Milli ideologiyanın tələbləri sırasında dövlətçiliyin, milli mənafenin müdafiə edilməsi, milliyyətindən asılı olmayaraq hər bir vətəndaşın haqlarının ümumbəşəri tələblər səviyyəsində qorunması, milli azlıqların və etnik qrupların dilinin, mədəniyyətinin, adət-ənənələrinin inkişafına şərait yaradılması, dövlət idarəedici orqanlarında onların düzgün təmsil olunması və s. amillər mühüm yer tutur [2]. Mövcudluq tarixində böyük liderlər, rəhbərlər yetişdirə bilməyən xalqların milli ideologiyasından da danışmaq mümkün deyildir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də tarixi ənənə və təməl üzərində milli ideologiyanın formalaşması və inkişafı naminə misilsiz xidmətlər göstərmiş, milli düşüncənin düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmışdır. Çağdaş tariximizə öz möhürünü vurmuş Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur [5, 85]. Milli irs və düşüncə sistemindən qaynaqlanan bu ideya dərin məzmun yükü ilə cəmiyyətin təkamül prosesində, tərəqqisində və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ümummilli liderə xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı yaratmışdır.

Ümummilli lider xarici ölkələrə səfərləri zamanı azərbaycanlılarla çoxsaylı görüşlər keçirmiş, xaricdə yaşayan soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa səsləmişdir. Ulu öndər daim həmvətənlərimizi yaşadıqları ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməyə, eyni zamanda, Vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlamağa, bir an da olsun Azərbaycanı təmsil etdiklərini unutmamağa çağırmışdır. 1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Bu gün siyasi baxışlarından asılı olmayaraq, hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın nəzərində bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

Ulu öndər özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və

lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti son 10 ildə dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

Müstəqillik illərində Azərbaycanın milli ideologiyası ilk dəfə Yeni Azərbaycan Partiyasının nizamnaməsində əksini tapmışdır. 1998-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının 6-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda ümummilli lider Heydər Əliyev milli ideologiyanın şərhinə geniş yer verərək demişdir ki, dövlətçilik, milli-mənəvi və bəşəri dəyərlər azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. Dünya Azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabrın-da keçirilmiş I Qurultayında isə ümummilli lider Heydər Əliyev demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" [8, s. 15].

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir [3, s. 346].

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. O, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla, strateji inkişafın əsas yollarının və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin sanbalında öz əksini tapır [4, s. 7].

Ölkəmizin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi azərbaycançılıq ideologiyasının diaspor quruculuğunda üstün cəhəti ilk növbədə onun milli maraqlarımızın tam palitrasını əhatə etməsidir [5, s.127]. Milli-mənəvi, islamı-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də çox müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün də cəlbedicidir. Xalqlararası və mədəniyyətlərarası dialoqu müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir.

Ulu öndərin siyasi ideallarına tapman dövlət başçısı İlham Əliyev milli-mənəvi dəyərlər sisteminə xüsusi qayğı göstərməklə yanaşı, haqlı olaraq vurğulayır ki, demokratik prinsiplərlə yaşamaq, bu yönümdə inkişaf etmək arzusunda olan hər bir dövlət ölkəsində

cəmiyyət daxili tolerantlığın bərqərar olmasını təmin etməlidir [7, s.70]. Dövlət başçısı xalqın vahid məqsədlər naminə səfərbər olmasında, milli diaspor hərəkatının formalaşması və inkişafında azərbaycançılıq ideologiyasının müstəsna roluna daim xüsusi diqqət yetirir. Cənab İlham Əliyev xüsusi vurğulayır ki, azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq xarici ölkələrə köçmüş bütün vətəndaşlara hüquqi və mənəvi baxımdan bərabər münasibət var. Milli dövlətçilik ideyası, dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi fikri, Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti, bütün soydaşlarımızın vətəni hesab edilməsi azərbaycançılığın mühüm meyarlarındandır. Bu konseptual ideya özlüyündə əhəmiyyətli olmaqla bərabər, xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə iqtisadi əlaqələrinin inkişafı, onların müxtəlif maraqlarının hüquqi təminatı üçün də ciddi əsaslar yaradır.

**Nəticə**

Yekun olaraq qeyd edək ki, ümummilli lider Heydər Əliyevin təhsil mənzərəsində, Azərbaycan milli məfkurəsinin inkişafında qoyduğu silinməz iz onun uzaqgörən liderliyinin, millətin tərəqqisinə sarsılmaz sadiqliyinin göstəricisidir. Milli təhsil hərəkatının başlanması və ictimai elmlərin milli xarakterini qorumaq tədbirləri ilə birlikdə, yaxşı təhsilli, ixtisaslı əhalinin yetişdirilməsində Heydər Əliyevin uzaqgörənliyini nümayiş etdirir. Ulu öndərin 70-80-ci illərdə minlərlə azərbaycanlı gəncin xaricə ali təhsil alması üçün göstərdiyi səylər onun mehribanlığını və vətənpərvərliyini vurğulayır, təkcə şəxsi inkişafa deyil, həm də millətin mənafeyi naminə ixtisaslı işçi qüvvəsinin formalaşdırılmasına yönəlmişdir.

Heydər Əliyevin azərbaycançılıq baxışı polietnik xalqın ümumi maraqlarını uğurla əks etdirir, demokratiya, azad iqtisadiyyat, sosial şəraitin yaxşılaşdırılması məqsədlərinə xidmət edirdi. Onun rəhbərliyi Azərbaycan cəmiyyətində həmrəylik və bütövlüyə nail olmaqla yanaşı, həm də köklü milli ideologiyaya əsaslanan davamlı tərəqqi və birliyə zəmin yaradıb.

Azərbaycan müasir dövrün çağırışları ilə mübarizə apararkən, Heydər Əliyev irsi xalqı öz şəxsiyyətini qorumağa, ümumbəşəri dəyərləri mənimsəməyə və firavan gələcəyə doğru kollektiv şəkildə işləməyə ruhlandıran bir mayak kimi dayanır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan, 10 noyabr 2001
2. Azərbaycan mədəniyyətinə Heydər Əliyev qayğısı // Xalq qəzeti, 19 iyul 1997
3. Cəbrayılov R., "Heydər Əliyev və azərbaycançılıq ideologiyası" // Azərbaycan, 2011.-17 may, S. 6.
4. Hüseynova İ., Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXI əsr, 2008, №118-119, s. 344-354
5. Olub-keçənləri düşünərkən. Heydər Əliyevlə müsahibə // Ulduz, 1990, №6, s. 5-9
6. Orucov H., Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.
7. Qəndilov S. Azərbaycan Heydər Əliyevlə müstəqillik yollarında // Dirçəliş-XXI əsr, 2001, №44, s. 80-86
8. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah // Dirçəliş-XXI əsr, 2002, №49. s. 68-85
9. Гусейнова И. Гейдар Алиев и национально-духовные ценности азербайджанского народа // Dircəliş-XXI əsr, 2009, № 128-129, с. 73-90 10. Мирзазаде А. Мир о Гейдаре Алиеве // Возрождение - XXI век, 1999, № 3-4, с. 13-22

**Hüseynova Gülgün**

**XALQI MİLLİ İDEYA ƏTRAFINDA BİRLƏŞDİRƏN ÜMUMİLLİ LİDER**

**Xülasə**

Məqalədə Heydər Əliyevin Azərbaycan təhsilinə və ideologiyasına təsirinin hərtərəfli mənzərəsi açılır, o, ali təhsili, milli kimliyi və birləşdirici milli ideologiyanın inkişafını prioritet hesab edən uzaqgörən lider kimi göstərilir. Azərbaycançılıq anlayışı Heydər Əliyev tərəfindən dəstəklənən, dövlətçiliyi, milli-mənəvi dəyərləri, bəşəri dəyərləri önə çəkən milli ideologiya kimi təqdim edilir. Məqalədə vurğulanır ki, azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-ictimai doktrinasında sosial-mədəni və etnik-geosiyasi aspektləri əks etdirən polietnik xalqı birləşdirir. Həmçinin məqalədə Heydər Əliyevin Azərbaycan milli ideologiyasının formalaşmasında xidmətləri araşdırılır. Milli ideologiyanın bir milləti birləşdirmək və ümumi məqsədlərə çatmaq üçün həlledici əhəmiyyət kəsb etdiyini müdafiə edir. Heydər Əliyevin tarixi ənənələrə əsaslanan milli ideologiyanın inkişafında, adət-ənənələrin və dəyərlərin qloballaşmanın təsirindən qorunmasında, ictimai həmrəyliyin gücləndirilməsində misilsiz xidmətləri var.

**Гусейнова Гюльгюн**

**ЛИДЕР, ОБЪЕДИНИВШИЙ ОБЩЕСТВО ВОКРУГ НАЦИОНАЛЬНОЙ ИДЕИ**

**Аннотация**

В статье в философско-политическом контексте рассматривается исторический феномен деятельности общенационального лидера Гейдара Алиева по созданию демократических основ азербайджанской государственности и развитию идеологии азербайджанства в контексте национальных духовных ценностей и национального самосознания, гармонично сочетающихся по мнению автора с формированием национальной идеи, априори включающей компоненту общечеловеческих духовных ценностей.

**Huseynova Gulgun**

**A NATIONAL LEADER WHO UNITES THE PEOPLE AROUND A NATIONAL IDEA**

**Summary**

The article provides a comprehensive picture of Heydar Aliyev's influence on Azerbaijani education and ideology, showing him as a visionary leader who prioritizes higher education, national identity and the development of a unifying national ideology. The concept of Azerbaijanism is presented as a national ideology supported by Heydar Aliyev, which emphasizes statehood, national moral values, and human values. The article emphasizes that Azerbaijaniism unites the polyethnic people reflecting socio-cultural and ethnic-geopolitical aspects in the philosophical-social doctrine of independent Azerbaijan.

The article also examines the services of Heydar Aliyev in the formation of the national ideology of Azerbaijan. It argues that national ideology is crucial for uniting a nation and achieving common goals. Heydar Aliyev has unparalleled services in the development of national ideology based on historical traditions, protection of traditions and values from the influence of globalization, strengthening of social solidarity.

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SAHƏSİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN SİYASİ SİLAH KİMİ YÜKSƏLİŞİ

***Hüseynli Tahirə Ülvi qızı, magistrant. BDU II kurs***
***Milli təhlükəsizlik və siyasi strategiya ixtisaslaşması üzrə***
*huseynli2113@gmail.com*

***Açar sözlər:*** informasiya siyasəti; informasiya təhlükəsizliyi; KİV; milli təhlükəsizlik; milli maraq; söz azadlığı; informasiya cəmiyyəti; təsir*;* rəqəmsal.

***Ключевые слова***: информационная политика; информационная безопасность; СМИ; Национальная безопасность; Национальный интерес; Свобода слова; информационное общество; влияние; цифровой.

***Keywords*:** information policy; information security; mass media; National security; national interest; freedom of speech; information society; influence; digital.

*Giriş*

*Hazırda beynəlxalq münasibətlərin inkişaf etməkdə olan müasir tendensiyaları nümayiş etdirir ki,* informasiya təhlükəsizliyinə milli maraqların və mənafenin təmin olunması vasitəsi kimi baxılır. Başqa sözlə, müasir nəzəriyyələrin əksəriyyətinin maddi mənfəətə yönəldilməsindən bəri bütün ölkələr kibertəhlükəsizliyin milli maraqların təminin əsas vasitəsi olduğuna inanırlar. Bu arada bəzi düşünürlər hesab edirlər ki, informasiya təhlükəsizliyi xarici ünsürlər tərəfindən anlaşılmağa, qavranılmağa təsir edir. Bu vəziyyət kiber hücumların nəhəng, dağıdıcı gücü əsasında formalaşmışdır. Əlahiddə önəm daşıyan informasiyaya nəzarətsiz və gizli daxil olmanın qarşısının alınması lazımi dərəcədə təmin edilmədikdə şəxsi, ictimai və ya dövlət səviyyəsində təhlükəsizliyin həyata keçirilməsi məsələləri gündəmə gəlir. Bu səbəbdən də mütəxəssislər kiberməkanın gərçəklərinə paralel olaraq, informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılmasını və təkmilləşdirilməsini labüd hesab edirlər.

***"İnformasiya" və "*Təhlükəsizlik*" anlayışları və onların vəhdəti***

*Gündəlik yaşamda* təhlükəsizlik anlayışı öz məzmununda təhlükəsiz yaşayış, iş, məişət və istirahət mühitinə şərait yaradılmasını ehtiva edir. Ümumilikdə isə təhlükəsizlik – atmosferin təmizliyi, ərzağın və suyun keyfiyyət göstəriciləri, insanın şəxsi həyat rifahı – mənzil şəraiti, mütəşəkkil cinayətkarlığa və terrorçuluğa qarşı effektiv fəaliyyət, kütləvi nəqliyyatda, küçədə və ictimai məkanlarda asayişi, tibbi təminatın və sosial müdafiə səviyyəsini, xidmət sferalarında mənəvi-etik şəraitin formalaşdırılması, əmək məvacibinin sərf olunan əməyə uyğunluğu və s. ilə səciyyələndirilə bilər. Öz növbəsində Milli təhlükəsizlik anlayışı da təhlükəsizliyin ehtiva etdiyi problemlərdən biridir. Milli təhlükəsizliyin təmini milli mənafe və maraqların onlara qarşı yönəlmiş təhdidlərdən müdafiəsi şəraitidir. Eyni zamanda milli təhlükəsizlik özündə şəxsin, təşkilatın, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının daxili və xarici təhlükələrdən və təhdidlərdən qorunması mühitini əks etdirir. Milli təhlükəsizlik anlayışı üç komponentlə səciyyələnir: personal; maddi-maliyyə; informasiya təhdidləri. Eyni zamanda qeyd edilməsi yerinə düşər ki, təhdidlər bu komponentlərin hərəkətverici qüvvəsi olaraq çıxış edir.

3 avqust 2004-cü ildə qəbul edilmiş "Milli təhlükəsizlik" haqqında qanunda milli təhlükəsizliyin obyektləri kimi insan, cəmiyyət və dövlət müəyyən edilmişdir. Həmin qanunun 6.6 bəndində məqaləmizin əsas tədqiqat obyekti olan informasiya təhlükəsizliyi haqqında əsas milli maraqlar bunlardır:

- məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi. hazırlanması və formalaşması kimi vətəndaşların kons titusiya hüquqlarının təmin edilməsi;
- informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi:

- informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;
- dünya rabitə və informasiya daxil olma.

Qanunun 7.9 bəndində informasiya sahəsində Azərbaycan milli təhlükəsizliyinə təhdidlər də müəyyən edilir.

"İnformasiya sahəsində əsas təhdidlər bunlardır:

- informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil ola biləcəklərin mövcudluğu;
- informasiya azadlığına nəzarət etmiş qəsdlər;
- dövlət sirrinin aşkarlanmasına yönəlmiş qəsdlər;
- digər şəbəkələrdə informasiya əlaqəsi, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təhrif edilməsi;
- informasiya təminatı və ehtiyatlarına qarşı qəsdlər".

Təhlikəsizliyin baza siyasəti müəssisənin informasiyanı necə təhlil etməsini, informasiyaya kimin əlçatan olmasını, buna necə nail olmağı müəyyənləşdirir. Get-gedə azalan təhlikəsizliyin baza siyasəti təhlükəsizlik sisteminin yaradılması üçün yararlı olan işlərin bütünlükdə deyil, daim və ardıcıl yerinə yetirilməsinə imkan verir. Baza siyasəti təhlükəsizlik siyasəti ilə istənilən vaxt bütünlükdə tanış olmağa və müəssisədə təhlükəsizliyin cari vəziyyətini araşdırmağa şərait yaradır (1, səhifə 295).

İnformasiya təhlükəsizliyi siyasəti informasiya təhlükəsizliyinin idarə olunmasına yanaşmanı, o cümlədən, informasiya resurslarının təsnifləşdirilməsi və informasiya sahəsində risklərin idarə olunmasını, onun strukturunu, qarşısında qoyulan tələbləri müəyyən edir. Hazırkı təhlükəsizlik siyasəti dövlətin mühüm informasiya resurslarını və onların hansı qaydada mühafizə olunmasını əks etdirir.

Modern siyasi qarşılıqlı əlaqənin müasir növləri yeni siyasi müstəviyə, yəni kiberzonaya çevrilir. Bu təsir dairəsinin spesifikliyi ondan ibarətdir ki, o, heç bir məkan sərhədlərini ehtiva etmir və siyasi prosesin iştirakçıları öz fəaliyyət formasında cəmiyyətə regional və ya dövlət təsirinin hüdudlarından kənara çıxa bilir (2).

**Ənənəvi müharibələrə yeni nəfəs: "informasiya silahları" və onun məntiqi ardıcıllığı "informasiya müharibələri"**

İnkişaf edən dünya texnologiyaları qarşısında ənənəvi ordular və ənənəvi silahlarla yanaşı, kiber ordular və kiber silahlar da meydana çıxmağa başlayıb. Virtual aləmdə rəqabət və yarış davam edir və həm dövlət, həm də qeyri-dövlət aktyorları bu platformada öz kozırlarını paylaşırlar. Ölkələrin rəsmi internet saytlarına edilən hücumlarla yanaşı, həmin ölkənin adından fəaliyyət göstərən şirkətlər və ya həmin ölkənin vətəndaşları da kiber orduların hədəfinə çevrilə bilər.

Bu baxımdan təkcə rəsmi aktyorları deyil, həm də ölkə üçün vacib olan kommersiya şirkətlərini və vətəndaşları qorumaq vacibdir. Bu çərçivədə dövlətlər kiber dünyada daha təsirli olmaq üçün müdafiə sistemlərini qurur və ordularını bu çərçivədə inkişaf etdirirlər. Bu araşdırmada kibertəhlükəsizlik və kiber ordu anlayışları ilə bağlı ədəbiyyat araşdırılır və dünyada bu sahədə irəliləyiş əldə etmiş dövlətlər sırasında olan ABŞ, Rusiya və İrandakı vəziyyət açıqlanır. Kiber ordu anlayışından bəhs etməzdən əvvəl kiber orduların iki əsas komponenti olan informasiya sistemləri ilə hərbi qurumlar arasındakı əlaqəni qeyd etmək yerinə düşərdi. Bu günə qədər hazırlanmış bir çox texnologiya və əlaqəli cihazlar ilk növbədə hərbi sahədə istifadə edilmiş və sonra mülki sahəyə yayılmışdır.

Bunun əsas nümunələri, məlum olduğu kimi, kompüter sistemləri və internetdir. Kompüter texnologiyası anlayışlarını və onun meydana gəlməsini İkinci Dünya Müharibəsi illərinə aid etmək olar. İkinci Dünya Müharibəsi zamanı almanların ünsiyyət üçün istifadə etdiyi Enigma adlı maşın, ehtiva etdiyi mürəkkəb sistemlərlə kompüter texnologiyasına bənzər xüsusiyyətlərə malik idi. Enigmanı qısaca olaraq Birinci Dünya Müharibəsinin sonunda alman alimi Artur Şerbius tərəfindən hazırlanmış və düşmən qüvvələrinin ötürülən

mesajları oxumasının qarşısını almaq üçün şifrələmə üsullarından istifadə edən mürəkkəb maşın kimi müəyyən etmək mümkündür. İkinci Dünya Müharibəsinin əvvəlində bəzi mesajlar deşifrə edilsə də, Enigma almanlar tərəfindən daim təkmilləşdirildi və Enigma alqoritmi deşifrə olunana qədər yenisi yaradıldı. Beləliklə, Almaniya kəşfiyyat və rabitə kimi iki çox mühüm sahədə düşmən qüvvələri üzərində üstünlük əldə etmiş oldu (3).

Qeyd etmək lazımdır ki, ədəbiyyatda kibermüharibəni təyin etmək üçün konsensus və geniş şəkildə qəbul edilmiş tərif yoxdur. Kiber müharibəni adi müharibələrdən fərqləndirən ən mühüm xüsusiyyət onun fiziki maneələri aradan qaldırmasıdır. Məlumat və ya məlumatın saxlandığı cihazların funksionallığını pozmaq məqsədi daşıyan kiberhücumlar kiberməkanda konkret hədəfləri bulandırır və təhlükənin aşkarlanması ilə bağlı risk qavrayışlarını artırır.

“Hər Aspektdə Kiber Müharibə” kitabının müəllifi Həsən Çiftçi kiber mühiti təsvir edir; Kiberhücum hər cür proqram, aparat və kommunikasiya infrastrukturunda baş verən bir-biri ilə əlaqəli və ya müstəqil informasiya sistemlərinin yaratdığı mühit kimi müəyyən edilərkən; Kiber mühitdə məlumatların istismarı, korlanması, dəyişdirilməsi, sistemlərə girişin qarşısının alınması və ya onlara zərər vurmaq məqsədi ilə kiber mühitdə həyata keçirilən fəaliyyətlər kimi müəyyən edilir. Ölkələr kibertəhlükəsizlik təhdidlərinə qarşı durmaq və kibermüharibəyə hazır olmaq üçün kritik infrastrukturları qorumaq üçün çalışırlar. Kiberhücum, kibercinayətkarlıq, kiberterrorizm və nəticədə kibermüharibələr; Onun təsiri bugünkü müharibə və münaqişə bölgələrində getdikcə daha çox hiss olunur. Kiber mühitdə həm mülki, həm də hərbi təhlükələrə məruz qalan kritik infrastrukturların və əlaqəli sistemlərin qorunması böyük əhəmiyyət kəsb edir. Kiber təhlükəsizliyin təmin edilməsi həm milli, həm də beynəlxalq səviyyədə strateji əhəmiyyət kəsb edir.

Kibermüharibə zamanı nəqliyyat, bank və maliyyə, elektron rabitə, logistika, kosmos, peyk və yer sistemləri də daxil olmaqla bir çox hücumlar təsirlənə bilər. Təkcə internet məkanı deyil, həm də rəqəmsal qarşılıqlı əlaqənin baş verdiyi hər bir sahə kibermüharibə sahəsinə düşür. Məsələn, ölkələr və ya ayrı-ayrı şəxslər öz kiber imkanları vasitəsilə mühafizə olunan nüvə obyektinin məlumat və əməliyyat sistemlərinə sıza bilər (bunun nümunəsi 2010-cu ildə İranda “Stuxnet hücumu” kimi tanınan) aşkarlanıb), bir nüvə obyektində partlayışa səbəb ola bilər. neft emalı zavodu və ya elektrik enerjisinin kəsilməsinə səbəb ola bilər.Trafikdə olan nəqliyyat vasitələrinin proqram sistemlərinə hücum edərək ciddi qəzalara səbəb ola bilər və eyni zamanda döyüş təyyarəsini və ya pilotsuz uçuş aparatını işə sala, səhv istiqamətləndirə və ya sıradan çıxara bilər. Birbaşa kiber domendə baş verəcək müharibə ilə yanaşı, müharibənin digər ölçülərində də (hava, quru, dəniz) ciddi mənfi nəticələrə səbəb ola bilərlər.

Şəbəkə mərkəzli olaraq xarakterizə edə biləcəyimiz kiber müharibənin komponentləri keyfiyyət baxımından böyük sürət qazanır. Döyüş sahəsinin və döyüş mühitinin çevrilməsi ilə kiber potensialını inkişaf etdirən və sahədə üstünlük qazanan tərəfin hər bir döyüş sahəsində üstünlüklü mövqe qazanmasında bu üstünlüyə töhfə verəcəyi nəzərdə tutulur. Ona görə də ölkələrin bu yeni nəsil müharibə mühitində bacarıqlarını qiymətləndirərək öz imkanlarını təkmilləşdirmələri vacibdir (6).

İnformasiya müharibəsi demək olar ki, hər bir hökumət üçün cəlbedicidir. Müharibə üçün bacarıqların inkişaf etdirilməsi və yerləşdirilməsinin aşağı qiyməti, kiber müharibə silahlarının inkişafı və səfərbər edilməsi zamanı minimum nəzərə çarpıcılıq, dayandırılmasının çətinlikləri, sülh dövründə də hücum etmək imkanı, böyük dövlətlərin həyati infrastrukturdan böyük asılılığı kimi amillər informasiya və kiber müharibəni cəlbedici edir. Media tərəfindən daha çox sui-istifadə edilən bu termin üçün bir çox təriflər var. ABŞ-ın Milli Müdafiə Universitetinin professoru Den Kuehl informasiya müharibəsini “informasiya mühitində iki və ya daha çox qrup arasında münaqişə və ya mübarizə” kimi təyin edir. Bu o deməkdir ki, termin düşmənin informasiya mühitini və onun fəaliyyətini

inkar etmək, istismar etmək, korlamaq və ya məhv etmək üçün hər hansı bir hərəkətə müraciət etmək kimi qəbul edilə bilər.

İnformasiya müharibəsinin arxasındakı əsas konsepsiya "kiber qabiliyyət" adlandırılan konsepsiyadır. Bu qabiliyyət bir kiber ordunun öz sistemlərini kiber hücumlardan qorumaq və ya arzulanan hədəfə hücum etməyi mümkün edən imkandır.

Bu gün dünyada demək olar ki, bütün hökumətlər bu cür qabiliyyətləri inkişaf etdirmək üçün milyardlarla investisiya edir. ABŞ, Böyük Britaniya, İsrail, Çin və Rusiya ən inkişaf etmiş ölkələr hesab edilir, lakin son dövrlərdə İran və Şimali Koreya kimi hökumətlər də güclü bir şəkildə kiber arenaya daxil olurlar. İnformasiya müharibəsi terminin analizinə daha çox dərindən yanaşdıqca, hərbi ekspertlər tərəfindən göstərilən kiber imkanların kiber hücum texnikaları, elektron müharibə, kiber savaş və psixoloji əməliyyatların birləşməsi olduğunu müşahidə edə bilərik (7).

***Nəticə:***

*Kiberhücumlar arsenalda yeni yaranan başqa bir vasitədir. Qeyri-öldürücü silahlar kimi, onların təhlükəsi və döyüşdəki rolu müzakirə mövzusu olmaqda davam edir: kiberhücumlar pozulmuş və ya zədələnmiş veb-saytlara, maliyyə itkilərinə və məlumatların dağıdılmasına gətirib çıxarır.*

*Nəticədə onu qeyd etmək yerinə düşər ki, tək başına süni intellektə əsaslanan silahlar müharibənin xarakterini dəyişməyəcək. Bununla belə, onlar münaqişələri necə qavradığımızı və təsvir etdiyimizi dəyişə bilər.*

*ABŞ-da kiber əməliyyatlar, hücumları amansız bir münaqişə kimi qələmə verən "davamlı nişanlar" kimi təsvir edilmişdir. Çində "məhdudiyyətsiz müharibə" bütün metodların və hədəflərin icazəli olduğunu göstərir (8).*

"İnformasiya inqilabı" hərbi qarşıdurma şəraitində dövlət zorakılığını məhdudlaşdırıb, ölkələr arasında kəskin qarşıdurmaları yumşaldıb, dünya işlərində demokratik təsisatların və ümumi müstəqil fikrin rolunu artırıb. Eyni zamanda, yeni informasiya texnologiyaları bütün dünyada cinayətkarlar, o cümlədən terrorçular üçün əlavə imkanlar yaratmışdır (9). Texnologiyanın davamlı inkişafı ilə yanaşı, kibertəhlükəsizlik sahəsində də inkişaflar o qədər sürətlə baş verir ki, görülən tədbirlər və qanuni tənzimləmələr qeyri-kafi ola bilər. Mümkün təhdidlərə və ehtiyaclara uyğun qəbul edilən qərarlar gələcəkdə təhlükəsizliyin təmin edilməsində kifayət qədər təsirli deyil. Kiberhücum üsullarının geniş çeşidi var, lakin onların əksəriyyəti, xüsusən də şəxsi miqyasda məlum deyil. İnformasiya sistemləri üçün təhlükəsizlik strategiyaları mövzunu bilən mütəxəssislər tərəfindən hazırlansa da, çox vaxt əksər istifadəçi bu təhlükəsizlik tədbirlərindən xəbərsiz olur. Bu kontekstdə kiberməkanda baş verən bütün təhdidlərə qarşı dövlətlər, qurumlar və şəxslər birlikdə hərəkət edərək, hətta dövlət zəminində əməkdaşlıq edərək bütün dünyada maarifləndirmə səviyyəsini artırmaq lazımdır. Kibertəhlükəsizliyin dəyərinin bu sahədə ediləcək xərclərdən daha çox ola biləcəyini nəzərə alsaq, kibermüdafiəyə daha çox sərmayə qoyulması lazım olduğu aydındır (14).

## Ədəbiyyat siyahısı


1. İnformasiya Təhlükəsizliyi (dərslik), Bakı – 2016, səhifə 397.
2. The concept of modern political confrontation in cyber space, *Journal of Cybersecurity,* Volume 9, Issue 1, 2023.
3. Siber ordular ve siber savaşlar, Meryem Orak, 2021.
4. Yayla, M. (2013). Hukuki Bir Terim Olarak "Siber Savaş". TBB Dergisi, 178-202.
5. Copeland, B. J. (2004). The Essential Turing. New York: Oxford University Press.
6. Yeni Nesil Savaş: Siber Savaş, 2019.
7. Gizli və asimmetrik hücumun özəllikləri - Kiber Müharibə. Ordu.az.

8. Technologies like artificial intelligence are changing our understanding of war, theconversation, 2023.
9. Information Warfare in the Modern Political Theory, Sopo Chkopoia.
10. "İnformasiya Təhlükəsizliyi Prinsipləri və İdarəetmə" – George L. Kovacich, Andrew W. Wolper.
11. "İnformasiya təhlükəsizliyi və risklərin idarə edilməsi" - Dinesh K. Sharma, Santosh K. Sharma.
12. *"What is information warfare and how pervasive is it?"- weforum, 2022.*
13. H. Çifci., (2013). Her Yönüyle Siber Savaş, Tubitak, Ankara.
14. Siber Saldırı Yöntemleri ve Türkiye'nin Siber Güvenlik Mevcut Durum Analizi, Fulya Aslay, International Journal of Multidisciplinary Studies and Innovative Technologies, 2017.

**Tahirə Hüseynli**

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR SAHƏSİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN SİYASİ SİLAH KİMİ YÜKSƏLİŞİ

### Xülasə

Hazırda təhlükəsizliyin bərqərar olunması məsələsi ümumilikdə bütün sivilizasiyaların ən önəmli və qlobal problemlərinin başında gəlməkdədir. Məqalədə informasiya təhlükəsizliyinin əsas anlayışları, informasiya təhlükəsizliyi sisteminin təmin olunması problemi, informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması sahəsində inkişaf etmiş dövlətlərin təcrübəsi analiz edilib. Kibertəhlükəsizlik təhdidləri XXI əsrdə hər bir xalqın üzləşdiyi əsas milli, ictimai və iqtisadi problemlərdən biridir. Kiberzona müasir həyatın müəyyənedici xüsusiyyətidir. Bütün dünyada fərdlər və icmalar kiberməkanda onun vasitəsilə əlaqə qurur, sosiallaşır və təşkilatlanır. Həyatın vacib sahələrində çoxsaylı kibertəhlükəsizlik məsələlərinin mövcudluğu təbii olaraq onların həllində siyasi maraqlar yaradır. İnformasiya təhlükəsizliyinin təmin edilməsinə olan ehtiyac müəyyən xüsusi hallardan tutmuş beynəlxalq səviyyəli problemlərə qədər artır- diplomatiya sferasının və dünyanın əsas prolemlərindən birinə çevrilir.

**Tədqiqatın məqsədi, tədiqatın metodu, tədqiqatın nəticələri.** Məqalənin əsas məqsədi informasiya resurslarından qayda əsasında istifadə edilməsi nüanslarının sadalanması, informasiya təchizatının əlçatan olmasının zəruriliyinin diqqətə çatdırılması, deqradasiyaya məruz qalan informasiya mədəniyyətinin inkişafına təkan verəcək amillərin sadalanması və problemin aktuallığının diqqət mərkəzinə çatdırılmasıdır. Tədqiqatda analiz, proqnozlaşdırma, sistemləşdirmə, ümumiləşdirmə, müqayisəli təhlil, tarixi və. metodlardan istifadə edilmişdir. Tədqiqatdan əldə edilən əsas nəticələrdən biri də odur ki, informasiya təhlükəsizliyinin inkişafının təminin inkişafı dövlət informasiya siyasətinin çox vacib elementi olmaqla yanaşı, həm də milli təhlükəsizliyin effektiv alətidir.

**Tahira Huseynli**

## THE RISE OF INFORMATION SECURITY AS A POLITICAL WEAPON IN INTERNATIONAL RELATIONS

### Summary

Currently, the issue of establishing security is one of the most important and global problems of all civilizations. In the article, the main concepts of information security, the problem of ensuring the information security system, and the experience of developed countries in the field of information security culture formation were analyzed. Cyber security threats are one of the main national, social and economic problems facing every

nation in the 21st century. The cyberzone is a defining feature of modern life. All over the world, individuals and communities connect, socialize and organize through cyberspace. The existence of numerous cyber security issues in important areas of life naturally creates political interests in their solution. The need to ensure information security increases from certain special cases to international level problems - it becomes one of the main problems of the diplomatic sphere and the world. The main purpose of the article is to list the nuances of using information resources based on the rules, to draw attention to the need to make information supply accessible, to list the factors that will stimulate the development of degraded information culture, and to bring the urgency of the problem to the center of attention. Analysis, forecasting, systematization, generalization, comparative analysis, historical and. methods were used. One of the main results obtained from the research is that the development of information security is a very important element of the state information policy and is also an effective tool of national security.

**Гусейнли Тахира**

**РАЗВИТИЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ КАК ПОЛИТИЧЕСКОГО ОРУЖИЯ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ**

**Аннотация**

В настоящее время вопрос обеспечения безопасности является одной из важнейших и глобальных проблем всех цивилизаций. В статье проанализированы основные концепции информационной безопасности, проблемы обеспечения системы информационной безопасности, а также опыт развитых стран в области формирования культуры информационной безопасности. Угрозы кибербезопасности являются одной из главных национальных, социальных и экономических проблем, стоящих перед каждой страной в 21 веке. Киберзона является определяющей чертой современной жизни. Во всем мире отдельные люди и сообщества общаются, общаются и организуются через киберпространство. Существование многочисленных проблем кибербезопасности в важных сферах жизни естественным образом порождает политические интересы в их решении. Необходимость обеспечения информационной безопасности возрастает от отдельных частных случаев до проблем международного уровня – она становится одной из главных проблем дипломатической сферы и мира. Основная цель статьи – перечислить нюансы использования информационных ресурсов на основе правил, обратить внимание на необходимость сделать информационное обеспечение доступным, перечислить факторы, которые будут стимулировать развитие деградировавшей информационной культуры, а также довести Актуальность проблемы в центре внимания. Анализ, прогнозирование, систематизация, обобщение, сравнительный анализ, исторический и. были использованы методы. Одним из основных результатов, полученных в результате исследования, является то, что развитие информационной безопасности является очень важным элементом государственной информационной политики, а также эффективным инструментом национальной безопасности.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

***Hüseynova Gülgün Kamal qızı magistrant***
***Bakı Dövlət Universiteti***
*huseynova_gulgun@mail.ru*

***Açar sözlər***: Heydər Əliyev, milli təhlükəsizlik, xarici siyasət, beynəlxalq əməkdaşlıq
***Keywords***: Heydar Aliyev, national security, foreign policy, international cooperation
***Ключевые слова***: Гейдар Алиев, национальная безопасность, внешняя политика, международное сотрудничество.

Azərbaycanın xarici siyasətinin və geosiyasi məqsədlərinin müəyyən edilməsində milli təhlükəsizlik məsələləri mühüm yer tutur və onun əsas prioritetlərini təşkil edir. Bundan çıxış edərək, ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanılması, beynəlxalq aləmdə imicinin möhkəmləndirilməsi həm xarici siyasətinin, həm də milli təhlükəsizliyinin prioritet istiqamətləri və məqsədləri sayıla bilər.

Milli təhlükəsizlik siyasəti təkcə ölkənin öz maraqlarına deyil, həm də regionda və bütövlükdə bütün dünyada təhlükəsizlik mühitinin yaxşılaşdırılmasına xidmət etməlidir. Bu baxımdan, Azərbaycanın təhlükəsizlik siyasətinin məqsəd və istiqamətləri arasında sabit, ədalətli və demokratik qlobal mühit naminə beynəlxalq proseslərə müsbət təsirin təmin edilməsi, dövlətlər arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin yaradılması, ümumi dövlətlər və dövlətlərarası birliklərlə maraqların üst-üstə düşməsi və bunun əsasında ikitərəfli və çoxtərəfli tərəfdaşlıq münasibətlərinin formalaşması kimi amillər öz əksini tapır.

Müstəqil dövlət olan Azərbaycan beynəlxalq hüququn subyekti kimi müasir dünyanın bir hissəsidir, BMT, ATƏT, Avropa Şurası, İKT, MDB, GUAM, İƏİT və digər beynəlxalq və regional təşkilatların üzvüdür. O, nüfuzlu beynəlxalq təşkilatlara inteqrasiyaya çalışır və çoxsaylı beynəlxalq konvensiyalara qoşulub. Bütün bunlar həm də ölkənin həm beynəlxalq, həm də regional təhlükəsizlik mühitinə, imicinin yaxşılaşmasına birbaşa təsir göstərir [5; 89].

Qeyd edək ki, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti dövlətin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, milli maraqların qorunmasına, davamlı inkişafın, xalqın dəyərlərinin və rifahının təmin edilməsinə təsir edən amillərin məcmusundan irəli gəlir.

Müstəqilliyinin ilk illərində gənc respublika Ermənistanın hərbi təcavüzü, daxili qeyri-sabitlik, keçid dövrünün ağır sınaqları və digər ciddi sınaqlarla üzləşmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bütün çətinliklərin öhdəsindən gələrək strateji inkişafa ardıcıl yanaşmanı müəyyən etməyə və izləməyə nail olaraq, hazırda iqtisadi və siyasi cəhətdən dinamik müasir dövlətə çevrilir, özünün qlobal və iqtisadi inkişafını möhkəmləndirir. Bu baxımdan, Azərbaycan Qafqaz regionunda əməkdaşlıq etmək üçün mühüm və bir çox hallarda həlledici ölkəyə çevrilir, regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynayır. Bu ümumi strategiyanın son məqsədi Azərbaycan Respublikasının firavanlığını, davamlı inkişafını və rifahını təmin etmək, bütün regionda təhlükəsizliyin və sabitliyin qorunmasına töhfə verməkdir [9].

Coğrafi cəhətdən Qərblə Şərqin qovşağında yerləşən Azərbaycan Respublikası müxtəlif sivilizasiyaların müsbət elementlərini əhatə etmişdir. Azərbaycan Respublikası Avropa dəyərlərini bölüşür və Avroatlantik təhlükəsizlik arxitekturasının ayrılmaz tərkib hissəsi kimi bu ərazinin təhlükəsizliyinə öz töhfəsini verir. Eyni zamanda, Azərbaycan

Respublikası İslam dünyasının bir hissəsi kimi İslam sivilizasiyasının mütərəqqi irsinə və mənəvi dəyərlərinə şərikdir.

Azərbaycan Respublikasının yerləşdiyi hazırda qeyri-sabit regionda regional və daha geniş beynəlxalq tərəfdaşlarla dostluq və əməkdaşlıq şəraitində inkişaf üçün səmərəli istifadə oluna bilən geniş potensial və imkanlar var. Azərbaycan Respublikasının zəngin təbii sərvətləri ölkənin çiçəklənməsi və milli rifahı üçün perspektivlər açır və ölkəni mühüm enerji mənbəyinə və beynəlxalq enerji təchizatı sisteminin mühüm tərkib hissəsinə çevirir. Beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişafı, o cümlədən neft və qaz kəmərlərinin tikintisi artıq Azərbaycan Respublikasının və onun tərəfdaşlarının iqtisadiyyatının inkişafına öz töhfəsini verir və regional əməkdaşlığın bariz nümunəsidir.

Bu coğrafi yerləşmə mühüm üstünlüklər verir, eyni zamanda ölkənin üzləşdiyi bir sıra təhlükəsizlik problemlərinin mənbəyidir. Bu cür çağırışların ən mühüm və bariz nümunəsi qonşu Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi təcavüzdür. Təcavüz sülh və bəşəriyyət əleyhinə ağır cinayətlər, o cümlədən Azərbaycan Respublikasının vətəndaşlarına qarşı soyqırımı və terror aktları ilə müşayiət olunub, işğal olunmuş ərazilər transmilli mütəşəkkil cinayətkarlar, o cümlədən beynəlxalq terrorçu qruplar tərəfindən həyata keçirilən qanunsuz fəaliyyətlər üçün münbit zəmin yaradır [10]. Azərbaycan Respublikasına qarşı təcavüz ölkənin təhlükəsizlik mühitinin əsas determinantıdır və Milli Təhlükəsizlik Siyasətinin formalaşmasında əsas amildir.

Eyni zamanda, Azərbaycan Respublikasının təhlükəsizlik mühitində beynəlxalq terrorizm, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan və narkotik alveri, kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu ölkə qarşısında müəyyən vəzifələr qoyur.

Ümumilikdə ölkəmizin milli təhlükəsizlik siyasəti bir sıra təhdidlərə qarşı yönəlmişdir [7]:

**Sxem 1: Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər**




**Mənbə: [8]**

Təhdidlərin bu təsnifatı milli təhlükəsizlik sisteminin təşkilində və onun fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayır.

Qeyd edək ki, ölkənin milli inkişaf və təhlükəsizlik siyasətinin həyata keçirilməsinin konseptual əsasları, mahiyyəti, əsas istiqamətləri, üsul və mexanizmləri ilə bağlı dövlət qurumlarında və cəmiyyətdə əsaslandırılmış yanaşma və ideyalar çox səthi idi. Sistemsiz və səriştəsiz təhlükəsizlik siyasətinin uğur qazanması çox çətin idi. Xüsusən nəzərə alsaq ki, 1991-1992-ci illərdə bu respublikada mürəkkəb və çətin vəziyyət yaranmış, o cümlədən Ermənistanın onun ərazisinə təcavüzü nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik pozulmuş, müxtəlif qanunsuz silahlı birləşmələr yaradılıb. Təbii ki, müxtəlif silahlı birləşmələrin iştirakı ilə hakimiyyət uğrunda mübarizə kimi hallar Azərbaycanın milli inkişafının və təhlükəsizliyinin təmin olunmasına öz mənfi təsirini göstərib [5; 92].

Yalnız 1993-cü ildən ümumi prinsiplərə əsaslanan milli inkişaf və təhlükəsizlik siyasəti ölkə səviyyəsində xüsusi istiqamət kimi həyata keçirilməyə başlandı. Geniş ictimai-siyasi və elmi müzakirə zamanı Azərbaycanın milli inkişafı və təhlükəsizliyinin nəzəri və praktiki məsələləri müzakirə edilib, onun konseptual əsasları müəyyən edilib. Bu dövrdən başlayaraq bu siyasət müstəqil dövlət quruculuğu proseslərinin bütün sahələrini əhatə etməklə milli inkişafın və dövlət idarəçiliyinin əsas vasitələrindən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsasları müstəqil dövlətimizin qurucusu Heydər Əliyevin 1993-2003-cü illərdə ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır. Lakin Azərbaycan hökumətinə bütövlükdə ölkə üzrə Milli Təhlükəsizlik Konsepsiyasını hazırlamaq və təhlükəsizlik siyasətini tam formalaşdırmaq üçün xeyli vaxt lazım oldu [5; 92].

Qeyd edək ki, ölkəmizin milli təhlükəsizlik siyasətinin bir istiqamətini daxili təhlükəsizliyin təmin edilməsi təşkil edir. Daxili təhlükəsizlik problemlərinin həlli üçün Heydər Əliyev Azərbaycan Silahlı Qüvvələrinin müasirləşdirilməsi və gücləndirilməsinə diqqət yetirib. O, hərbi islahatlara başladı, müdafiə qabiliyyətinə sərmayə qoydu, təlim və təchizat üçün digər ölkələrlə tərəfdaşlıq axtardı. Bu hərbi birləşmə potensial təcavüzkarların qarşısını almaq və regionda sabitliyi qorumaq məqsədi daşıyırdı.

Təhlükəsizlik orqanlarında islahatlar dövrü 1993-cü ildən başlayıb. Yeni dövrün çağırışlarına uyğun olaraq öz fəaliyyətini xalqın və dövlətin mənafeyinin etibarlı müdafiəsi, dövlətçiliyin təhlükəsizliyinin təmin edilməsi kimi ali məqsədlərə səfərbər etmiş milli təhlükəsizlik orqanlarının əsas vəzifələri suverenlikdir [1; 7]. Azərbaycan Respublikasının konstitusiya quruluşu, iqtisadi, siyasi, hüquqi, elmi-texniki potensialı və digər həyati maraqları xarici dövlətlərin, xüsusi təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat fəaliyyətinin qarşısının alınmasından ibarətdir [2; 4].

Ümummilli lider Heydər Əliyev müstəqillik illərində Azərbaycan təhlükəsizlik orqanlarının tarixini iki dövrə ayırdı: 1991-1993-cü illər və sonrakı dövr. Birinci dövr məqsədi qəflətən dəyişmiş kadrlar üçün bütün dəyərlərin yenidən qiymətləndirilməsi və yenidən təşkili ilə əlaqədar qarışıqlıq ilə xarakterizə olunurdu və bunlar obyektiv çətinliklər idi. Lakin bu dövrdə ölkəyə rəhbərlik edən şəxslərin səriştəsizliyi ucbatından MTN-in fəaliyyəti nəzarətdən kənarda qalmış, bu qurum düzgün istiqamətləndirilməmiş, bütövlükdə qrupların və partiyaların maraqlarına uyğun formalaşmışdır. Ona görə də nazirlik ölkənin başına gətirilən ağır fəlakətlər barədə qabaqlayıcı məlumat toplamaq və onların qarşısının alınması üçün tədbirlər görmək əvəzinə, bir çox hallarda artıq törədilmiş cinayətlərin qeydiyyat orqanına çevrilir və milli maraqlara ciddi zərbələr endirirdi [4; 489].

Xalqımızın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xüsusi xidmət orqanlarının qarşısında peşəkar kadr potensialının formalaşdırılması, strukturunun təkmilləşdirilməsi, təhlükəsizlik orqanlarının fəaliyyətinin müəyyənləşdirilməsi, onların üzərinə düşən vəzifələri xalqın mənafeyinə uyğun yerinə yetirməyə öyrədilməsi prinsipləri və vəzifələri müəyyən etdi. Mövcud xarici və daxili

təhlükələrə baxmayaraq, təhlükəsizlik işçiləri öz işlərini ümummilli lider Heydər Əliyevin göstəriş və tövsiyələri əsasında qurmağa və həyata keçirməyə çalışırdılar. Əminliklə demək olar ki, Azərbaycan Respublikasının hüquq-mühafizə və təhlükəsizlik orqanlarının dirçəliş və yüksəlişi, həmin qurumların işinin yenidən təşkili və tənzimlənməsi, habelə onun gündəlik nəzarəti, onların milli maraqlara həqiqi xidmət göstərməsi ümummilli liderimiz Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışı, xalqımızın ümummilli liderinə çevrilməsini tələb etməsi ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyev 1997-ci il iyunun 28-də Milli Təhlükəsizlik Nazirliyində milli təhlükəsizlik işçilərinin peşə bayramına həsr olunmuş mərasimdəki nitqində təhlükəsizlik orqanlarının qarşısında aşağıdakı vəzifələr qoymuşdu: "Artıq Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi yenidən fəaliyyətə başlamışdır. MTN formalaşmış və möhkəmlənmiş, müstəqil Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini təmin etmək və qorumaq iqtidarındadır. Lakin eyni zamanda, sizin qarşınızda hələ böyük vəzifələr var. Birinci vəzifə odur ki, bu qurumda yol verilmiş səhvlər həm sovet dövründə və müstəqillik dövründə bir daha təkrarlanmır. Sizin əsas məqsədiniz heç bir vətəndaşa qarşı ədalətsizliyə yol verməməkdir. Hər bir vətəndaşın hüquqlarını qorumaq dövlətimizin əsas vəzifəsidir və mənim prezident kimi mənim əsas vəzifəmdir. Bu işin böyük bir hissəsidir. İnsan hüquqlarını qorumaq, təhlükəsizliyi təmin etmək, təkcə dövlətin deyil, cəmiyyətin və xalqımızın təhlükəsizliyini təmin etmək sizin borcunuzdur. Ona görə də siz bir tərəfdən çox ciddi, cəsarətli davranmalısınız, digər tərəfdən, keçmişdə edilən səhvləri təkrarlamamalısınız. Yenə deyirəm, heç kim haqsız yerə heç bir məhrumiyyətlə üzləşməməli, heç kimin haqqı tapdalanmamalı, heç kimin heysiyyəti tapdalanmamalı, hər kəsin vətəndaş ləyaqəti qorunmalıdır" [8].

Heydər Əliyevin peşəkarlığı və yüksək idarəçilik bacarığı sayəsində sabitlik əldə edildi. Ümummilli lider yeni reallıqlara əsaslanaraq təhlükəsizlik xidmətləri qarşısında vəzifələr qoyduğundan, qabaqlayıcı məlumatlar əsasında cinayətlərin planlaşdırılması və ya baş verməsi zamanı qarşısını almaq artıq mümkün idi. Azərbaycanın milli təhlükəsizlik siyasətinin aparıcı istiqamətlərinin Heydər Əliyev tərəfindən işlənib hazırlanması, Azərbaycan xüsusi xidmət orqanlarının qarşısında duran taleyüklü vəzifələrin müəyyənləşdirilməsi, respublikamızın digər dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərinin formalaşmasında ardıcıl fəaliyyəti tam məsuliyyətlə deməyə imkan verir ki, müasir dövrdə Azərbaycanın təhlükəsizlik strategiyası məhz onun adı ilə bağlıdır. Böyük siyasətçi Heydər Əliyev bu strategiyanı tərtib etməklə yanaşı, onun praktiki həyata keçirilməsi üçün konkret istiqamətləri də aydın şəkildə müəyyən etmişdir.

**Sxem 2: Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri**




**Mənbə: [8]**

Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilən intensiv iş nəticəsində 1994-1997-ci illərdə xarici ölkələrin xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasına qarşı fəaliyyətinin qarşısı alınmış, onların məxfi əməkdaşlığa cəlb etdikləri 213 nəfər müəyyən edilmiş, onlardan 27 nəfəri məhkum edilmişdir, 186 nəfər cinayət yolu tutmaqdan çəkindirilmiş, 13 xarici casus ifşa edilmişdir. Respublikada 3 dəfə vətəndaş müharibəsi təhlükəsinin, 7 dövlət çevrilişinə cəhdin qarşısı alınmış, 5 cəhd planlaşdırma mərhələsində lokallaşdırılmış, terror aktları törətməyə cəhd edən onlarla şəxs və qrup vaxtında zərərsizləşdirilmişdir [8].

Heydər Əliyevin qətiyyətli xarici siyasəti və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılmasında fəal iştirak etmiş, bu sahədə müxtəlif sülhməramlı proqramlara qoşulmuş, antiterror koalisiyasına fəal dəstək vermişdir [6, 89]. Bütün bunlar və Qərbə yönəlmiş iri enerji layihələrinin həyata keçirilməsi son nəticədə xalqımızın haqlı narazılığına səbəb olan məlum 907-ci düzəlişin ABŞ Prezidentinin və ABŞ Prezidentinin müraciəti nəticəsində dayandırılmasına səbəb oldu. Konqresin dövlət katibi. 907 saylı düzəlişin dayandırılması Azərbaycanın böyük qələbəsi və Heydər Əliyev siyasətinin növbəti ən böyük uğuru idi [3; 266].

Əminliklə demək olar ki, Azərbaycanı hüquqi, demokratik və dünyəvi dövlət kimi Avropaya inteqrasiya edən, qloballaşmaya aparan məhz Heydər Əliyev siyasi kursudur. Müasir sivilizasiyanın yolu da qloballaşmadan keçir. MTN-in terrorizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə bir çox ölkələrin xüsusi xidmət orqanları ilə beynəlxalq əlaqələrinin ildən-ilə genişlənməsi də bu təhlükənin tamamilə aradan qaldırılmasına xidmət edir. Azərbaycanın antiterror koalisiyasının fəal üzvü kimi qəti və prinsipial mövqeyi, terrorizmə qarşı mübarizənin konkret nəticələri, intensiv məlumat mübadiləsi, beynəlxalq axtarışa verilmiş şəxslərin tutulması və ekstradisiyası, əməkdaşlığımızın mühüm nümunələri cəmiyyətimiz və tərəfdaşımız tərəfindən daim yüksək qiymətləndirilir.

Son olaraq qeyd edək ki, Azərbaycan Respublikası özünün strateji mövqeyinə görə Avro-Atlantik məkanın siyasi və iqtisadi proseslərində mühüm rol oynayır və bu, regionda enerji və nəqliyyat layihələrinin reallaşdırılmasında özünü göstərir. Azərbaycan Respublikasının təhlükəsizlik mühiti həm də silahlı münaqişələr, beynəlxalq terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, insan və narkotik alveri, kütləvi qırğın silahlarının yayılması kimi təhlükələrin mövcudluğu ilə xarakterizə olunur. Milli təhlükəsizliyin təmin edilməsi ölkənin sabit və dayanıqlı inkişafı üçün strateji əhəmiyyət kəsb edir və onun ictimai həyatının bütün sahələrində baş verən dinamik dəyişikliklərə mühüm təsir göstərir. Azərbaycan Respublikasının qanunvericilik və normativ hüquqi aktlarına əsasən, milli təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati mənafelərinin, milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı qorunmasıdır. Ölkə düşünülmüş siyasət aparır, maraqlı tərəflərlə beynəlxalq enerji əməkdaşlığını inkişaf etdirir.

Qeyd edək ki, Azərbaycanın xarici siyasətinin əsasları Heydər Əliyev tərəfindən qoyulub. Azərbaycan Prezidenti İlham Əliyev ölkənin xarici siyasətini uğurla davam etdirir. Azərbaycan həm regional, həm də qlobal problemlərin həllində özünün yaxın ətrafı və xarici dünya ölkələri ilə konstruktiv əməkdaşlığa həmişə açıqdır. Düşünürəm ki, Prezident İlham Əliyevlə Azərbaycan həm daxili, həm də xarici siyasətdə uğurlar qazanacaq, ölkəmizin dünya miqyasında əhəmiyyəti ildən-ilə daha da artacaq.

**Ədəbiyyat siyahısı**

1. Qasımov Q., “Heydər Əliyev və təhlükəsizlik orqanları” // “Xalq qəzeti”, 2023; URL: https://xalqqazeti.az/az/sosial-heyat/125330-

2. Mahmudov E., "Xalqa və dövlətə şərəfli xidmət missiyası" // Azərbaycan.-2009.-30 mart.-S.4.

3. Rzayev, M., (2023). Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 260-269.

4. Абдуллаева М.Р., "Основные направления политики национальной безопасности теоретического наследия Гейдара Алиева", 2017, 487-491 с. URL: https://elar.urfu.ru/bitstream/10995/83910/1/978-5-321-02538-3_2017_089.pdf

5. Гасанов А.М. "Политика национального развития и безопасности Азербайджанской Республики", Баку: "Zərdabi LTD" MMC, 2014. 672 с.

6. Мамедзаде Н.С., "Национальная безопасность Азербайджана в контексте защиты границ государства" // Політичні проблеми міжнародних систем та глобального розвитку, Випуск 4. 2019, 87-92 с.

7. https://www.migration.gov.az/content/pdf/24d3bee249d79f67d9065a74461ff833.pdf

8. https://www.dtx.gov.az/en/history/security-bodies-of-the-independent-republic-of-azerbaijan.html

9. https://akademiya.dtx.gov.az/az/kitabxana/ulu-onder-heyder-eliyevin-sanli-irsi-dovlet-tehlukesizliyinin-teminati-ucun-tukenmez-menbedir.html

10. https://genprosecutor.gov.az/az/post/2427

## Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti

**Hüseynova Gülgün**

**XÜLASƏ**

Heydər Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyəti milli təhlükəsizliyə çoxşaxəli yanaşma ilə yadda qalıb. Onun səyləri Azərbaycanın sabitliyini və təhlükəsizliyini təmin etmək üçün Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla həllinə, ordunun gücləndirilməsinə, iqtisadi inkişafın təşviqinə yönəlib. Bu məqalədə Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsində Heydər Əliyevin göstərdiyi təşəbbüslər öz əksini tapmışdır.

## Гейдар Алиев и политика национальной безопасности Азербайджана

**Гусейнова Гюльгюн**

**АННОТАЦИЯ**

Деятельность Гейдара Алиева на посту президента Азербайджана запомнилась его многогранным подходом к национальной безопасности. Его усилия направлены на дипломатическое решение нагорно-карабахского конфликта, укрепление армии и содействие экономическому развитию в целях обеспечения стабильности и безопасности Азербайджана. В данной статье отражены инициативы Гейдара Алиева в обеспечении национальной безопасности Азербайджана.

## Heydar Aliyev and the national security policy of Azerbaijan

**Huseynova Gulgun**

**SUMMARY**

Heydar Aliyev's activity as the President of Azerbaijan is remembered for his multifaceted approach to national security. His efforts are aimed at resolving the Nagorno-Karabakh conflict diplomatically, strengthening the army, and promoting economic development in order to ensure the stability and security of Azerbaijan. This article reflects Heydar Aliyev's initiatives in ensuring the national security of Azerbaijan.

# İDEOLOGİYA VƏ CƏMİYYƏT

***Quluzadə Ramin Xaliq oğlu,***
***Bakı Dövlət universiteti,***
***Magistrant, 2-ci kurs***
*rguluzada98@mail.ru*

***Açar sözlər:*** cəmiyyət, azərbaycançılıq, ideologiya, münaqişə
***Key words:*** society, azerbaijaniism, ideology, conflict
***Ключевые слова:*** общество, азербайджанизм, идеология, конфликт

Hər bir cəmiyyət müxtəlif ideoloji idarəetmə üsulu ilə fərqlənir. Tarixən idarəetmə üsulları dəyişmiş və hazırki idarətetmə formaları yaranmışdır. Təbii ki, rejimin yeritdiyi siyasət də bu prosesə təsirini göstərmişdir. Məsələn, ötən əsrin 30-40-cı illərində faşist və nasist düşüncələrlə idarə edilən Almaniya, bu gün daha azad, liberal və demokratik yolla idarə olunur. Göründüyü kimi 60-80 illik bir dövrdə bir-birindən fərqli iki idarəetmə üsulu və ideoloji istiqamət mövcdu olmuşdur. İllər ərzində belə bir sual yaranıb ki, cəmiyyət radikal bir ideologiyaya əsaslanarsa, bu həmin cəmiyyətin taleyinə necə təsir edər?

İdeologiya haqqında görkəmli şəxslərin müxtəlif fikirləri və deyimləri mövcuddur. ABŞ-ın ikinci prezidenti Con Adams ideologiyanı axmaqların elmi adlandırıb. Məşhur amerikalı etnobotanik Terens Makkena ideologiyanın vəhşiliyə yol açdığını bildirmişdir. Lakin bu şəxslər belə müəyyən ideologiyanın tərəfdarı olmuşdur. İdeologiya hər hansı bir siyası, iqtisadi, mədəni, sosial bir fikri təbliğ etmək üçün yaradılmış bir vasitədir. O, müəyyən fikri qabartmaq, təbliğ etmək, yaymaq üçün insanlar toplayır və onlar müəyyən müddətdən sonra bu ideologiyanın qurbanına çevrilirlər. İdeologiya insanların fəaliyyətini vahid istiqamətə yönəldir və onları həyata eyni cür baxmağa sövq edir. Lakin ideoloji bağlılıq heç də hər zaman pis deyil. Çünki tarixən müxtəlif millətlərin ideoloji bir axına qoşularaq böyük uğurlar qazandığını görə bilərik. “İdeologiya” termininden ilk dəfə 1796-1798-ci illərdə fransız filosof Tresi istifadə etmişdur.

O, metafizikanı qəbul etmir, psixologiyanın dini cərəyanların uydurması hesab edirdi və dinin siyasətdəki ağırlığını qəbul etmirdi. Məhz bu səbəbdən de Tresi ideologiyanı dindən xilas yolu hesab etmişdir. O, ideologiyanın dini cərəyanların təzahür forması olmadığını müdafiə etmiş və odan siyasi bir mübarizə vasitəsi kimi istifadə edirdi. Sonralar ideologiya konsepsiyasından istifadə üsulu da məhz de Tresinin fikir və planlarını təsdiqləyəcək gücdə idi. İdeologiya liberal respublikaçılığa yaxınlığın göstəricisi kimi dəyərləndirilib, ondan Treysinin yeni empirik ideyalar elmini təsvir etmək üçün istifadə olunub. Digər tərəfdən isə o, mənfi mənaya malik olub, təhlükəli radikalizmi, intellektual və praktiki səmərəsizliyi ifadə etmişdir.

Karl Marks və Fridirix Engels Tresinin əlehinə çıxaraq ideologiyanı insanları bütləşdirmək və məşrulaşdırmaq üçün istifadə edilən bir oyuncaq hesab etmişlər. Onlara görə, ideologiya cəmiyyət tərəfindən qabardılan, idarəedənlərin işini asanlaşdıran və onların cəmiyyətin birliyinə nail olması üçün istifadə etdiyi uydurmadır. Bu da ideologiya və dinin eyni ortaq məqsəd üçün mövcudluğunu göstərir.

İdeologiya onun əsas dəyərini təşkil edəcək, yəni, onu doğru qəbul edəcək bir rəyə, onu “təməli sağlam olan mərkəzi bir elm sahəsi” kimi qələmə verəcək rasional bir arqumentə ehtiyac duyur (Merleau-Ponty, 1981: 242). İdeologiya hər zaman haqlı sayılmır. Çünki ideologiya öz təməlini dini, fəlsəfi, siyasi, elmi, iqtisadi, mədəni fikirlər üzərində qurur. Qeyd edilən hər bir sahədə müxtəlif fikirlər olduğu üçün qurulmuş təməlinə əlehinə fikirlər də formalaşır və nəticədə ideoloji mübarizə və ya təzad yaranmış olur. Təzad ondan irəli gəlir ki, “elmin reallığa çatmaq və onu qanunlarla müəyyən etmək səyindən fərqli olaraq, ideologiya bəzi dəyərlərə görə reallığı təhrif edir” (Buis, 1981: 36-37).

İdeoloji idarəetmə üsulu cəmiyyətin bütünlüklə bir istiqamətə cəlb olunması demək deyil. Daha dəqiq desək, cəmiyyət rejimin istədiyi istiqamətdə hərəkət etmək məcburiyyətində deyil. Rəhbər seçilir və onun ideoloji strategiyası cəmiyyətdə təbliğ olunur və nəticədə cəmiyyətdə ideoloji bir axın yaranır. Yeni seçilmiş hökumət cəmiyyətin çox hissəsinin dəstəyini qazandığı üçün bu ideoloji xətti təbliğ etmək elə də çətin olmur. Lakin bir qrup insan fərqli istiqamətlərə yönəlir və nəticədə rejimə müxafil ideoloji fikirlər yaranır.

Təbii ki, elə hal ölkədə diktator rejiminin olmadığı zaman baş verir. Məsələn, SSRİ dövründə kommunist ideologiyası açıq-aşkar təbliğ olunur, hökumət insanlara sosializm ideyasını təlqin edirdi. Lakin daxildəki kapitalist düşüncəli insanlara müxalif fəaliyyət üçün şans verilmir və onlar repressiya qurbanı olurdular. Başqa ölkəyə nəzər salsaq, belə bir sual ortaya çıxır. Adolf Hitlerin hakimiyyəti dövründə cəmiyyətdə doğrudan hamı yəhudilərin soyqırımını dəstəkləyirdi və ya hamı nasist idi? Əlbəttə ki, belə deyildi. Sadəcə buna etiraz etməyi ağlından keçirən hər kəs “ali irqə” xəyanətdə ittiham olunurdu. Göründüyü kimi, diktatura rejimində idarəedici qüvvənin yeritdiyi ideoloji strategiyaya qarşı çıxmaq o qədər də asan deyil.

İdeoloji idarəetmənin cəmiyyətə mənfi və müsbət tərəfləri var. Sözsüz ki, bu xüsusiyyətlər tarix boyu yaşanmış praktiki təcrübələrdən irəli gəlir. Müsbət xüsusiyyətlərdən biri odur ki, ideoloji bir idarəetmə üsulu cəmiyyəti birləşdirir və hər kəsi eyni istiqamətdə addımlamağa sövq edir. Təbii ki, bu amildən danışarkən ölkənin mövcud coğrafi şəraiti, iqtisadi vəziyyəti də əsas götürülməlidir. Məsələn, Azərbaycan olduqca təhlükəli və hər zaman gərgin olan coğrafi şəraitə sahibdir. Ölkənin hər tərəfində siyasi böhran var və sərhəd ölkələrlə münasibətlər heç də ürək açan deyil. Sözsüz ki, ölkə rəhbərliyinin siyasi gedişləri və planları vəziyyəti stabil saxlamağa imkan verir. Lakin baş verə biləcək təhdid və təhlükələrə qarşı hazırlıqlı olmaq üçün insanlara hər zaman milli və vətənpərvər ruh aşılanır. Bunun nəticəsidir ki, Qarabağ problemi artıq öz həllini tapmışdır. Bu da idarəedici qüvvənin insanları bir ideologiya altında birləşdirmək istəyinin bariz nümunəsidir. Ümumilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində yaratdığı azərbaycançılıq ideologiyası bu gün də öz aktuallığını qoruyur. Doğrudur, bu ideologiya türkçü və milliyətçi qüvvələrin xoşuna gəlmirdi, çünki, azərbaycançılıq ideologiyası Azərbaycan xalqına qədim türk kökünü öz kimliyi kimi ifadə etməsinə imkan vermirdi. Lakin o zamankı siyasi böhranda Heydər Əliyevin atdığı bu addım Azərbaycan xalqını birləşdirməyə kömək etdi.

Müsbət cəhətlərlə yanaşı ideoloji idarəetmənin mənfi tərəfləri də var. İnsanları konkret bir ideoloji axına yönəltsək onların söz, fikir kimi demokratik haqlarını əlindən alır.”Ya mənim kimi düşün, ya da öl” prinsipi heç də doğru bir yanaşma deyil və bu strategiya ilə idarə olunan cəmiyyətlər rifah və inkişaf yolunu çox gec tapırlar. Bunun ən bariz nümunəsi kimi faşist Almaniyanı və ya kommunist SSRİ-ni göstərə bilərik. Hər iki dövlətin süqutunu məhz bu qüsurlu idarəetmə üsulu sürətləndirmişdir. Ona görə insanların böyük əksəriyyəti ideoloji bağlılığı və asılılığı cəmiyyətin inkişafı üçün əngəl hesab edirlər. Həmçinin ideologiyalar müəyyən problemlərə daha çox istiqamətlənir ki, bu da bu ideologiyaya meyilli olan insanları hər zaman eyni problemlərlə üz-üzə qoyur və insanlar həyata eyni baxış bucağından baxmalı olurlar. Bu da cəmiyyətin müxtəlif sahələrdə paralel inkişafına əngəl yaradır. Digər tərəfdən ideologiya hər zaman münaqişəyə yol açır.

Elə bir ideoloji axın yoxdur ki, başqa idaologiyalarla münaqişədə olmasın. Hətta bu bəzən silahlı mübarizəyə, insan ölümünə yol açır. Məsələn, Türkiyədə 1960-1980-cı illərdə sağ və sol yönümlü qrupların mübarizəsi çox sayda insanın həyatını itirməsinə səbəb olmuşdur. Silahlı mübarizələr, siyasi həbslər cəmiyyəti bütünlüklə haldan salmışdı. Sağ cəbhədə daha çox millətçi qruplaşmalar, siyasi partiyalar və hətta türk mafiyası yer alır, sol cəbhədə isə kommunist, leninist fikirlər səsləndirən qruplaşmalar, həmçinin, kürd təbliğatı aparan siyasi partiyalar və ən böyük siyasi partiyalardan olan Cümhuriyyət Xalq Partiyası yer alırdı. Təkcə Türkiyədə yox, müxtəlif dövrlərdə Rusiyada, Amerikada, Kubada, İranda, hətta Azərbaycanda belə ideoloji konfliktlər baş vermişdir.

Göründüyü kimi idarəetmədə ideoloji təzyiq cəmiyyətdən, idarə edən şəxsdən asılıdır. İstənilən halda bütün ideoloji qurumlara icazə verilməli, ölkənin rifahına uyğun ideoloji strategiya seçilməli və cəmiyyət bu strategiyaya silah gücünə cəlb olunmamalıdır. Hökumət ideoloji birliyin cəmiyyət üçün faydalarının təbliğatını sivil və demokratik yolla aparmalı, cəmiyyətdə yarana biləcək münaqişələri əvvəlcədən nəzərə almalı və onların qarşısını almağa hazır olmalıdır. Yalnız belə olduğu halda cəmiyyətdə ideologiya mədəniyyəti formalaşa bilər və cəmiyyətin müxtəlif təbəqələri öz düşüncələrini açıq formada bəyan edə bilərlər.

**Ədəbiyyat:**

Althusser, L. (1991). İdeologiya və İdeoloji Dövlət Qurğuları. (3-cü nəşr). (Tərcümə Alp Y., Özışık M.). İstanbul: İletişim Yayınları.

Bell, Daniel İdeologiyanın sonu: 50-ci illərdə siyasi ideyaların tükənməsi haqqında (yenidən işlənmiş nəşr). Nyu York: The Free Press (1965)

Buis, G. (1981). Elm və İdeologiya. Arslan, F. (Tərcümə), Elmlər və İdeologiyalar. Ankara: Ümran Nəşrləri

Cranston, M. (2024, 8 yanvar). ideologiya. Britannica ensiklopediyası. https://www.britannica.com/topic/ideology-society

**Quluzadə Ramin**

**İdeologiya və cəmiyyəti**

**Xülasə**

Cəmiyyət və ideologiya anlayışları bir-biriləri ilə sıx əlaqədədir. Cəmiyyət hər bir halda bir ideologiyanın təsiri altında olur. Bəzən bu ideologiyanı seçmək hüququ cəmiyyətin öz əlinə verilir, bəzən isə idarəedən tərəfindən cəmiyyətin müqəddəratı təyin edilir. Cəmiyyətin ideoloji bağlılığı hər zaman hökumətin maraq və istəklərinə uyğun gəlmir. Hökumət cəmiyyəti hər zaman özünə qalxan kimi istifadə edir və özünə qarşı olan xarici və daxili qüvvələrinin hücumlarından məhz cəmiyyətin dəstəyi ilə yaxa qurtarmağa çalışır. Məsələn, 2016-cı ildə Türkiyədə çevriliş cəhdi baş tutdu. Lakin ölkə prezidentinin xalqa çağırışından sonra xalq özünü silahların önünə atdı və nəticədə polis qüvvələrinin də müdaxiləsi ilə çevriliş baş tutmadı. Bu cür çətin anda cəmiyyət hökumətin köməyinə çatdı. Deməli cəmiyyət hökumət üçün hər zaman lazımlıdır. Odur ki, hökumət insanların hüquq və azadlıqlarını əsas götürən bir ideoloji xətt cızmalıdır. Əks halda insanlar dövlətə və dövlətçiliyə zərər verəcək və onları yanlış yönləndirəcək ideoloji fikirlərinə arxasına düşə bilərlər. İdeologiya həqiqəti dərk etməkdə çətinlik çəkən insanlara daha güclü bir şüur təqdim edir və bunu müasir və sistemli şəkildə edir. İdeoloji təbliğatın güc olması insanları düzgün və ya yanlış bir istiqamətdə hərəkətləndirə bilər. Sərt və sistemli ideologiyalar insanların şüur altına olduqca güclü hücumlar edir və bu da çox pis nəticələrin yaranmasına səbəb ola bilər. İdeologiyalar həm fərdi, həm də cəmiyyətə təsir göstərir və onların əhəmiyyətli təsir gücü var. 20-ci əsrin "meta-povest" adlanan böyük ideologiyaları insanları zəiflətmək potensialına sahib idi, həm də kütləvi müharibələrin təşəbbüskarı və böyük insan faciələrinin səbəbkarı olmuşdur. Odur ki, hökumətin cəmiyyət üzərində tətbiq etdiyi ideoloji strategiya cəmiyyətin bütün təbəqələrini əhatə etməli və onları ortaq bir nöqtədə toplamalıdır. Əks təqdirdə, həm hökumətin, həm də cəmiyyətin uçuruma doğru getməsi daha da sürətlənər və bütün ölkə böyük bir ideoloji planın qurbanına çevrilər.

**Гулузаде Рамин**

**Идеология и общество**

**Резюме**

Понятия общество и идеология тесно связаны друг с другом. Общество всегда находится под влиянием идеологии. Иногда право выбора этой идеологии предоставляется обществу, а иногда судьбу общества определяет правитель. Идеологическая

направленность общества не всегда соответствует интересам и желаниям власти. Правительство всегда использует общество как свой щит и пытается при поддержке общества избавиться от нападений на него внешних и внутренних сил. Например, в 2016 году в Турции произошла попытка государственного переворота. Однако после призыва президента страны к народу народ бросился под оружие, и в результате переворот не состоялся из-за вмешательства полицейских. В такое трудное время общество пришло на помощь правительству. Поэтому обществу всегда необходима власть. Поэтому правительство должно провести идеологическую линию, основанную на правах и свободах людей. В противном случае люди могут отстать от своих идеологических взглядов, что нанесет вред государству и государственности и направит их в неверное русло. Идеология обеспечивает более сильное сознание людям, которым трудно понять истину, и делает это современным и систематическим способом. Сила идеологической пропаганды может двигать людей в правильном или неправильном направлении. Жесткие и систематические идеологии очень сильно атакуют подсознание людей, что может привести к очень плохим результатам. Идеологии влияют как на личность, так и на общество, и они имеют значительное влияние. Великие идеологии 20-го века, так называемый «метанарратив», потенциально могли ослабить людей, но также инициировали массовые войны и стали причиной великих человеческих трагедий. Поэтому идеологическая стратегия, применяемая властью в отношении общества, должна охватывать все слои общества и собирать их в общей точке. В противном случае и власть, и общество пойдут еще дальше в пропасть, и вся страна станет жертвой большого идеологического плана.

**Quluzadeh Ramin**

**Ideology and society**

**Summary**

The concepts of society and ideology are closely related to each other. Society is always under the influence of an ideology. Sometimes the right to choose this ideology is given to the society, and sometimes the destiny of the society is determined by the ruler. The ideological commitment of the society does not always correspond to the interests and wishes of the government. The government always uses the society as its shield and tries to get rid of the attacks of the external and internal forces against it with the support of the society. For example, in 2016, there was a coup attempt in Turkey. However, after the call of the president of the country to the people, the people threw themselves in front of the weapons, and as a result, the coup did not take place due to the intervention of the police forces. In such a difficult time, the society came to the help of the government. So the society is always necessary for the government. Therefore, the government should draw an ideological line based on people's rights and freedoms. Otherwise, people may fall behind their ideological views that will harm the state and statehood and misdirect them. Ideology provides a stronger consciousness to people who have difficulty understanding the truth, and it does so in a modern and systematic way. The power of ideological propaganda can move people in the right or wrong direction. Rigid and systematic ideologies make very strong attacks on people's subconscious, which can lead to very bad results. Ideologies affect both the individual and society, and they have significant influence. The great ideologies of the 20th century, the so-called "meta-narrative", had the potential to debilitate people, but also initiated mass wars and caused great human tragedies. Therefore, the ideological strategy applied by the government on society should include all layers of society and gather them at a common point. Otherwise, both the government and the society will go further into the abyss, and the whole country will become a victim of a big ideological plan.

# MİRZƏ FƏTƏLİ AXUNDOV: SİYASİ VƏ MƏNƏVİ AZADLIQ

***Salmanova Aişə Əbülfət qızı***
***BDU-nun II kurs magistrantı***
***E-mail:*** *aise112233@gmail.com*

***Açar sözlər:*** Axundov, maarifçilik, siyasi azadıq, mənəvi azadlıq
***Ключевыеслова:*** Ахундов, просвещение, политическая свобода, нравственная свобода
***Keywords:*** Akhundov, enlightenment, political freedom, moral freedom

XIX əsrdə Azərbaycanda azadlıq müxtəlif ictimai, siyasi və mədəni hərəkatlarla bağlı idi. Bu dövrdə Azərbaycan müxtəlif sosial problemlərlə üzləşirdi. Azərbaycanda azadlıq mübarizəsi bu sosial problemlərə qarşı bir reaksiya olaraq ortaya çıxdı və müxtəlif islahatçı və millətçi hərəkatlar tərəfindən dəstəkləndi.

Bir çox Azərbaycan ziyalıları xalqın hüquq və azadlıqlarının müdafiəsi üçün mühüm işlər görüblər. Xüsusən XIX əsrin ikinci yarısında Azərbaycanda millətçilik və maarifçilik hərəkatları geniş vüsət aldı. Bu dövrdə Azərbaycanda təhsil sahəsində mühüm irəliləyişlər baş verdi və bir çox ziyalılar ictimai maarifləndirmə, azadlığın təmin olunması istiqamətində fəaliyyət göstərdilər.

Eyni zamanda, Azərbaycanda siyasi və mənəvi azadlığın sərhədləri bütün 19-cu əsrdə özünü büruzə verdi. Rusiya və İran hökumətləri repressiv siyasət yürüdüb və müxalifəti sıxışdırmaq üçün müxtəlif təzyiq üsullarından istifadə etdilər. Lakin buna baxmayaraq, azərbaycanlılar arasında azadlıq idealı və milli kimlik şüuru gücləndi.

Xüsusən 19-cu əsrin sonlarında Azərbaycanda milli hərəkatlar, müstəqillik axtarışları özünü daha qabarıq göstərdi. Bu dövrdə azərbaycanlılar öz kimliklərini və mədəniyyətlərini qorumaq və inkişaf etdirmək əzmlərini daha da gücləndirdilər. Azərbaycanda azadlıq idealı 20-ci əsrin əvvəllərində müxtəlif milli və siyasi hərəkatlarla birlikdə daha da güclənməkdə davam etdi və son nəticədə müasir Azərbaycan Respublikasının yaranmasına gətirib çıxardı. “Mirzə Fətəli Axundovun XIX əsrdə ictimai şüurumuzun inkişafına gətirdiyi yeniliklər XX əsrdə öz bəhrəsini vermişdir” [7, s.66].

Mirzə Fətəli Axundov Azərbaycan ictimai-fəlsəfi fikir tarixinə liberal-demokratik və azadlıq ideyalarının carçısı kimi daxil olmuşdur. Onun fikirlərinin formalaşması da 19-cu əsrdə Azərbaycanın ictimai, siyasi, iqdisadi vəziyyəti ilə bağlı idi. . “XIX əsrdə Axundzadə və onun kimi digər maarifçi mütəfəkkirlərin meydana çıxmasının əsas səbəbi hər şeydən əvvəl, orta əsr epistemasına bağlı qalmaqda davam edən Qacarların dövrün yeniliklərinə qapı bağlaması idi. Orta əsrlər paradiqmasında mövcud olan Qacarlar bu arxaikliyə qarşı olan istənilən fəaliyyəti zərərli hesab edərək rədd edirdilər. Yeniliklərə sədd çəkərək köhnəliyin qorunması isə istibdad, müstəbidlik, xurafat və mövhumatın köməyi ilə mümkün idi” [4, s.69]. O, öz komediyalarında həmin dövrdə insanların həyat və düşüncə tərzini aydın şəkildə təsvir etmişdir. Onlardakı mənfi və müsbət cəhətlərini görmüş, mənfi cəhətləri aradan qaldırmaq üçün yollar axtarmışdır. “Demək lazımdır ki, Mirzə Fətəli Kəmalüddövlənin cildində dövrünün Şərq, o cümlədən Azərbaycan zəkalarını düşündürən, həyəcanlandıran, lakin açıq dilə gətirə bilmədikləri bütün əsas problemləri nəinki əhatə etmiş, eyni zamanda, onları ilk dəfə olaraq fəlsəfi refleksiya obyektinə çevirmişdir” [2, s.20].

Onun azadlıq haqqında görüşləri özünün maarifçi fikirləri ilə əlaqədardır. “Mirzə Fətəlinin fəlsəfi təliminin bütün bölmələri və hissələri ideyaca bir-birilə həmahəngdir” [3, s.60]. Axundov tərəqqi yolunda birinci olaraq təhsili əsas görürdüsə ikinci olaraq azadlığa böyük əhəmiyyət verirdi. “ Yoxluq pərdəsindən varlıq aləminə qədəm qoyan növi bəşərin

fərdlərindən hər biri sağlam əqlin hökmü ilə tam azadlıq nemətindən istifadə etməlidir" [1, s.43]. Axundovun azadlıq fəlsəfəsində də təhsilə və informasiyaya çıxışa ciddi önəm verilir. Onun fikrincə, fərdlər yalnız biliyə malik olduqda həqiqi azad ola bilərlər. Odur ki, təhsilə və informasiyaya çıxış imkanlarının genişləndirilməsi cəmiyyətin azadlığı və tərəqqisi yolunda mühüm addımdır.

"Kəmalüddövlə məktubları" əsərində azadlığın vacibliyini vurğulayaraq 2 növünü göstərirdi. Bunlardan biri ruhani azadlıq, digəri isə cismani azadlıqdır. Ruhani azadlıq din başçıları tərəfindən, cismani azadlıq despot hökmdarlar tərəfindən əlimizdən alınmışdır. "Tam azadlıq iki növ azadlıqdan ibarətdir: biri ruhani azadlıq, o biri cismani azadlıqdır" [1, s.43]. Insanlar arasında bərabərliyin təmin edilməsi üçün siyasi və mənəvi azadlığın olması vacibdir. Cəmiyyətin bütün fərdləri eyni cür azadlığa və bərabər hüquqlara malik olmalıdır.

Axundovun fəlsəfəsində azadlıq fərdin fikir, ifadə və fəaliyyət azadlığı kimi təqdim olunur. Onun fikrincə, fərdlərin öz fikirlərini sərbəst ifadə etmək və fikirlərini bölüşmək hüququ cəmiyyətin inkişafı üçün prinsipial əhəmiyyət kəsb edir. Axundov vurğulayır ki, fərdlər təkcə fiziki deyil, həm də əqli və emosional cəhətdən azad olmalıdırlar.

Əsərlərinin sərt tənqidi xarakter daşıması, əsərdə bilərək cüzi səhvlərin buraxılması müəllifin məqsədinə xidmət edir. O, əsəri tərcümə edənlərə də səhvlərin düzəldilməsini istəmədiyini söyləmişdir. Axundov əsərlərinə əsaslandırılmış tənqidlərin yazılmasını əsərlərin yayılması üçün vacib hesab edirdi. O, hərkəsin çəkinmədən öz fikrini azad şəkildə söyməsini istəmişdir. "Pəs bu cür tərəqqi o zaman imkan tapar ki, cəmiyyətin fərdləri öz fikirlərində müqəyyəd olmasınlar; hər nə istəsə desin, hər nə bacarırsa etsin. Və əgər sözü, ya işi, cəmiyyətin başqa fərdlərinin nəzərində məqbul olsa, cəmiyyətin başqa fərdləri də düşündükdən sonra onu təsdiq edər və ondan fayda taparlar; əgər məqbul olmasa, başqa bir adam onun səlahiyyətsizliyini bəyan edər" [1, s.207].

Fikir azadlığı cəmiyyətin tərəqqisi və inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Yeni ideyaların ortaya çıxması, mövcud düşüncə nümunələrinin sorğulanması və tənqid edilməsi cəmiyyətin müxtəlif perspektivlərdən faydalanmasına şərait yaradır. Bu, cəmiyyətə daha açıq fikirli, çevik və yenilikçi olmağa imkan verir. "Fikir azadlığı olduqda kritikanın faydası o olacaqdır ki, nəhayət, get-gedə müxtəlif fikir və rəylərin toqquşmasından haqq yerini tutacaq və mədəniyyət aləmində tərəqqiyat zühur edəcəkdir" [1, s.207].

Bununla belə, fikir azadlığı özü ilə bəzi məsuliyyətlər də gətirir. İdeyaların sərbəst ifadəsi başqa insanların hüquq və ləyaqətinə xələl gətirməməlidir. İctimai sülh və harmoniyanı pozacaq ifrata varmamaq da vacibdir. Ona görə də demokratik cəmiyyətdə fikir azadlığı o zaman qeyri-məhdud ola bilər ki, başqalarının hüquqlarına hörmət edilsin və cəmiyyətin ümumi mənafeləri nəzərə alınsın.

Axundovun fikrincə mənəvi azadlıq kimi siyasi azadlıq da Şərqdə ərəblər gəldikdən sonra yox olmuşdur. "O, ümumiyyətlə, İslamdan əvvəlki İranı "əzəmət və qüdrət dövrü" kimi qələmə versə də, İslam dövrünü tamamilə "zəiflik və xaos dövrü" adlandırır" [6, s.65].

Axundovun fikirlərini o dövrün despotik hakimiyyətlərinə meydan oxumaq kimi də qiymətləndirmək olar. "Ş.Məmmədov yazır ki, "Axundov hər növ despotizmin düşməni idi" [Мамедов, 1978, s.113]. Qərb maarifçilərinin xələflərindən olan Axundzadənin, Qərb maarifçiliyində ən əsas tənqid hədəfi olmuş despotizmin istənilən formalı təzahürünə qarşı olması tam təbiidir. Görüşləri etibarı ilə reformator olan Axundzadənin despotizm və tiraniyanın istənilən formasına qarşı barışmaz mövqe tutması təsadüfi deyil" [ 5,s.174 ]. O, azadlığın təkcə fərdi məsələ deyil, həm də sosial zərurət olduğunu müdafiə edərək, fərdlərin despotizmə qarşı durmaq hüququnu vurğulayır. "Ey nadan, sən ki, qüdrət, say və bacarıq cəhətdən zalimdən qat-qat artıqsan; bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalimin atasının goruna od vur!" [1, s.269].

"Kəmalüddövlə məktubları" əsərində və məktublarında yaşadığı dövrdə mövcud olan siyasi vəziyyəti, dövləti idarə edən hakimlərin səməsiz fəaliyyətini və xalqın azadlığının

heçə sayılmasını pisləyirdi. "Aldanmış kəvakib" povestində ədəbi şəkildə xalqın da mövcud ədalətsizliyə alışaraq yeni sistemi qəbul etmədiyini ifadə etmişdir.

Axundovun azadlıq fəlsəfəsi təkcə fərdin azadlığı ilə məhdudlaşmır, o, ictimai azadlığı da əhatə edir. Onun fikrincə, ədalətin təmin edilməsi və sosial bərabərliyin artırılması əsl azadlığın əsas şərtləridir. Ona görə də Axundovun fəlsəfəsi təkcə fərdlərin azadlığını deyil, həm də cəmiyyətin ümumi rifahını və ədalətini qarşısına məqsəd qoyub. Fərdi azadlıq hər zaman hər kəs üçün təmin oluna bilmədiyinə, həmçinin fərdi azadlığın fərdlər tərəfindən qavranılmasının fərqliliyinə əsaslanaraq demək olar ki, bu qavram heç vaxt tam mümkün olmur. İctimai azadlığa gəldikdə isə ictimai azadlıq ümumiləşdirilmiş və hər kəs tərəfindən eyni dərəcədə qəbul olunmuş bir mövhum olduğundan onun həyata keçirilməsi daha real görünür.

## ƏDƏBİYYAT


1. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç clddə. II cild. Bakı. "Şərq-Qərb". 2005. 376 səh.
2. Arzu Hacıyeva. Şeyxilik və M.F.Axudzadə: fəlsəfi-tarixi oçerk. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Elmi əsərlər"i, beynəlxalq elmi və nəzəri jurnal. № 2 (23). Bakı. 2014. s. 19-35.
3. Arzu Hacıyeva. Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: Hermenevtik təcrübələr. Bakı. "Elm və Təhsil". 2017. 308səh.
4. Zaur Rəşidov. M.F.Axundzadənin "Həkimi-ingilis Yuma cavab"ı və ya Qeyri-mütabiq iki Yuma yek cavab məktubu. Bakı: Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi. Azərbaycan İlahiyyat İnstitutu. Din araşdırmaları jurnalı, № 2 (9) Dekabr. 2022. s. 57-80.
5. Zaur Rəşidov. Şeydabəy Məmmədovun tədqiqatlarında M.F.Axundzadə: Sovetlər dövrünün kontekstində tənqidi təhlil. Bakı: Metafizika, Beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı. №4(24). Bakı. 2023. s.160-182.
6. Zia-Ebrahimi Reza. The Emergence of Iranian Nationalism: Race and the Politics of Dislocation. New York: Columbia University Press. 2016. 291 p.
7. Mir Cəlal. Mirzə Fətəli Axundovun farca yazan şagirdləri. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. №8. Bakı: Azərbaycan SSR EA nəşriyyatı. 1945. s. 66-76.


***Salmanova Aişə***

**Mirzə Fətəli Axundov: Siyasi və mənəvi azadlıq**

**XÜLASƏ**


XIX əsrin Azərbaycanında azadlıq mübarizəsi geniş spektrdə müxtəlif ictimai, siyasi və mədəni hərəkatlarla əhatə olunurdu. Bu dövrdə sosial problemlər artıq milli və islahatçı hərəkatlarla üzləşməyi tələb edirdi. Özəlliklə əsrin ikinci yarısında milli mədəniyyət və təhsil sahələrində irəliləyişlər yaşandı. XIX əsrin sonlarına doğru milli hərəkatlar daha da qabarıqlaşdı. Bu dövrdə azərbaycanlılar öz kimliklərini qorumaq və mədəniyyətlərini inkişaf etdirmək üçün daha fəal olurdular. Bu hərəkatlar nəticəsində müasir Azərbaycan Respublikası yaranıb.

Mirzə Fətəli Axundovun əsərləri də XIX əsri yansıtır. O, liberal-demokratik və azadlıq ideyalarını tərəqqi ilə əlaqələndirmişdir. Fikir azadlığının cəmiyyətin inkişafı və tərəqqisi üçün əhəmiyyətini vurğulamışdır. Axundov fəlsəfəsində azadlıq yalnız fərdi deyil, həm də sosial bərabərliyin təmin edilməsi vasitəsidir. Axundov siyasi azadlığın olmamasına görə həmin dövrün despotik hakimiyyətini, mənəvi azadlığın olmamasında din xadimlərini günahlandırmaqla yanaşı cəmiyyətin hər bir fərdini də öz azadlağı uğrunda mübarizəyə səsləmişdir.

Məqalənin məqsədi böyük mütəfəkkir Mirzə Fətəli Axundovun siyasi və mənəvi azadlıq haqqında fikirlərinin təhlilidir. Axundov “Kəmalüddövlə məktubları” əsərində azadlığın özü və növləri haqqında, “Con Stüart Mill azadlıq haqqında” yazısında fikir azadlığı və onun tərəqqi üçün əhəmiyyətindən bəhs etmişdir.

**Салманова Аиша**

**Мирза Фатали Ахундов: Политическая и моральная свобода**

**АННОТАЦИЯ**

Борьба за свободу в Азербайджане в XIX веке была охвачена широким спектром общественных, политических и культурных движений. В этот период социальные проблемы требовали решения национальных и реформистских движений. Особенно во второй половине века прогресс был достигнут в области национальной культуры и образования. К концу XIX века национальные движения стали более заметными. В этот период азербайджанцы стали более активно защищать свою идентичность и развивать свою культуру. В результате этих движений была создана современная Азербайджанская Республика.

Работы Мирзы Фатали Ахундова также отражают XIX век. Он связал либерально-демократические и свободные идеи с прогрессом. Он подчеркнул важность свободы мысли для развития и прогресса общества. В философии Ахундова свобода – это не только личность, но и средство обеспечения социального равенства. Ахундов обвинил тогдашнее деспотическое правительство в отсутствии политической свободы, а духовенство в отсутствии духовной свободы и призвал каждого человека в обществе бороться за свою свободу.

Цель статьи – анализ идей великого мыслителя Мирзы Фатали Ахундова о политической и нравственной свободе. О самой свободе и ее видах Ахундов говорил в своих «Письмах с Кемалуддовым», а о свободе мысли и ее значении для прогресса – в статье «Джон Стюарт Милль о свободе».

**Salmanova Aisha**

**Mirza Fatali Akhundov: Political and moral freedom**

**SUMMARY**

The struggle for freedom in Azerbaijan in the 19th century was covered by a wide range of social, political and cultural movements. During this period, social problems demanded to be faced by national and reformist movements. Especially in the second half of the century, progress was made in the fields of national culture and education. Towards the end of the 19th century, national movements became more prominent. During this period, Azerbaijanis became more active in protecting their identity and developing their culture. As a result of these movements, the modern Republic of Azerbaijan was created.

Mirza Fatali Akhundov's works also reflect the 19th century. He connected liberal-democratic and freedom ideas with progress. He emphasized the importance of freedom of thought for the development and progress of society. In Akhundov's philosophy, freedom is not only an individual, but also a means of ensuring social equality. Akhundov blamed the despotic government of that time for the lack of political freedom, and the clergy for the lack of spiritual freedom, and called on every individual in the society to fight for their freedom.

The purpose of the article is the analysis of the great thinker Mirza Fatali Akhundov's ideas about political and moral freedom. Akhundov talked about freedom itself and its types in his "Letters with Kemaluddov", and about freedom of thought and its importance for progress in his article "John Stuart Mill on Freedom".

# MİLLİ TƏHLÜKƏSİZLİK SİSTEMİ: ANLAYIŞI, STRUKTURU VƏ FUNKSİYALARI

***Intiqam Piriyev, magistrant***
***Hərbi İdarəetmə İnstitutu***

***Açar sözlər***: milli təhlükəsizlik sistemi, Milli Təhlükəsizlik Konsepsiyası, normativ sənədlər, vasitə və qüvvələr, təhlükəsizlik subyektləri

***Ключевые слова***: система национальной безопасности, Концепция национальной безопасности, нормативные документы, средства и силы, субъекты безопасности

***Keywords***: national security system, National Security Concept, normative documents, means and forces, security subjects

Milli təhlükəsizlik sistemi dövlətin və cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinə, həyati mənafelərinin xarici və daxili təhdidlərdən qorunmasına yönəldilmiş idarəetmə orqanlarının, qüvvə və vasitələrin, qanunvericilik aktlarının, təşkilati, texniki və digər tədbirlərin məcmusudur. Dövlətin milli təhlükəsizlik sistemi - bu, normativ aktların, təşkilati, texniki və digər tədbirlərin, habelə onların həyata keçirilməsi üçün zəruri olan qüvvə və vasitələrin məcmusudur [1, s.34-35]. Dövlət öz təbii sərvətləri, iqtisadi inkişaf səviyyəsi, əhalinin mənəvi-siyasi potensialı, ölkənin geosiyasi mövqeyi və hərbi qüdrətinin vəziyyəti ilə müəyyən edilən bütün ümumi gücü ilə milli təhlükəsizliyi təmin edir. Ona görə də dövlət nə qədər güclü olarsa, milli təhlükəsizlik də bir o qədər etibarlı təmin edilər.

Müxtəlif dövlətlərin normativ sənədlərinə müraciət etsək, bu sistemin fərqli çəhətlərini görmək mümkündür. Moldova Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında milli təhlükəsizlik sistemi dövlətin konsepsiyaları, strategiyaları, siyasəti, vasitələri, qaydaları və inzibati strukturlarının məcmusu, habelə həyata keçirmək, qorumaq və ölkənin milli maraqlarını təbliğ etmək üçün nəzərdə tutulmuş sosial institutlar toplusu kimi müəyyən edilib. Bu, Moldova cəmiyyətinin milli maraqlarına və dəyərlərinə əsaslanan və ölkənin milli təhlükəsizlik siyasətinin istiqamətləri ilə müəyyən edilmiş strateji məqsədlərin həyata keçirilməsini təmin etmək üçün nəzərdə tutulmuş onun tərkib hissələrinin qarşılıqlı əlaqəsi mexanizmidir [2].

Latviyanın milli təhlükəsizlik sistemi dövlət hakimiyyəti və nəzarətini həyata keçirən strukturlar və qanunla müəyyən edilmiş səlahiyyət çərçivəsində milli təhlükəsizlik sahəsində vəzifə və hüquqlara yiyələnmiş Latviya vətəndaşları tərəfindən formalaşdırılır [3].

Belarus Respublikasının milli təhlükəsizlik sistemi milli təhlükəsizliyin təmin edilməsində qarşılıqlı fəaliyyət göstərən subyektlərin və ölkənin milli maraqlarını qorumaq və həyata keçirmək, habelə fərdin, cəmiyyət və dövlətin təhlükəsizliyini təmin etmək üçün istifadə etdikləri vasitələrin məcmusudur [4].

Qırğızıstan Respublikasında milli təhlükəsizlik sistemi ölkədə xüsusi yaradılmış hüquqi norma və prinsiplərin, qanunvericilik və icra hakimiyyəti orqanlarının, habelə vasitələrin, metodların və istiqamətlərin məcmusunu təşkil edən sistemdir [5]. Yuxarıdakı faktların təhlili göstərir ki, hər bir dövlət milli təhlükəsizlik sistemi anlayışına öz yanaşmasını təqdim edir. Eyni zamanda qeyd etmək lazımdır ki, əksər təfsirlərdə anlayışlar arasında müəyyən fərqlər mövcuddur. Lakin bütün bu təriflərdə vasitə, cəmiyyət, vətəndaş və qanunlar əas yer alır.

Azərbaycan Respublikasında milli təhlükəsizliyinin təmin edilməsi sistemi ölkə Konstitusiyası və qanunları əsasında qarşılıqlı fəaliyyət göstərən və öz səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyin təmin olunmasına cavabdeh olan qüvvələrin və digər dövlət orqanlarının məcmusudur [6]. Bu qüvvələr və dövlət orqanları milli təhlükəsizliyin

təmin olunmasına görə məsuliyyət daşıyırlar. Milli təhlükəsizliyinin təmin edilməsi sistemi vahid dövlət siyasətinin hazırlanması, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat, habelə digər sahələrdə milli maraqların qorunması prosesinin kompleks fəaliyyət şəklində səmərəli tətbiqi üçün şərait yaradır.

Postsovet ölkələrinin milli təhlükəsizlik sistemlərini təhlil edərkən Azərbaycan Respublikasının analoji sisteminə Belorusiya Respublikasının milli təhlükəsizlik sisteminin yaxın olduğunu görmək mümkündür.

Milli-dövlət təhlükəsizlik sisteminin strukturu aşağıdakılardan ibarətdir:

- təhlükəsizlik orqanları və qüvvələri;
- ölkə qanunları, prezidentinin fərman və sərəncamları, Təhlükəsizlik Şurasının qərarları, milli təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyət göstərən dövlət, ictimai və vətəndaş təşkilatları və birlikləri;
- milli təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsinə səlahiyyətli dövlət orqanları tərəfindən qanuni əsaslarla cəlb edilmiş ayrı-ayrı vətəndaşlar.

Milli təhlükəsizlik sisteminin fəaliyyətinin təşkilinin əsas prinsipləri bunlardır:

- siyasi-diplomatik və normativ-iqtisadi metodların zorakı üsullara nisbətən üstünlüyü;
- beynəlxalq təşkilatlara və ictimai rəyə arxalanma;
- refleksiv reaksiyanın profilaktik və nəzarət tədbirlərinə üstünlük verilməsi;
- görülən tədbirlərin potensial təhlükələrin, təhdidlərin və çağırışların miqyasına və xarakterinə adekvatlığı.

Bununla belə, təhlükəsizlik sistemini müəyyən edən bir sıra çatışmazlıqlar var ki, bu da bir çox müəlliflər tərəfindən qeyd olunur. Rusiyalı tədqiqatçı Y.Kanina hesab edir ki, təhlükəsizlik sahəsində münasibətləri tənzimləyən qanunvericilik təhlükəsizlik sisteminin elementi deyil, təhlükəsizliklə bağlı münasibətlərin tənzimlənməsi aləti rolunu oynayır [7].

D.Nikitinin fikrincə, təhlükəsizlik sistemində fərdin özünün, ictimai və digər birliklərin yeri və rolu, onların hüquqları, vəzifələri və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi prosesində dövlət orqanları ilə qarşılıqlı əlaqə qaydasının dəqiq müəyyən edilməsinə rast gəlinmir [8, s.64].

S.Stepaşina qeyd edir ki, yerli özünüidarəetmə orqanlarının adı çəkilmir, baxmayaraq ki, onlar vətəndaşların fundamental hüquq və azadlıqlarında ifadə olunmuş gündəlik ehtiyaclarına daha yaxın olur və həmçinin onların müdafiəsində iştirak edir [9, s.5].

E.Çekanov milli təhlükəsizlik sisteminə üç komponenti daxil edir: konseptual element, tənzimləyici element, dövlət orqanları, ictimai və digər təşkilatlar və vətəndaşlar [10].

"Milli təhlükəsizlik sistemi" anlayışı iki aspekti ehtiva edir: müvafiq strukturların (sistemin struktur komponentlərinin) mövcudluğu və bu strukturların müəyyən funksiyaları (sistemin funksional komponentləri). R.Aleksandrov milli təhlükəsizlik sisteminin dərk edilməsinə onun funksional, institusional və normativ komponentlərinin dialektik vəhdətini nəzərə almaqla yanaşır və bu sistemli vəhdət milli siyasi və hüquqi sistem üçün xarici və daxili təhlükələrin aradan qaldırılmasına yönəlmişdir [11, s.140].

"Milli təhlükəsizlik sistemi" və "milli təhlükəsizliyin təmin edilməsi sistemi" anlayışları bir çox əsərlərdə və normativ sənədlərdə sinonim kimi istifadə olunur. Bununla belə, A.Proxojev qeyd edir ki, milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin edilməsi sistemini ayırd etmək lazımdır. Birincisi, maraqların və təhdidlərin qarşılıqlı əlaqəsi proseslərini əks etdirən funksional sistem, ikincisi, milli təhlükəsizliyin təmin edilməsi problemlərinin həlli üçün nəzərdə tutulmuş orqanların, qüvvələrin, vasitələrin, müxtəlif təşkilatların təşkilati sistemidir [11, s.140-141].

Milli təhlükəsizlik bir sistem kimi həm daxili, həm də xarici amillərin təsiri altında daim inkişaf edir, onun kəmiyyət və keyfiyyət parametrləri dəyişir. Sistem - bir-biri və ətraf

mühitlə müəyyən əlaqədə olan elementlər məcmusudur. Sistem - təbii olaraq bir-biri ilə əlaqəli olan cisimlərin, hadisələrin, təbiət və cəmiyyət haqqında biliklərin obyektiv vəhdətidir.

Sistem nizamlı şəkildə düzülmüş və bir-biri ilə əlaqəli hissələrin vəhdəti olan bütöv bir şeydir. Sistem işlək bir prosesdir; giriş, proses, çıxış, əks əlaqəyə nəzarət və məhdudiyyət kimi xassələrə malik parametrlər toplusudur. Yuxarıdakı tərifləri təhlil etdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, istənilən sistem aşağıdakı əsas xüsusiyyətlərə malik olmalıdır: komponentlər; əlaqələr (komponentlər arasında qarşılıqlı əlaqənin həyata keçirildiyi bağlantılar); sərhəd; məqsəd; xarici mühit; çıxış, daxil olmaq; qanunlar, qaydalar və fəaliyyət məhdudiyyətləri.

Milli təhlükəsizliyin funksional strukturunun üç fəliyyət növü ayırd edilir: milli təhlükəsizlik sahəsində normativ sənədlərin və qərarların işlənib hazırlanmasından və qəbul edilməsindən ibarət olan normativ-tənzimləyici; qəbul edilmiş qərarların praktiki həyata keçirilməsinə yönəlmiş təşkilati və idarəetmə; dövlətdə və dünyada vəziyyətin qiymətləndirilməsi, milli-dövlət maraqlarının müəyyən edilməsi, təhdidlər sisteminin təhlili, milli təhlükəsizliyin məqsədəuyğunluğunun, mahiyyətinin və məzmununun müəyyən edilməsində elmi-proqnostik fəaliyyət.

Milli təhlükəsizlik sisteminin fəaliyyətinin səmərəliliyi böyük dərəcədə onun subyektlərinin və obyektlərinin düzgün müəyyən edilməsindən asılıdır. Subyektlər və obyektlər milli təhlükəsizlik sisteminin əsas qarşılıqlı əlaqədə olan struktur elementləridir. Milli təhlükəsizliyin təşkili təcrübəsi göstərir ki, milli təhlükəsizlik sisteminin obyektlərinin üç qrupunu ayırmaq daha məqsədəuyğundur. Obyektlərin birinci qrupu dövlətdir. Bu qrupun əsas komponentləri dövlətin konstitusiya quruluşunun, suverenliyi və ərazi bütövlüyünün, onun ərazisində yaşayan millətlərin və etnik qrupların toxunulmazlığı, ölkənin imici, siyasi, iqtisadi, mənəvi və sosial sabitlik, asayişin təmin edilməsi, bərabərhüquqlu və qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın inkişafı və s. hesab edilir. Xalq suverenliyi prinsipinin müdafiəçisi J.-J.Russo yazırdı: “Yalnız güclü dövlət öz vətəndaşlarının azadlığnı təmin edə bilər” [11, s.146].

Cəmiyyəti ikinci qrup obyektlərə daxil etmək mümkündür. Burada demokratiyanın möhkəmləndirilməsinə, mədəniyyətin və mənəviyyatın qorunub saxlanmasına, hüquqi, sosial dövlətin yaradılmasına, ictimai harmoniyaya nail olunmasına və qorunub saxlanmasına diqqət yetirilməlidir.

Üçüncü qrup obyektlərə insanı (şəxsiyyəti) daxil etmək məqsədəuyğundur. O, başqa şəxslərin maraqları ilə üst-üstə düşməyən və ya bir araya sığmayan müxtəlif statuslu mövqelərə, tez-tez bir-birinə zidd olan və hətta əks siyasi və ideoloji maraqlara malikdir. Onun davranışı, aktiv fəaliyyəti təkcə xarici deyil, həm də daxili vəziyyətlərlə (ehtiyaclar, maraqlar, motivlər) müəyyən edilir.

Milli təhlükəsizlik sisteminin strukturunda onun subyektləri - milli təhlükəsizlik problemləri ilə məşğul olmaq üçün nəzərdə tutulmuş və öz funksiyalarını yerinə yetirmək üçün müəyyən qüvvələrə və vasitələrə malik dövlət və onun təsisatları, cəmiyyət (sosial təbəqələr və qruplar), dövlət institutlarının məcmusu, ictimai, dini və digər birliklər, o cümlədən dövlətin müstəqilliyini qoruyan şəxslər xüsusi rol oynayır. Milli təhlükəsizlik subyektlərinin ümumi strukturunda vətəndaş cəmiyyəti (siyasi partiyalar, ictimai və dini birliklər, müxtəlif birliklər, assosiasiyalar və digər qeyri-dövlət institutları) xüsusi yer tutur. Onlar kütləvi informasiya vasitələri, dövlət orqanlarında öz nümayəndələrinin çıxışları və s. vasitəsilə milli təhlükəsizlik səviyyəsinə əhəmiyyətli təsir göstərə bilirlər.

Milli təhlükəsizliyin idarəedilməsi sistemində qərarların qəbul edilməsində idarəetmə orqanları müəyyən bir iyerarxiyaya, səlahiyyət və məsuliyyət bölgüsü "zonlarına" malikdir. Həmin iyerarxiya aşağıdakı qaydadır [11, s.153-154]:

- dövlət-siyasi səviyyə - Silahlı Qüvvələrin Ali Baş Komandanı – ölkə prezidenti, parlament (parlamentin Müdafiə Komitəsi və ya Müdafiə və Təhlükəsizlik Komitəsi);
- inzibati səviyyə - hökumət;
- təşkilati və idarəetmə səviyyəsi - Təhlükəsizlik Şurası və regional və bələdiyyə səviyyələrinin digər idarəetmə orqanları.

İdarəetmə orqanlarının məqsədlərinin həyata keçirilməsi vasitələrinə gəlincə, onlar çox müxtəlifdir. Onlar şərti olaraq dörd əsas qrupla təmsil oluna bilər:

- rasional-nəzəri - konsepsiyalar, nəzəriyyələr, elmi müddəalar, proqramlar, metodlar, formalar, texnikalar;
- emosional və psixoloji - idarəetmə orqanının səlahiyyəti, onun idarəetmə obyektlərinə təsirinin müxtəlif üsulları və formaları;
- direktiv - göstəriş - qanunların və qanunvericilik aktlarının norma və tələbləri, əmrlər, sərəncamlar, sərəncamlar və s.;
- informasiya texnologiyaları - rabitə, kompüter sistemləri, proqram təminatı, media, kino, video, audio avadanlıq və s.

Milli təhlükəsizliyin təmin edilməsi sisteminin aşağıdakı funksiyaları var: proqnostik, məlumatlandırıcı, maarifləndirici, səfərbəredici, həvəsləndirici, planlaşdırma, təşkil, qoruyucu və profilaktik, idarəedici və tənzimləyici, təminedici, bərpaedici, rasionallaşdırma, dünyagörüşü, mədəni. Həmin funksiyaların xüsusiyyətlərini və məqsədini nəzərdən keçirək.

Proqnoz funksiyası dövlətin milli təhlükəsizliyinin mahiyyəti və strukturu və onun əsas elementlərinin keyfiyyət vəziyyəti haqqında biliklərə əsaslanaraq, onların proqnozlaşdırılması yolu ilə dövlətdə siyasi və sosial hadisələrin inkişaf tendensiyalarını müəyyənləşdirir.

İnformasiya funksiyası cəmiyyətin zəruri ictimai-siyasi biliklərini, baxışlarını formalaşdırır, siyasi maarifləndirməni artırır, dövlət təhlükəsizliyinin bütün sahələrində milli təhlükəsizlik orqanlarının ən məqsədəuyğun və səmərəli fəaliyyət formasına nail olunmasına kömək edir.

Tərbiyyə funksiyası insanın vətəndaş, şəxsiyyət, cəmiyyətin tamhüquqlu üzvü kimi formalaşmasına imkan verir.

Səfərbərlik funksiyası həm fərdin, həm də bütövlükdə cəmiyyətin hiss və iradəsinə məqsədyönlü təsir göstərmək qabiliyyətini əks etdirən motivasiya mexanizmi yaratmaqla obyektlərin səmərəli fəaliyyətinin həyata keçirilməsini təmin edir.

Həvəsləndirmə funksiyasının həyata keçirilməsinin son nəticəsi subyektləri milli təhlükəsizliyin təmin edilməsi üzrə funksional vəzifələrini vicdanla yerinə yetirməyə həvəsləndirməkdir.

Təşkilati funksiya onun həyata keçirilməsi nəticəsində idarəetmə orqanlarının mütəşəkkilliyinə və birliyinə, onların ölkənin milli təhlükəsizliyinin təmin edilməsinin əsası kimi çıxış etmək qabiliyyətinə vurğu edir.

Qoruyucu və profilaktik funksiya dövlət orqanlarının mənəvi-psixoloji vəziyyətində neqativ halların qarşısının alınması və aradan qaldırılması, neqativ informasiyaya və psixoloji təsirlərə qarşı fəal mübarizənin, milli təhlükəsizlik qüvvələrinin mühafizəsinin ictimai-siyasi, pedaqoji, psixoloji, təşkilati mexanizmlərini nəzərdə tutur və həyata keçirir.

Planlaşdırma funksiyası təhlükəsizlik obyektlərinə təsir prosesində fəaliyyətin ən rasional variantını tapmaqdan ötrü məqsəd və vasitələri birləşdirməyin effektiv yolunu seçir.

Yardımçı funksiya milli təhlükəsizlik qüvvələrinin lazımi yüksək effektiv mühafizə vasitələri ilə vaxtında və keyfiyyətli təminatını təmin edir.

Bərpa funksiyası milli təhlükəsizlik sisteminin komponentlərinin bərpasına yönəlmiş tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Rasionallaşdırma funksiyası milli təhlükəsizliyi təmin edən qüvvələrdə yaranan daxili ziddiyyətləri və münaqişələri rasionallaşdırır, onların qarşısını alır və ya həll edir.

Dünyagörüşü funksiyası idarəetmə orqanlarında, milli təhlükəsizliyi təmin edən qüvvələrin milli təhlükəsizliyin təmin edilməsi üzrə dövlət siyasətinin həyata keçirilməsinin inkişafına nail olmasına kömək edir.

Mədəniyyət funksiyası isə milli təhlükəsizlik orqanlarının, təhlükəsizlik obyektlərinin mədəni tələbatının ödənilməsi, onları dünya mədəniyyətinin nailiyyətləri ilə tanış etmək, yaradıcılıqda özünü inkişaf etdirmək imkanı yaratmaq üçün zəruri şəraitin yaradılmasına yönəlmişdir.

**Nəticə.**

Milli təhlükəsizlik sistemi hər bir ölkənin öz milli inkişaf xüsusiyyətlərinə uyğun qurulsa da, onun bir sıra elementləri – sistemin vəzifə və tapşırıqları, qüvvə və vasitələri dəyişməz qalır. Bu sistemin təsirli fəaliyyəti ölkənin inkişafına, müasir reallıqlara adaptiv qabiliyyətinin yüksək olmasına, milli prioritetlərin düzgün qiymətləndirilməsi və onun təmin olunmasında bəşəri və milli maraqların rasional harmoniyasına istinad edir.

## İstifadə edilmiş ədəbiyyat:


1. Основы национальной безопасности. Учебное пособие / М. Ф. Гацко. Издание Ногинского филиала РАНХ и ГС. - Ногинск: - 2014. - 130 с.
2. Концепция национальной безопасности Республики Молдова. URL: http://constitutions.ru/archives /5309.
3. Закон Латвийской республики о национальной безопасности. URL: http://zakoni.ves.lv/NacBezop.htm.
4. Концепция национальной безопасности республики Беларусь . URL: http://www.mod.mil.by/koncep.html.
5. Концепция национальной безопасности Кыргызской Республики. URL:http://www.vesti.kg/index.php?option=com_k2&view=item&id=13270&Itemid=1176
6. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu.
7. Канина Ю.С. Механизм обеспечения прав человека в системе национальной безопасности // Вестник ТГУ . 2008. Вып. 4 (60).
8. Никитин Д.А. Конституционно-правовые основы безопасности личности в Российской Федерации : дис . ... канд. юрид. наук. Самара , 2005. С . 64.
9. Проблемы законодательного обеспечения национальной безопасности Российской Федерации / под общ. ред . С.В.Степашина. М ., 2003. С . 5.
10. Чеканов В. Е. Некоторые проблемы государственного управления системой обеспечения национальной безопасности Российской Федерации в со-временных условиях и пути их разрешения // Право и безопасность . 2004. № 2 (11).
11. Зеленков, М.Ю. Теоретико-методологические проблемы теории национальной безопасности Российской Федерации: монография / М. Ю. Зеленков . — М. : Юридический институт МИИТа, 2013. — 196 с.


**Intiqam Piriyev**

## MİLLİ TƏHLÜKƏSİZLİK SİSTEMİ: ANLAYIŞI, STRUKTURU VƏ FUNKSİYALARI

### Xülasə

Məqalə milli təhlükəsizlik sisteminin nəzəri-konseptual əsaslarının öyrənilməsindən bəhs edir. Bu məqsədlə məqalədə milli təhlükəsizlik sisteminin anlayışı, struktur elementlər, obyekt və subyektləri, təşkilinin əsas prinsipləri və funksiyaları təhlil edilir.

Müəllif müqayisəli təhlil metodunun köməyi ilə prostsovet ölkələrinin milli təhlükəsizlik sistemləri ilə Azərbaycan Respublikasının analoji sistemi arasında fərqləri, ümumiyyətlə bu sistemin çatışmayan cəhətlərini və “milli təhlükəsizliyin təmin edilməsi sistemi” ilə “milli təhlükəsizlik sistemi” arasında fəqrqləri müəyyənləşdirməyə çalışır.

**Интигам Пириев**

**СИСТЕМА НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ: ПОНЯТИЕ, СТРУКТУРА И ФУНКЦИИ**

**Резюме**

Статья посвящена исследованию теоретических и концептуальных основ системы национальной безопасности. Для этого в статье анализируются понятие системы национальной безопасности, структурные элементы, объекты и субъекты, основные принципы и функции ее организации. С помощью метода сравнительного анализа автор пытается определить различия между системами национальной безопасности постсоветских стран и аналогичной системой Азербайджанской Республики, недостатки этой системы в целом, а также различия между «система обеспечения национальной безопасности» и «система национальной безопасности».

**Intigam Piriyev**

**NATIONAL SECURITY SYSTEM: CONCEPT, STRUCTURE AND FUNCTIONS**

**Summary**

The article deals with the study of the theoretical and conceptual foundations of the national security system. For this purpose, the article analyzes the concept of the national security system, structural elements, objects and subjects, the main principles and functions of its organization. With the help of the comparative analysis method, the author tries to determine the differences between the national security systems of the post-Soviet countries and the similar system of the Republic of Azerbaijan, the shortcomings of this system in general, and the differences between the "system of ensuring national security" and the "national security system".

# ELEKTRON SƏSVERMƏ XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİNDƏ

***İradə Məlikzadə, magistrant***
***Bakı Dövlət Universiteti***
*mlikzadirad1@gmail.com*

***Açar sözlər***: elektron seçki, elektron səsvermə, demokratiya,elektorat, seçki sistemi

***Ключевые слова***: электронные выборы, электронное голосование, демократия,электорат, избирательная система

***Keywords***: electronic election, electronic voting, democracy, electorate, electoral system

Hazırda cəmiyyətin internet texnologiyalarına münasibəti dəyişib. İnternet texnologiyasının nümunələrindən biri də elektron səsvermə üsuldur. Elektron səsvermə seçki prosesinin tamlığının, şəffaflığının və rahatlığının təmin olunmasına imkan verir. Elektron səsvermə demokratiyanın mühüm komponenti hesab olunur. Elektron demokratiyanın formalaşdırılması və inkişaf etdirilməsi üçün səmərəli elektron səsvermə mexanizmlərinin işlənilməsi olduqca vacibdir. Elektron səsvermə dövlət orqanlarının, siyasi partiyaların, seçicilərin diqqətini çəkir və demokratik prinsiplərin təmin olunmasında güclü vasitə hesab olunur. Bu səsvermə prosesi əslində uzaqdan səsvermə olub faktiki olaraq vətəndaşların iradəsini ifadə edir və gənclərin fəallığını artırır (4, s.56-61).

Dünyada ilk elektron səsvermə 2000-ci ildə ABŞ-da keçirilib.2003-cü ildə Fransa Daxili İşlər Nazirliyi tərəfindən kağızsız elektron səsvermə sistemlərinin sertifikatlaşdırılması üçün texniki tələblərin siyahısını ehtiva edən sənəd qəbul edildi. İsveçrədə isə elektron səsvermə 2002-ci ildən tətbiq olunur. Bu ölkədə şəxsiyyət vəsiqəsi ilə internetdən anonim səsvermə prosesi həyata keçirilir. Seçici fəallığının artması ilə əlaqədar İsveçrəlilərin 90%-i yalnız elektron səsvermədə iştirak etmək istədiklərini bildirmişlər. Estoniyada elektron səsvermə internetə çıxışın “elan edilməsindən” sonra mümkün olub. Səsvermədə iştirak etmək üçün hər bir seçici internetə və şəxsiyyət vəsiqəsindən məlumatları oxumaq üçün kompüter cihazına sahib olmalıdır.

Elektron seçki sistemi prosesi 2 əsas hissəyə ayrılır:

1,Yerində səsvermə. Yəni səslərin seçki prosesi keçirilən məkanda keçirilməsi nəzərdə tutulur.

2.Səsvermənin seçki prosesi keçirilən məkandan kənarda internet texnologiyaları vasitəsilə keçirilməsi.

Elektron seçki sistemində müəyyən üsullardan da istifadə olunur :

1. Pano kart sistemi.Seçici öz seçimini göstərərək kartı deşir.
2. Optik sistem. Bu sistem işarə tanıyır və qiyməti bahadır.
3. Xüsusi təchizatlı sistem. Sandıq elektron formaya gətirilir və klaviatura olmur. Sadə formada 1-2 düymə basılaraq iş həll olmuş olur.
4. İnternet texnologiyasına əsaslanan sistem. Seçki prosesi onlayn rejimdə baş tutur.

Elektron səsvermənin bir sıra üstünlükləri var:

1. Seçicinin yerləşdiyi yerdən asılı olmayaraq səs vermək hüququnun olması.Seçki günü səsverməyə gələ bilməyən seçicilər seçki məntəqəsi və qiyabi səsvermə yolu ilə səs verir

2.Elektron səsvermədən istifadə edərkən seçkilərin keçirilməsi üçün maliyyə vəsaitinə qənaət olunur

3. Seçkilər zamanı vaxta qənaət

4. Seçici aktivliyi yüksək olur

5. Səslər sayılan zaman xətalar aradan qalxır

6. Seçki sisteminə etibar artır
7.Seçici yalnız bir namizədə səs verə bilir
8.Etibarsız səslər azaldılır
9.Fiziki imkanı və vaxtı məhdud olan seçicilər daha asan yolla səs verə bilirlər
10.Qanun pozuntulari azaldılır
11.Daha az insan zəhmətindən istifadə olunur
12.Nəticələr daha tez bilinir

Bütün bu müsbət cəhətlərlə yanaşı, elektron səsvermənin bir sıra mənfi cəhətləri də var (1, s. 94):

1. "World Wide Web" kanalları vasitəsilə məlumat ötürmək sistemləri həssas olur və haker hücumları baxımından təhlükəlidir (6, s.31-32).

2. Elektron səsvermənin keçirilməsi prosedurunu tənzimləyən normativ-hüquqi bazanın olmaması səbəbindən səsvermənin keçirilməsinə nəzarət etmək çətindir.

3. Rəqəmsal imza və barmaq izlərindən istifadə etməklə seçicilərin elektron autentifikasiyası və ya fərdi parol kodu olan smart kartlar səs verən konkret vətəndaşın şəxsiyyətini oxumaq çətinlik yaradır (5 , s.264).

Dünya ölkələri arasında müvafiq seçki qanunlarında müxtəlif fərqliliklərə rast gəlmək olar. Bu əslində ölkələr arasındakı demokratiyanın tarixi və adət-ənənələrlə bağlı olan fərqliliklərindən qaynaqlanır.

Elektron seçkidə səslər düzgün protokollaşmalı,seçici yalnız bir dəfə səs verməli və gizlilik prinsipi qorunmalıdır. Sistemin işlək halda olması zəruridir (2, s. 360). 2002-ci ildə Florida, 2003-cü ildə isə Virciniya ştatında seçkilərdə modem xəttində baş verən problemlər, kənardan qeyri-leqal müdaxilələr, səslərin satın alınması, kütləvi saxtakarlıq və s . hallar müşahidə olunmuşdur (3, s. 106).

ABŞ-da, Avstraliyada, Kanadada və bir çox bu kimi ölkələrdə elektron seçki ərazi üzrə keçirildiyi halda Venesuela, Hindistan və Braziliya kimi ölkələrdə isə bütün ölkə səviyyəsində keçirilir.

Braziliya elektron seçkidən istifadə edən ilk dövlət olub. Burada 1996-cı ildən başlayaraq elektron seçkidən istifadə edilir və hər il daha təkmilləşmiş üsullar tətbiq olunur.

Hindistanda elektron səsvermə zamanı maşınlarından istifadə edilir. Seçki sistemində elektron səsvermə maşınlarının sınaq istifadəsinə 1990-cı ildən sonra başlanıldı və 1998-ci ildən bütün ölkə üzrə tətbiq edildi.Hindistanda tətbiq edilən bu qurğular iki hissədən ibarətdir: səsin qeyd hissəsi və elektron səslərin toplandığı hissə.

Venesuelada elektron seçkilərdə "touch" monitorlarından istifadə edilir.Bir şəxsin bir dəfədən artıq səs verməsinin qarşısını almaq üçün barmaq izləri alınır.

Elektron səsvermədə gizli səsvermə hüququnan pozulması siyasi qalmaqala və sosial iğtişaşların baş verməsinə səbəb ola bilər. Bu baxımdan elektron səsvermədə fərdi məlumatlar qorunmalidir.Elektron səsvermə sahəsində mövcud təcrübə analiz edilərək belə nəticəyə gəlmək olar ki, lokal səviyyədə elektron səsvermə sisteminin təhlükəsizliyinə olan təhdidlər qiymətləndirilməli və empirik tədqiqatlara üstünlük verilməlidir.

Beləliklə, dünya təcrübəsi göstərir ki, elektron səsvermənin tətbiqi və səmərəli istifadəsi üçün yaranan texniki və hüquqi problemləri aradan qaldırmaq üçün dövlətin, siyasi və ictimai təşkilatların, ekspert birliyinin uzun və əlaqələndirilmiş işi tələb olunur.

## ƏDƏBİYYAT

1. Заколдаев Д.А., Ямщиков Р.В., Ямщикова Н.В. Технология блокчейн в России: достижения и проблемы // Вестник Московского государственного областного университета (электронный журнал). 2018. № 2. С. 93–107.

2. Грачев М.Н. Электронное голосование «за» и «против» // Известия Тульского государственного университета. 2011. № 1. С. 360–366.

3. Титовская А.В. Электронное тайное голосование в России и за рубежом: сравнительно-правовой анализ // Юридическая наука. 2012. № 4. С. 106–108

4. Челишова: «От электронного управления к электронному государству». М., 2019. С. 56-61

5. Ярыгин Г.О. Интернет-голосование и перспективы его внедрения для граждан России, находящихся за рубежом // Азимут научных исследований: экономика и управление. 2016. Т. 5. № 3 (6). С. 261–268.

6. Wang King-Hang K. Mondal Subrota, Chan Ki, Xie Xiaoheng, "A Review of Contemporary E-voting: Requirements, Technology, Systems and Usability", Data Science and Pattern Recognition, Vol. 1, Iss. 1, (2017): 31-32.

## ELEKTRON SƏSVERME: XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİNDƏ

**İradə Məlikzadə, magistrant**

**Xülasə**

XX əsrin sonlarında başlayan elektron səsvermə sistemlərinin inkişafı informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədardır. Vətəndaşların internetə çıxışı və demokratiyanın daha da möhkəmlənməsi interaktiv seçkilərin inkişafına səbəb oldu. Bu məqalədə elektron səsvermənin növləri, eləcə də elektron səsvermə prosesinin üstünlükləri və çatışmazlıqları xarici ölkələrin təcrübəsində müqayisəli təhlil əsasında nəzərdən keçirilmişdir.

## ЭЛЕКТРОННОЕ ГОЛОСОВАНИЕ: ОПЫТ ЗАРУБЕЖНЫХ СТРАН

**Маликзаде Ирада**

**Резюме**

Развитие систем электронного голосования, начавшееся в конце XX века, связано с бурным формированием информационных и коммуникационных технологий. Доступ граждан к Интернету и укрепление демократии привели к развитию интерактивных выборов. В данной статье на основе сравнительного анализа опыта зарубежных стран были рассмотрены виды электронного голосования, а также преимущества и недостатки процесса электронного голосования.

## ELECTRONIC VOTING: IN THE EXPERIENCE OF FOREIGN COUNTRIES

**Irada Malikzadeh**

**Summary**

The development of electronic voting systems, which began at the end of the 20th century, is related to the rapid development of information and communication technologies. Citizens' access to the Internet and the strengthening of democracy led to the development of interactive elections. In this article, the types of electronic voting, as well as the advantages and disadvantages of the electronic voting process, were reviewed based on a comparative analysis of the experience of foreign countries.

# PUBLIC POLICY AND CIVIL SOCIETY

***Məmmədli Əhməd Məhəmməd oğlu, magistrant***
***Bakı Dövlət Universiteti***
***mammadlihmd7@gmail.com***

***Key words:*** civil society, public policy, democracy, civil society organizations, public awareness, decision-making, social diversity, democratic processes

***Ключевые слова:*** гражданское общество, государственная политика, демократия, организации гражданского общества, общественное сознание, принятие решений, социальное разнообразие, демократические процессы

***Açar sözlər:*** vətəndaş cəmiyyəti, ictimai siyasət, demokratiya, vətəndaş cəmiyyəti təşkilatları, ictimai məlumatlılıq, qərar qəbuletmə, sosial müxtəliflik, demokratik proseslər

As we know, Civil society can be understood as the "third sector" of society, distinct from government and business. Civil society plays a crucial role in shaping public policy as the "third sector" of society. Public policy and advocacy represent the pivotal role that civil society organizations play in contributing to societal change and development. This interaction is complex and multifaceted, encompassing the following elements: Lobbying activities, Research and Information provision, Raising Community Awareness, Legal Battles and Legal processes, Collaboration and partnerships, Education and Capacity building, Critical Analysis and Critique [4, p.9].

**Lobbying activities** conducted by Civil Society Organizations (CSOs) constitute a dynamic and influential aspect of the policy-making landscape. CSOs, as crucial stakeholders in societal development, actively engage with decision-makers and policymakers to shape and influence public policies. This involvement is marked by a proactive approach that extends beyond mere observation. Lobbying by CSOs takes on diverse forms, including persuasive communication with decision-makers and the presentation of well-researched proposals. By doing so, CSOs contribute evidence-based insights to the policy dialogue, striving to align legislative frameworks with societal needs. In essence, CSOs actively contribute to the betterment of society by influencing policies that reflect the diverse needs and aspirations of public.

**Research and Information Provision:** Information a potent instrument, forms the cornerstone of effective decision-making. CSOs wield this tool with precision, playing a pivotal role in shaping policies through the provision of robust data and research. This active involvement contributes significantly to decision-making processes, ensuring informed choices that resonate with societal needs. CSOs act as information hubs, supplying decision-makers with credible and well-researched data. This not only enhances the quality of decisions but also fortifies the academic and scientific underpinnings for policy changes. By presenting solid evidence, CSOs create a foundation upon which policymakers can build sound and effective strategies. In essence, the symbiotic relationship between CSOs and decision-making processes underscores the importance of information in governance. Through their dedication to providing reliable data, CSOs become catalysts for positive change, fostering a decision-making environment grounded in knowledge and geared towards addressing the dynamic challenges of the society.

**Raising Community Awareness: Shaping Minds for Change**

CSOs have a significant role in enlightening society on pertinent issues. Their goal is to create awareness that not only informs but also molds public opinion, paving the way for support in favor of policy changes. CSOs actively engage in initiatives bring attention to specific concerns, ensuring that communities are well-informed about the challenges at

hand. By doing so, they aim to ingnite a collective understanding and empathy with in society, fostering a shared sense of responsibility. Through various means such as educational campaigns and outreach programs, CSOs disseminate information that transcends barriers and resonates with diverse audiences. This concerted effort in raising awareness serves as a catalyst for societal transformation, as an informed and engaged community becomes a powerful force advocating for policies that address the pressing needs of the day.

**Legal Battles and Legal Processes: Advocacy Through the Courts**

Civil Society Organizations (CSOs) harness the power of the law to instigate policy changes. Engaging in legal battles and lawsuits, they scrutinize the legality of prevailing policies, paving the way for potential modifications. CSOs act as champions of justice, using the legal system as a tool to challenge policies that may be deemed unjust or outdated. Through strategic litigation, they seek to bring about legal precedents that can influence broader societal change. These legal processes are not just about contesting existing norms but also about advocating for a more equitable and just framework. By navigating the legal landscape, CSOs contribute to shaping a legal environment that aligns with the evolving needs and values of society. Legal advocacy becomes a dynamic force for change, as CSOs leverage the courts to address systemic issues and champion the cause of justice in the pursuit of improved and fairer policies.

**Collaboration and Partnerships: Uniting Forces for Change**

Civil Society Organizations with shared goals recognize the strength in unity, fostering collaboration and partnerships to amplify their impact on policy changes. By pooling resources and expertise, these alliances become catalysts for positive transformations.

Partnerships enable CSOs to address complex challenges more effectively. Through shared knowledge and coordinated efforts, they create a collective force that resonates with decision-makers and society at large. This collaborative approach not only enhances the scope of influence but also promotes consensus-building, ensuring a more inclusive and comprehensive perspective in the policy-making process. In essence, the synergy of collaborative endeavors allows CSOs to navigate the intricacies of societal issues with greater efficacy. Together, they become influential advocates for change, working towards policies that reflect a diverse array of voices and contribute to the betterment of the communities they serve [3, p.72].

**Education and Capacity Building; Empowering Change through Knowledge**

Civil Society Organizations focus extends beyond raising awareness to actively engaging in enlightening communities about policy processes. CSOs act as educational conduits, providing valuable insights into the intricacies of policy development. Simultaneously, they empower their members by imparting knowledge on navigating these processes, fostering a deeper understanding of how policies impact communities. Through workshops, seminars, and international campaigns, CSOs contribute to the enhancement of societal knowledge. By building the capacities of their members, they create a cadre of informed advocates equipped to actively participate in shaping policies. This dual commitment to education and capacity building reflects a dedication to fostering a society that not only understands policy dynamics but actively contributes to positive and informed decision-making processes.

**Critical Analysis and Critique: Paving the Way for Improved Policy**

By scrutinizing policies with a discerning eye, CSOs contribute to the development of better and fairer frameworks. Through comprehensive evaluations, CSOs identify strengths, weaknesses, and potential shortcomings in current policies. This critical scrutiny goes beyond pointing out flaws; it serves as a constructive catalyst for change. CSOs also offer alternative solutions, encouraging policymakers to consider more effective and equitable

approaches. This analytical engagement promotes a dynamic dialogue between CSOs and decision-makers, fostering an environment where policies are continuously refined to better serve the needs of society. The commitment of CSOs to critical analysis and constructive critique exemplifies their dedication to the ongoing enhancement of governance and the pursuit of policies that truly reflect the interests and well-being of the communities they present

## REFERENCES

1. Fred Powell. The Politics of Civil Society Big Society and Small Government. 2013, 224 p.
2. https://en.wikipedia.org/wiki/Civil_society
3. I.Natil. Public Diplomacy and Civil Society Organisations. 2023, 122 p.
4. Seliqman A. Vətəndaş cəmiyyəti ideyası. Bakı: Nurlar, 2005, 240 s.
5. Коллектив авторов. Сотрудничество в публичной политике и управлении. М.: 2018. 448 с.

## PUBLIC POLICY AND CIVIL SOCIETY

**Məmmədli Əhməd**

**Resume**

This article explores how Civil Society Organizations (CSOs) impact public policy through lobbying, research, community awareness, legal actions, collaboration, education, and critical analysis.

**Məmmədli Əhməd**

## İCTİMAİ SİYASƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

**Xülasə**

Bu məqalə Vətəndaş Cəmiyyəti Təşkilatlarının (VCT) lobbiçilik, araşdırma, icma məlumatlılığı, hüquqi tədbirlər, əməkdaşlıq, təhsil və tənqidi təhlil vasitəsilə dövlət siyasətinə necə təsir etdiyini araşdırır.

**Маммедли Ахмед**

## ПУБЛИЧНАЯ ПОЛИТИКА И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО

**Резюме**

В этой статье рассматривается, как организации гражданского общества (ОГО) влияют на государственную политику посредством лоббирования, исследований, осведомленности сообщества, судебных исков, сотрудничества, образования и критического анализа.

# MEDİA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

***s.e.ü.f.d. İsmayılov Məşdi Cəlal oğlu***
***Bakı Dövlət Universiteti***
***mismayilov@gmail.com***
***Məmmədli Əhməd Məhəmməd oğlu, magistrant***
***Bakı Dövlət Universiteti***
*mammadlihmd7@gmail.com*

***Açar sözlər*:** media, vətəndaş cəmiyyəti, insan hüquqları, azad media, ictimaiyyətlə əlaqələr, çağdaş media.

***Ключевые слова*:** СМИ, гражданское общество, права человека, свободные СМИ, связи с общественностью, современные СМИ.

***Key words*:** media, civil society, human rights, free media, public relations, modern media

Ənənəvi media tarixən ictimai rəyin formalaşmasında əhəmiyyətli rol oynayıb. Medianın vətəndaş cəmiyyətinə təsiri kommunikasiya vasitələrinin inkişafı ilə paralel olaraq meydana gəldi. Ünsiyyət vasitələrindəki təkamül cəmiyyətlərin düşüncə tərzini formalaşdırır və informasiya axınına təsir göstərir. Mətbuat, radio, televiziya və internet kimi platformalar cəmiyyəti məlumatlandırmaq və bir araya gətirmək potensialına malikdir. Media informasiyaya çıxışı asanlaşdırmaqla sosial dəyişikliklərə öz töhfəsini vermişdir. Xüsusilə, XX əsrin ikinci yarısından etibarən media demokratik proseslərə öz töhfəsini verərək, ictimai hadisələrə qarşı həssaslıq yaradıb. Lakin medianın vətəndaş cəmiyyəyinə təsiri yalnız müsbət təsirlə xarakterizə olunmur. Təbliğat, senzura və yanlış məlumatların istifadəsi neqativ təcrübələr kimi vətəndaş cəmiyyətinə təsir göstərə bilər.

Medianınn əlçatanlığının artması, bu baxımdan insanların "kirli informasiya"nın təsirinə məruz qalması ehtimalını da olduqca artırmaqdadır. Kirli informasiyanın aldadıcı təsirindən yayınmaq üçün insanlarda fərdi analiz bacarıqlarının, o cümlədən, dövlət orqanlarında isə informasiyaya nəzarət etmək bacarığının olması mühüm amildir. İnformasiyaya nəzarət etmək bacarığı cəmiyyətə böyük təsir göstərmək potensialına malikdir, bu baxımdan, media orqanlarının sahib olduğu güc, cəmiyyətin qavrayışını formalaşdırmaq qabiliyyəti ilə yanaşı onlar üçün kifayət qədər ciddi məsuliyyətlər yaradır [1, s.7].

Ümumilikdə, medianın ictimai rəyə təsiri olduqca mühüm amilləri özündə birləşdirən mürəkkəb məsələdir. Medianın ictimai rəyə təsiri mətbuat azadlığı, senzura, ictimai yaddaşın formalaşması, siyasi iştirak və hadisələrə reaksiya kimi müxtəlif elementlərlə formalaşır.

Mətbuat azadlığı demokratik cəmiyyətin təməl daşlarından biridir. Media müstəqilliyi cəmiyyətə müxtəlif perspektivlərə çıxış imkanı verir və fikir azadlığını dəstəkləyir. Bununla belə, bu azadlıqlardan sui-istifadə ictimai rəyi manipulyasiya edə və eləcə də etibarlı informasiya axınına mane ola bilər. Senzura medianın məzmununa qoyulan məhdudiyyətlərdən yaranan təsir mexanizmidir. Hökumətlər və ya digər güc mərkəzləri müəyyən mövzuların müzakirəsinə və ya müəyyən fikirlərin ifadə olunmasına mane olmaqla informasiya axınına nəzarət etməyə cəhd edə bilərlər. Bu isə cəmiyyətin müxtəlif faktları öyrənmək və müxtəlif perspektivlərdən xəbərdar olmaq bacarıqlarını zəiflədə bilər.

Sosial yaddaşın yaradılması medianın hadisələri şərh etmək və anlamaq prosesinə töhfə verdiyi sahəni əhatə edir. Ünsiyyət vasitəsilə məlumat mübadiləsi cəmiyyətə öz keçmişini anlamağa və mədəni irsini qorumağa kömək edir. Media bu funksiyası ilə cəmiyyətin kimliyinin və dəyərlərinin formalaşdırılmasında iştirak edə bilər. Siyasi iştirak

funksiyası medianın cəmiyyətə təsir etmək və ya siyasi proseslərdə iştirak etməyə təşviq etmək qabiliyyəti ilə əlaqədardır. Media vasitəsilə verilən məlumatlar cəmiyyətin siyasi qərarlara təsirini müəyyən edə, cəmiyyətin siyasi şüurunda dərin izlər qoya bilər [4, s. 154].

Hadisələrə reaksiya funksiyası medianın hadisələri necə təqdim etməsi və şərh etməsi ilə ictimai əhval-ruhiyyəyə təsir göstərir. Medianın diqqəti konkret hadisəyə yönəltməsi və ya konkret nöqteyi-nəzəri vurğulaması cəmiyyətin hadisəyə necə münasibət göstərməsinə təsir edə bilər. Nəticədə ənənəvi medianın ictimai tarixə təsiri geniş spektri əhatə edir. Bu təsirin dərk edilməsi medianın gücünü və məsuliyyətini qiymətləndirmək, cəmiyyətin şüurunu formalaşdıran amilləri anlamaq üçün vacibdir.

Bu gün isə medianın inkişafı, xüsusilə, sosial medianın inkişafı vətəndaş cəmiyyəti üçün yeni perspektivlər yaratmaqdadır. Sosial medianın yüksəlişi ünsiyyət qurmaq baxımından inqilabi dəyişiklik yaratdı. Müxtəlif sosial media platformaları fərdlərə qlobal miqyasda öz səslərini eşitdirmək və fikirlərini bölüşmək imkanı verərək güc balansını dəyişib. Sosial medianın ən fərqli xüsusiyyəti fərdləri coğrafi sərhədlər boyunca bir araya gətirmək qabiliyyətidir. İnsanlar müxtəlif platformalardan istifadə edərək müxtəlif mədəniyyətlərdən olan insanlarla ünsiyyət qura və ümumi maraqları ətrafında birləşə bilərlər. Bu hal isə özlüyündə vətəndaş cəmiyyətini qlobal səviyyədə birləşdirən amil kimi xarakterizə olunur. Sosial medianın yüksəlişi fərdlər arasında ünsiyyəti demokratikləşdirməklə yanaşı, informasiyaya çıxış imkanlarını da demokratikləşdirib müxtəlif səsləri eşitmək imkanı verib. Bununla belə, bu platformalarda intensiv informasiya axını tənqid etməyə və süzgəcdən keçirməyə ehtiyacı artıraraq həqiqətlə yalanın qarışmasına səbəb olmuşdur. Sosial media vətəndaş cəmiyyətini formalaşdırmaq potensialına malik olmaqla yanaşı müxtəlif media vasitələrinin məsuliyyətli və şüurlu istifadə edilməsini tələb edir [3, s. 123].

Faktlar və medianın inkişaf tendensiyası onu deməyə əsas verir ki, media və vətəndaş cəmiyyəti münasibətləri gələcəkdə daha da əhəmiyyət kəsb edəcək bir dinamika kimi önə çıxır. Müxtəlif texnoloji yeniliklər bu münasibətləri daha qarışıq və interaktiv etsə də yeni imkanlarla bərabər problemlərin də ortaya çıxacağı istisna edilmir. Gələcəkdə daha çox rəqəmsallaşma və qloballaşma ilə medianın vətəndaş cəmiyyətinə təsiri daha da arta bilər. Sosial medianın gücü artdıqca, fərdlər sosial hadisələrə anında reaksiya verə və səslərini eşitdirə biləcəkləri bir platforma tapmaq üstünlüyünə sahib olacaqlar [2, s. 216]. Bununla belə, sürətli ünsiyyət dezinformasiya və manipulyasiyaların yayılması riskini də gətirəcək. İnformasiyanın dəqiqliyini qorumaq və sosial hadisələrə obyektiv baxışı təmin etmək üçün medianın məsuliyyəti daha da vacib əhəmiyyət kəsb edəcək.

Medianın vətəndaş cəmiyyəyinə təsiri ilə bağlı gələcək perspektivlər təkcə müxtəlif texnoloji inkişaflarla məhdudlaşmır. Eyni zamanda media orqanlarının müstəqilliyi, ifadə azadlığı və müxtəlifliyi kimi fundamental dəyərlərin qorunması da mühüm rol oynayacaq. Vətəndaş cəmiyyətini gücləndirmək, demokratik proseslərə töhfə vermək və sosial problemlərə diqqəti artırmaq üçün medianın bu əsas dəyərləri qorumağı vacibdir.

## ƏDƏBİYYAT


1. Ece Zeren Aydınoğlu. Medya-Sivil Toplum ve Demokrasi. 15 s.
2. L.Dencik. Media and Global Civil Society. 2012, 205 p.
3. M. Bakardjieva; S. Bengtsson; G. Bolin;K. Engelbrekt.Digital Media and the Dynamics of Civil Society. 2021, 276 p.
4. Seliqman A. Vətəndaş cəmiyyəti ideyası. Bakı, Nurlar, 2005, 240 s.
5. Чевозерова Г. В.Гражданское общество и средства массовой информации. 2017, 152 c.

# MEDİA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

**İsmayılov Məşdi**
**Məmmədli Əhməd**

**Xülasə**

Məqalə medianın vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqələrini və vətəndaş cəmiyyəti üzərindəki təsirlərini araşdırmağı hədəfləyir. Ənənəvi və sosial medianın rolunu araşdıraraq vətəndaş cəmiyyəti ilə dinamik əlaqələrini daha dərindən tədqiq etmək məqsədi daşıyır.

**Ismayilov Mashdi**
**Mammadli Ahmed**

**MEDIA AND CIVIL SOCIETY**

**Resume**

The article focuses on exploring the interactions and impacts of media on civil society. It aims to delve deeper into this dynamic relationship by examining the role of traditional and social media.

**Исмаилов Машди**
**Маммедли Ахмед**

**СМИ И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО**

**Резюме**

Статья посвящена исследованию взаимодействия и влияния СМИ на гражданское общество. Целью исследования является более глубокое изучение этих динамичных отношений путем изучения роли традиционных и социальных сетей.

# MÜASİR HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNDƏ PİLOTSUZ DƏNİZ VASİTƏLƏRİNİN İSTİFADƏ KONSEPTİ

***Turan Əhmədov. kapitan-leytenant***
***Milli Müdafiə Universiteti Hərbi İdarəetmə İnstitutu***
*turanahmedov92@gmail.com*

***Açar sözlər***: Pilotsuz Dəniz Vasitələri, Dəniz Müharibəsi, Pilotsuz Dəniz Vasitələrinin İstifadə Konsepti.

***Key words*:** Unmanned Naval Vehicles, Naval Warfare, Concept of Use of Unmanned Naval Vehicles.

***Ключевые слова*:** Беспилотные военно-морские корабли, военно-морская война, концепция использования беспилотных военно-морских кораблей.

**Giriş**

Rusiya-Ukrayna müharibəsinin dəniz mərhələsi zamanı Rusiya Hərbi Dəniz Qüvvələri döyüş vasitələri ilə tez bir zamanda dənizdə nəzarəti ələ alaraq Ukraynanı dənizdən blokadaya saldı. Hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin imkanlarını müqayisə edərkən qeyd etmək olar ki, Rusiya Hərbi Dəniz Qüvvələri Mövcud imkanlarına görə Ukrayna hərbi dəniz qüvvələrini müqayisə olunmaz dərəcədə üstələyir. Lakin Ukraniya Pilotsuz Uçuş Aparatları, Pilotsuz Dəniz Vasitələri və Sahi batareyalarından istifadə etməklə Rusiya Hərbi Dəniz Qüvvələrinin döyüş vasitələrinə qarşı ciddi asimetrik təhdid yaratmışdır. Rusiyanın Flaqman gəmisi olan RFS Moskva da daxil olmaqla bəzi digər suüstü gəmilərinin batması və Sevastopol Hərbi Dəniz Bazasına qarşı Pilotsuz Dəniz Vasitələri ilə həyata keçirilən asimmetrik əməliyyatdan da göründüyü kimi, müasir dəniz müharibəsinin fərqli bir ölçüyə çevrildiyi açıq şəkildə görünür.

Bu gün bir çox ölkə xüsusilə ABŞ Pilotsuz Uçuş Aparatları və Pilotsuz Dəniz Vasitələrini gələcək Donanmana üçün mühüm vasitə kimi görür və həyata keçirdikləri dəniz əməliyyatlarına inteqrasiya etməyə çalışırlar. Döyüşün dəyişən xarakteri və müasir dövrün əməliyyat ehtiyacları Azərbaycan Hərbi Dəniz Qüvvələri üçün pilotsuz sistemlərin inteqrasiyasını vacib hesab edir. Bu kontekstdə Pilotsuz Uçuş Aparatlarının və Pilotsuz Dəniz Vasitələrinin gələcək dəniz müharibələrində suüstü, hava hücumundan müdafiə, sualtı, mina və elektron müharibələr çərçivəsində effektiv şəkildə istifadə ediləcəyi gözlənildiyi üçün yeni taktikaların yaradılmasına ehtiyac var.

Pilotsuz Dəniz Vasitələri dənizdə pilotsuz hərəkət edə bilən və əməliyyatlar həyata keçirə bilən uzaqdan idarə olunan dəniz vasitələri kimi müəyyən edilir. Pilotsuz dəniz vasitələri pilotsuz olduğundan, avtomatik idarəetmə sistemi vasitəsilə avtonom şəkildə və ya uzaqdan idarəetmə ilə istifadə edilə bilər. Sensorları, manevr və yükgötürmə qabiliyyəti ilə Pilotsuz Dəniz Vaitələri mülkü və hərbi məqsədlər üçün getdikcə daha çox istifadə olunur. *[1, s 1].* Pilotsuz Dəniz Vasitələri fəaliyyət göstərdikləri əməliyyat mühitindən asılı olaraq yerüstü və sualtı olmaqla iki sinfə bölünür. Pilotsuz Dəniz Vasitələri su basımına və ölçülərinə görə böyük, orta və kiçik olaraq sinifləndirilir.

**Əsas hissə**

**1. Pilotsuz Dəniz Vasitələrinin Tarixi İnkişafı və Sinifləndirilməsi.**

Pilotsuz Dəniz Vasitələri ilk dəfə ikinci dünya müharibəsində “mina təmizləmə” və “döyüşdən sonra dəymiş ziyanın qiymətləndirilməsi” üçün istifadə edilməyə başlanmışdır. Kanada tərəfindən istehsal edilmiş COMOX adlı Pilotsuz Dəniz Vasitəsi Normandiya desant çıxarma əməliyyatından əvvəl qoşunların əməliyyatı icra edəcəyi əraziləri təyin etmək üçün istifadə edilən tüstü lampalarını atmaq məqsədi ilə ilk dəfə istifadə edilmişdir. *[2, s 1].*

Amerika Birləşmiş Ştatları (ABŞ) tərəfindən Amfibiya əməliyyatı zaman istifadə üçün "mina təmizləmə" və "maneələrin aradan qaldırılması" funksiyalarına malik Pilotsuz Dəniz Vasitələri hazırlanmışdır. Daha sonra ABŞ Vyetnam müharibəsi zamanı 7 metrlik fiber qayıqlardan "minaaxtaran" kimi istifadə etmiş və 1960-cı ildən sonra atış təlimləri zamanı hədəf kimi Pilotsuz Dəniz Vasitələrindən istifadə etmişdir. *[3, s 9].*

1990-cı illərdən sonra hədəf kimi istifadə edilən Pilotsuz Dəniz Vasitələri bəzi sensorların quraşdırılması ilə bərabər ABŞ tərəfindən kəşfiyyat və müşahidə tapşırıqlarını icra etmək üçün istifadə edilməyə başlanmışdır.

Pilotsuz Dəniz Vasitələri 2000-ci illərdən bəri kəşfiyyat məlumatlarının toplanması və müşahidə fəaliyyətlərində fəal şəkildə istifadə olunur. İraq müharibəsində ABŞ tərəfindən istehsal olunan "Owl" adlı Pilotsuz Dəniz Vasitələri kəşfiyyat və müşahidə məqsədi ilə istifadə edilmiş və daha sonra modernizasiya olunaraq baza və limanların müdafiəsi üçün istifadə edilmişdir.

Pilotsuz Dəniz Vasitələrinin əməliyyat sahəsindəki uğurunu görən digər ölkələrdə Pilotsuz Dəniz Vasitələrinin tədqiqi və inkişafına üstünlük verməyə başladılar. Danimarka, Almaniya, Hollandiya, İngiltərə, İsveç, Yaponiya, İsrail, Rusiya, Türkiyə, Fransa və Cənubi Koreya müxtəlif növ və özəlliklərə sahib Pilotsuz Dəniz Vasitələrinin istehsalına başladılar.

Ümumi olaraq; bir çox ölkə tərəfindən Suüstü Müharibə, Sualtı Qayıqlara Qarşı Müharibə, Minalara Qarşı Mübarizə, Elektron Müharibə, Dəniz Müşahidə Əməliyyatları, Dəniz Təhlükəsizliyi, Xüsusi Təyinatlı Əməliyyatlar və Amfibiya Əməliyyatları sahələrində çoxfunksiyalı Pilotsuz Dəniz Vasitələrini inkişaf etdirməyə davam etməkdədir.

Pilotsuz Dəniz Vasitələri su basımına və ölçülərinə görə sinifləndirilir. Bu çərçivədə, su basımına görə, çəkisi ***1 tondan az olanlar kiçik, 1 tondan ağır 100 tondan az*** **orta, *100 tondan çox 1000 tondan az*** **böyük ve *1000 tondan çox*** **çox büyük** Pilotsuz Dəniz Vasitəsi kimi sinifləndirilmişdir. *[4, s 2].* Başqa bir sinifləndirməyə görə; *[5, s 1].*

- Böyük Pilotsuz Dəniz Vasitələri; **70-100 metr uzunluğunda** və tam subasımı **1000-2000 ton** arasında olub, **korvet sinifli döyüş gəmisi** ölçüsündə olması və onun tapşırıqlarını yerinə yetirmək qabiliyyətinə malik olması nəzərdə tutulur.
- Orda Pilotsuz Dəniz Vasitələri; **20-60 metr uzunluğunda** və subasımı **500 ton** su basımına malik olması, **Patrul sinifli döyüş gəmisi** ölçüsündə olması və onun tapşırıqlarını yerinə yetirmək qabiliyyətinə malik olması nəzərdə tutulur.
- Kiçik Pilotsuz Dəniz Vasitələri; **20 metrdən az** uzunluqda olub, **limanların mühafizəsi, sahil sularında kəşfiyyat və müşahidə tapşırıqlarını** yerinə yetirmək qabiliyyətinə malik olması nəzərdə tutulur.

Pilotsuz Dəniz Vasitələri uzunluqlarına və daşıdıqları faydalı yük qabiliyyətinə görə müxtəlif növ Döyüş gəmilərinin tapşırıqlarını icra etmələrinə kömək edəcəklər.

## 2. Pilotsuz Dəniz Vasitələrinin Bugünkü İstifadə Sahələri

Bu gün Kiçik Pilotsuz Dəniz Vasitələri əsasən sahil sularında kəşfiyyat və müşahidə**,** baza və limanların müdafiəsi, sürü və asimmetrik hücumlar üçün istifadəsi edilməsi planlaşdırılır. Rusiya-Ukraniya müharibəsində, Ukraniya tərəfindən hazırlanan Kiçik Pilotsuz Dəniz Vasitələri Sevastapol Hərbi Dəniz Bazasına sürü şəklində hücum edilmiş, bunlardan bəziləri Rusiya Donanmasına ait döyüş vasitələri ilə məhv edilsədə, bəziləri zərbə nəticəsində partlayaraq zərər vermişdir. Kiçik Pilotsuz Dəniz Vasitələri ucuz və sərfəli olduğundan gələcəkdə bir çox ölkə tərəfindən sahil sularında dəniz əməliyyatlarında istifadə ediləcəyi gözlənilir.

Orta Pilotsuz Dəniz Vasitələri kəşfiyyat, müşahidə, patrul, Sualtı Mübarizə və Suüstü Müharibə əməliyyatlarında istifadə edilməsi planlaşdırılır. Bu çərçivədə döyüş gəmiləri ilə birlikdə sahil sularında istifadə edilməsi və daşıyacağı idarə olunan raketlərlə yüngül və orta zirehli vasitələrə qarşı döyüş aparması nəzərdə tutulur. *[5, s 2].*

Böyük Pilotsuz Dəniz Vasitələri isə açıq dənizlərdə Suüstü Müharibə, Sualtıqayıq Əleyhinə Müharibə, kəşfiyyat-müşahidə, patruletmə tapşırıqlarını icra etmək və idarə olunan raketlərin daşınması planlaşdırılır. *[5, s 3].*

Pilotsuz Dəniz Vaitələri gələcəkdə dəniz müharibələrində Döyüş gəmiləri ilə birlikdə daha səmərəli və aktiv şəkildə istifadə ediləcəkdir. Pilotsuz Dəniz Vasitələrinin ən mühüm üstünlükləri onların çətin aşkarlanması, maliyətinin ucuz olması, yüksək sürətə çatması və asimmetrik effektlər yaratmasıdır. Digər tərəfdən, dənizdə üzmə qabiliyyətinin aşağı olması, məhdud istifadə məsafəsi, nasazlıq olduqda düşmən tərəfindən ələ keçirilməsinin asand olması səbəbindən hazırda bazalara və limanlara yaxın ərazilərdə əməliyyatlar aparmasının daha məqsədə uyğun olduğu düşünülür.

Pilotsuz Dəniz Vasitələri ABŞ Hərbi Dəniz Qüvvələri tərəfindən Fars körfəzində və təlimlərdə effektiv şəkildə istifadə edilir. Qazanılan təcrübələrə əsaslanaraq ABŞ orta və böyük ölçülü Pilotsuz Dəniz Vasitələrini inkişaf etdirməyə davam edir. Xüsusilə "Sea Hunter" İnsansız Dəniz Vasitəsi (Böyük Ölçülü) açıq dənizlərdə Suüstü döyüş aparma qabiliyyəti ilə diqqət çəkir. Bundan əlavə, ABŞ Hərbi Dəniz Qüvvələrinin 5-ci Donanma Komandanlığı tərkibində Task Force-59 (İşçi Qrup-59) Pilotsuz Dəniz Vasitələri donanması yaradılıb. Pilotsuz Dəniz Vasitələri Donanması Komandanlığında bir çox tip Pilotsuz Dəniz Vasitələri istifadə edilməyə başlanmışdı. Bu çərçivədə ABŞ tərəfindən; TRITON, MARTAC Devil Ray T38, Sea Track SP-48, Saildrone Explorer, Data Explorer və L3 Harris Mast-13 adlı pilotsuz dəniz vasitələri ümumi əməliyyat mərkəzi vasitəsilə idarə olunur. *[4, s 3-7].*

NATO tərəfindən 12-22 oktyabr 2022-ci il tarixləri arasında Portuqaliyada həyata keçirilən REPMUS-22 (Robotic Experimentation and Prototyping with Unmanned Systems) və Dynamic Messenger təlimləri çərçivəsində pilotsuz dəniz vasitələri istifadə edilib. Təlimlərdə Portuqaliya, Avstriya, Belçika, Kanada, Danimarka, Fransa, Almaniya, Yunanıstan, İtaliya, Hollandiya, Ruminiya, ABŞ, Böyük Britaniya və Türkiyə iştirak edib. Təlim çərçivəsində 40 ədət Pilotsuz Sualtı Vasitələr, 18 ədət Pilotsuz Suüstü Vasitələr və 45 ədət Pilotsuz Uçuş Aparatı (PUA) sınaqdan keçirilib. Təlimlər çərçivəsində; müxtəlif ölkələrdən olan Pilotsuz Dəniz Vasitələrinin birlikdə fəaliyəti, müxtəlif ssenarilər əsasında müşahidə və kəşfiyyat məlumatlarının toplanması, sualtı şəraitin ani qiymətləndirilməsi, sualtı qayıqlara qarşı sədd yaradılması və mina əleyhinə tədbirlər üzrə həyata keçirilib. Gələcəyin dəniz əməliyyat mühitini formalaşdıracaq ən mühüm qabiliyyətlərdən biri də Pilotsuz Dəniz Vasitələri olacaq. Bu kontekstdə, bugünkü qlobal təhlükəsizlik mühitinin sürətlə inkişaf edən risk və təhdidlərinə qarşı Azərbaycan Hərbi Dəniz Qüvvələri Komandanlığına həvalə edilmiş vəzifələrin effektiv icrasına töhfə vermək üçün qısa, orta və uzunmüddətli perspektivdə Pilotsuz Dəniz Vasitələrinin istifadəsi üçün yol xəritəsinin müəyyən edilməsi vacibdir.

### 2.1. Pilotsuz Dəniz Vasitələrinin Suüstü Müharibələrdə İstifadəsi.

Xəzər Dənizidə iqlim dəyişikliyi nəticəsində dəniz səviyyəsinin uzunmüddətli aşağı düşməsi *[6, s 1]*, həmçinin kiçik adalara, qayalıqlara və neft-qaz platformalarına sahib olması səbəbindən Friqat və Korvet kimi döyüş gəmilərinin üzmə və manevra qabiliyəti az olacaqdır. Pilotsuz Dəniz Vasitələri kiçik ölçüləri və yüksək manevr qabiliyyətinə görə döyüş sahəsində istifadə üstünlüyünə sahib olacaqlar.

Dəniz Taktikasının yaradılması Suüstü müharibənin ən vacib mərhələsidir. Bu çərçivədə Döyüş Gəmiləri, PUA-lar, sahil radarları, ticarət gəmilərinin hərəkət məlumatları və bunlara əlavə olaraq Pilotsuz Dəniz Vasitələrinin istifadə imkanı ilə əldə ediləcək məlumatlar Dəniz Taktikasının daha yaxşı yaradılmasına töhfə verəcək. Pilotsuz Dəniz Vasitələri elektro-optik sensorları, radarı və sürəti ilə xüsusilə adaların və neft-qaz platformalarının yerləşdiyi və gəmi sürücülüyü üçün əlverişsiz coğrafiyalarda qısa müddətdə aşkarlama, identifikasiya və müdaxilə fəaliyyətlərini icra edəcək. Pilotsuz Dəniz

Vasitələri sahil radarlarının əhatə dairəsinin kənarında və ya kor zonasında olan ərazilərdə də müşahidə aparmaq üçündə istifadə edilə bilər. *[7, s 9]*. Bundan əlavə, Pilotsuz Dəniz Vasitələri və PUA-ların istifadəsi kəşfiyyat və müşahidə fəaliyyətləri üçün Döyüş Gəmilərinin və Döyüş Təyyarələrinin göndərilməsi ilə müqayisədə xərclərə, şəxsi heyətə və təminat vasitələrinə qənaət ediləcəkdir. Pilotsuz Dəniz Vasitələri Dəniz Taktikasının yaradılmasında və kəşfiyyat müşahidə fəaliyyətləri üçün önəmli bir vasitə olacaqdır.

Rusiya-Ukrayna Müharibəsi zamanı Ukrayna Pilotsuz Dəniz Vasitələri ilə Rusiya Hərbi Dəniz Qüvvələrinin Sevastopol dəniz bazasına və döyüş vasitələrinə sürü şəklində zərbələr endirirdi. Ukrayniya tərəfindən sürü şəklində icra edilən Pilotsuz Dəniz Vasitələri əməliyyatında, Rusiya bu zərbələrin qarşısını almaq üçün helikopterlərdən və gəmidə yerləşən bort silahlarından istifadə etməsinə baxmayaraq mühafizə zonasını keçən Pilotsuz Dəniz Vasitələrinin zərbəsi və partlaması nəticəsində ağır zədələr almışdır. Kiçik Pilotsuz Dəniz Vasitələri xüsusilə aşkar edilən düşmən vasitələrinin məhv edilməsi və ya döyüş qabiliyyətinin itirilməsi üçün sürü şəklində əməliyyatlarda istifadə ediləbiləcəkdir. Bundan əlavə məsafədən asılı olaraq kritik ərazilərdə, dar keçitlərdə, körfəzlərdə aşkar edilən suüstü təhlükələrə asimmetrik bir təhlükə kimi istifadə edilə biləcəyi nəzərə alınmalıdır.

Böyük Pilotsuz Dəniz Vasitələri ABŞ tərəfindən Təyyarədaşıyan Gəmi əməliyyat qrupu, Desant çıxarma əməliyyat qrupu, Suüstü müharibə qrupu və tək gəmilər ilə istifadə edilməsi planlanmaqdadır. Bu kontekstdə ABŞ avtonom istifadəni, naviqasiya planlamasını və Dənizdə Gəmilərin Toqquşmasının Qarşısının Alınmasına Dair Beynəlxalq Qaydalar Haqqında Konvensiyanın qaydalarını təkmilləşdirməyə davam edir. Əməliyyat qrupuna daxil ediləcək Böyük Pilotsuz Dəniz Vasitələrinin Suüstü Müharibə və Sualtı Mühafizə Döyüşlərində məqsədyönlü şəkildə istifadə edilməsi planlaşdırılır. *[4, s 8]*.

Asimmetrik müharibə çərçivəsində Pilotsuz Dəniz Vasitələri düşmən və ya terror qrupları tərəfindən, xüsusən bazaya, boğaza və limana yaxınlaşan sularda həyata keçirilə biləcək hərəkətlərin qarşısını ala və vaxtında aşkar edə biləcəklər. Baza, liman və digər strateji ərazilərin mühafizəsi və müşahidəsi üçün pilotsuz dəniz vasitələrinin rolu gələcəkdə daha da artacaq. Bundan əlavə Pilotsuz Dəniz Vasitələri ilə ediləcək asimmetrik hücumların qarşısı Pilotsuz Dəniz Vasitələrinin yüksək manevr qabiliyəti və bortunda olan silahlarla alına bilinəcəkdir. Pilotsuz Dəniz Vasitələri həmçinin düşmənin strateji obyektlərinə, limanlarına, gizlənmə mövqelərində olan yüngül suüstü gəmilərinə qarşı asimmetrik şəkildə istifadə edilə bilər.

### 2.2. Pilotsuz Dəniz Vasitələrinin Sualtı Vasitələrə Qarşı Müdafiədə istifadəsi.

Pilotsuz Dəniz Vasitələrinin ilk növbədə yaxın gələcəkdə Sualtı Vasitələrə Qarşı Müdafiə çərçivəsində əlavə bir element kimi xidmət edəcəyi düşünülsə də, texnoloji inkişaflarla paralel olaraq gələcəkdə Sualtı Vasitələrə Qarşı Müdafiə üçün əsas platforma kimi istifadə ediləcəkdir. Bu vasitələrə akustik sistemlər (vasitələr) və avtomatik hədəf tanıma proqramı quraşdırılaraq sualtı müşahidə baxımından çox əhəmiyyətli bir qabiliyyət əldə ediləcəyi qiymətləndirilir.

Bundan əlavə, sualtı müşahidəyə verdiyi töhfələrə əlavə olaraq, Sualtı Vasitələrə Qarşı Müdafiədə rolları daha da vacib olacaq, çünki Pilotsuz Dəniz Vasitələri texnoloji inkişaflarına görə silah daşıya bilər və sualtı təhlükə şəxsi heyətin itirilməsi riski olmadan aradan qaldırıla bilər. Bu mərhələdə, sualtı əməliyyat mühitində fəaliyyət göstərən Pilotsuz Dəniz Vasitələri yerləşdikləri qurudan, havadan və ya dəniz vasitəsindən idarə olunmaqla bazaların,limanların, dar kanalların, keçidlərin yaxınlaşma sularında yerləşdirilə bilər. Onlar müəyyən edilmiş qaydada bu vəzifələri avtonom şəkildə yerinə yetirə bilərlər. Digər tərəfdən, əməliyyat qrupu məntiqi çərçivəsində həyata keçirilən əməliyyatlarda, konvoy əməliyyatlarında, xüsusui əhəmiyyətli birliklərin hərəkət yollarında mümkün sualtı təhlükələrə qarşı istifadə edilə bilər. *[3, s 453]*.

**2.3. Pilotsuz Dəniz Vasitələrinin Mina Əleyhinə Müdafiədə istifadəsi**

Pilotsuz Dəniz Vasitələri Dəniz Müharibəsi çərçivəsində minaların düzülməsi və Mina Əleyhinə Müdafiə əməliyyatlarında effektiv şəkildə istifadə edilə bilər. Pilotsuz Dəniz Vasitələrinin ölçüsündən və yükgötürmə qabiliyyətinin asılı olaraq, su səthinə yaxın və avtonom şəkildə təyin edilmiş ərazilərə istənilən miqdarda mina düzmək imkanı qərar qəbul edən şəxslərə Suüstü Müharibələrin planlaşdırılmasında əhəmiyyətli çeviklik təmin edəcək. Pilotsuz Dəniz Vasitələri, Pilotsuz Sualtı Aparatlar ilə birlikdə, Mina Əleyhinə Müdafiənin tələb etdiyi yüksək riskli və təhlükəli əməliyyatlar üçün xüsusilə uyğun olduğundan, Mina Əleyhinə Müdafiə əməliyyatlarının icrasında mühüm rol oynayacaq. Pilotsuz Dəniz Vasitələri ənənəvi platformaların effektivliyini artıracaq və daha az xərclə əhəmiyyətli minaaxtaran və minaların məhv edilməsi imkanlarının yaradılmasına töhfə verəcək. *[8, s 8].*

Pilotsuz Dəniz Vasitələrinin Mina Əleyhinə Müdafiə Tapşırıq Qrupunda oynayacağı roldansa, Mina Əleyhinə Müdafiə imkanlarına malik olmayan suüstü gəmilərin və sualtı qayıqların öz Mina Əleyhinə Müdafiə imkanlarını yaratmaq potensialı vacibdir. Pilotsuz Dəniz Vasitələri Mina Əleyhinə Müdafiə əməliyyatlarında tapşırıq icra etməsi, Taktiki Qrup Komandirinə döyüş sahəsinin kəşfiyyat hazırlığı və fasiləsiz olaraq Mina Əleyhinə Müdafiə əməliyyatları aparmaq imkanı verəcək. Taktiki Qrupun ilk döyüş əməliyyatı üçün ehtiyac duyacağı təhlükəsiz kursları və rayonları təyin etmək və Döyüş və Təminat gəmilərini mina təhlükəsindən uzaq tutaraq təhlükəsiz hərəkətinin təmin etmək və təyin olunmuş ərazilərin təmizlənməsində mühüm rol oynayacaq. *[9, s 18-19].*

Azərbaycan Hərbi Dəniz Qüvvələri də gələcəkdə sahip ola biləcəyi Pilotsuz Dəniz Vasitələri ilə Xəzər Dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən strateji obyektlərin, neft-qaz platformalarının və əsas forvaterlərin Mina Əleyhinə Müdafiəsini effektli şəkildə müdafiə edəbiləcək.

**2.4. Pilotsuz Dəniz Vasitələrinin Hava Hücumundan Müdafiədə istifadəsi.**

Pilotsuz Dəniz Vasitələri gələcəkdə sahip olacağı “Yer-Hava” sinifi roketlərinin (Surface to Air Missile) imkanları ilə xüsusilə düşmənin aşağı hündürlükdə uçan hava vasitələrinin zərərsizləşdirilməsini təmin edəcək.

ABŞ tərəfindən orta və böyük ölçülü Pilotsuz Dəniz Vasitələrinin Hava Hücumundan Müdafiə döyüşündə istifadəsi üçün araşdırmalar aparılmaqdadır. Bu kontekstdə Hava Hücumundan Müdafiə növbətçiliyi, düşmənin hava vasitələrinin erkən aşkarlanması və yarı aktiv idarə olunan raketlərlə məhv edilməsi nəzərdə tutulur.[10, s 8].

**2.5. Pilotsuz Dəniz Vasitələrinin Dəniz Sahəsinə Nəzarət və Dəniz Təhlükəsizliyi Çərçivəsində İstifadəsi.**

Dəniz Dəniz Sahəsinə Nəzarət çərçivəsində müəyyən edilən dəniz bölgəsində İnsansız Dəniz Vasitələri vasitəsilə müşahidə və patrul vəzifələri yerinə yetirilməklə fasiləsiz təhlükəsizlik təmin edilə bilər.

Dəniz Təhlükəsizliyi Çərçivəsində İnsansız Dəniz Vasitələri aşağıdakı vəzifələri yerinə yetirə bilər;

- Strateji və Taktiki Kəşfiyyatın Toplanması: Siqnal, Elektron, Ölçmə və Vizual Kəşfiyyat,
- Kimyəvi, Bioloji, Nüvə, Radioloji Aşkarlama və Lokalizasiya (həm dəniz səthinin üstündə, həm də altında),
- Əsas Forvaterlərin, Qovşaqların və Strateji Obyektlərin yerləşdiyi ərazilərin müşahidəsi,
- Dənizdən gələ biləcək Terror Hücumlarının və Asimmetrik Təhdidlərin qarşısını almaq,
- Qaçaqmalçılıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, dənizin çirklənməsi və digər qeyri-qanuni fəaliyyətlərin monitorinqi və görüntülərinin qeydə alınması.

Dəniz təhlükəsizliyini təmin etmək məqsədilə, xüsusilə dəniz ticarətinin sıx olduğu qovşaqlarda, naviqasiya təhlükəsizliyinin qorunması çərçivəsində Pilotsuz Dəniz Vasitələri kəşfiyyat və müşahidə tapşırıqlarında istifadə edilə bilər. Dəniz ticarətinin sıx olduğu bölgələrə yerləşdiriləcək Pilotsuz Dəniz Vasitələri fasiləsiz təhlükəsizliyi təmin edəcək. Pilotsuz Dəniz Vasitələri həmçinin terrorçulara və dəniz quldurlarına qarşı çəkindirmə təmin edəcək və gəmilərə yönələ biləcək silahlı təhdidlərə silahlı cavab vermək imkanı verəcək. Pilotsuz Dəniz Vasitələri bununla yanaşı Strateji obyektlərin (Neft-qaz platformaları, Dövlət və Hərbi əhəmiyyətli obyektlər) Mühafizə və Müdafiəsi üçün istifadə ediləbiləcəklər.

**Nəticə**

Pilotsuz Dəniz Vasitələri gələcək dəniz müharibəsi mühitinin formalaşmasında mühüm rol oynayacaq. Bir çox ölkənin Hərbi Dəniz Qüvvələri tərəfindən İnsansız Dəniz Vasitələrinin inkişafı və tədarükü ilə bağlı araşdırmalar davam edir.

Rusiya-Ukrayna müharibəsinin dəniz mərhələsində; Rusiya güclü donanmaya malik olsa da, Ukrayna Hərbi Dəniz Qüvvələri tərəfindən Pilotsuz Dəniz Vasitələrinin effektiv istifadəsi ilə flaqman gəmisi ilə bərabər bir çox döyüş gəmisini itirdi. Ukrayna Hərbi Dəniz Qüvvələri simmetrik mübarizə apara bilmədiyi Rusiya Hərbi Dəniz Qüvvələrinə qarşı Pilotsuz Uçuş Aparatları, Pilotsuz Dəniz Vasitələri və sahil idarə olunan raket batareyalarından istifadə edərək asimmetrik mübarizə apardı. Gələcəkdə yalnız konvensiyonal dəniz qüvvələri ilə həyata keçiriləcək tapşırıqlarda və əməliyyatlarda uğur qazanmaq mümkün olmayacaq. Bu kontekstdə asimmetrik qabiliyyətə malik pilotsuz sistemlər donanmaların kritik ehtiyacına çevriləcək.

Nəticə etibarı ilə Xəzər Dənizidə iqlim dəyişikliyi nəticəsində dəniz səviyyəsinin uzunmüddətli aşağı düşməsi, həmçinin kiçik adalara, qayalıqlara və neft-qaz platformalarına sahib olması səbəbindən Friqat və Korvet kimi döyüş gəmilərinin üzmə və manevra qabiliyyəti az olmasını nəzərə alaraq Dövlət və Hərbi əhəmiyyətli strateji obyektlərin effektli şəkildə Mühafizə və Müdafiəsi üçün Azərbaycan Hərbi Dəniz Qüvvələrinində Pilotsuz Dəniz Vasitələrinə sahip olması vacib hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Combined Joint Operations from the Sea Centre of Excellence (CJOS COE), Guidance for Developing Maritime Unmanned Systems (MUS) Capability (2012), https://publicintelligence.net/cjoscoe-mus/
2. Volker Bertram, “Unmanned Surface Vehicles-A Survey”, http://citeseerx.ist.psu.edu/viewdoc/ download?
3. Yan Ru-jian ve Diğ., “Development and Missions of Unmanned Surface Vehicle”, Journal of Marine Science and Application, 2010.
4. Congressional Resarch Service Report (CRS Report), “Navy Large Unmanned Surface and Undersea Vehicles: Background and Issues for Congress”, 2022.
5. Baybaş Haluk Mustafa, “Unmanned Surface Vehicles/Vessels (USV’s), Marine Deal, 2023.
6. Ekologiya və Təbii Sərvətlər Naziri Muxtar Babayev, https://report.az/ekologiya/ , 2023.
7. Pang Shou, “Development and missions of unmanned surface vehicle”, Journal of Marine Science and Application, 2010.
8. Combined Joint Operations from the Sea Centre of Excellence, “Study for Maritime Unmanned Systems (MUS) in NATO (2009)”.
9. USA Department of Navy, “The Navy Unmanned Surface Vehicle (USV) Master Plan”, 2007.

10. Congressional Resarch Service (CRS), "Navy Large Unmanned Surface and Undersea Vehicles Updated 17 April 2023", 2023.

**Turan Əhmədov**

**MÜASİR HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNDƏ PİLOTSUZ DƏNİZ VASİTƏLƏRİNİN İSTİFADƏ KONSEPTİ**

**Xülasə**

Bu gün Pilotsuz Dəniz Vasitələrinin dəniz əməliyyatlarında istifadə sahələri günü-gündən artır. Son illərdə bir çox ölkənin dəniz qüvvələri tərəfindən dəniz əməliyyatlarında Pilotsuz Dəniz Vasitələrindən istifadə etmək üçün araşdırmalar aparılır. Dəniz əməliyyatlarında Pilotsuz Dəniz Vasitələrinin istifadəsi ilə bu əməliyyatların icrası zamanı şəxsi heyətin, maddi xərclərin və risklərin azalacağı gözlənilir. Gələcəkdəki dəniz əməliyyatlarında Döyüş Gəmiləri ilə Pilotsuz Dəniz Vasitələri və Pilotsuz Uçuş Aparatlarının birlikdə istifadəsi döyüş əməliyyatlarının müvəffəqiyyətini artıracaqdır. Bu sistemlərin və vasitələrinin dəniz əməliyyatlarında tətbiq sahələri, texnaloji inkişaf çərçivəsində hər keçən gün artmaqda olub, aşkarlama və identifikasiya edərək müşahidə etdiyi düşmən vasitələrini nəzarətdə saxlamağa, müəyyən edilmiş dəniz sərhədlərinin, dənizdə olan strateji obyektlərin müşahidə və müdafiəsindən tutmuş bir çox sahələrdə Hərbi Dəniz Qüvvələrinin fəaliyyətinə təsir edəcək bir səviyyəyə çatmışdır. Rusiya-Ukraniya müharibəsinin dəniz mərhələsində Pilotsuz Dəniz Vasitələri və Pilotsuz Uçuş Aparatları effektiv istifadə edilmiş və Rusiyanın suüstü vasitələrinin bəzilərinin məhv edilməsinə, bəzilərinin isə ciddi zərər görməsinə səbəb olmuşdur. Bu kontekstdə gələcək dəniz əməliyyatlarında Döyüş Gəmilərinin, Pilotsuz Dəniz Vasitələrinin və Pilotsuz Uçuş Aparatlarının dəniz müharibəsində istifadəsi ilə bağlı yeni taktika və üsulların yaradılmasına ehtiyac var. Bu məqalədə, Pilotsuz Dəniz Vasitələrinin istifadə konseptini araşdıracağıq.

**Туран Ахмедов**

**АВИАЦИОННЫЕ КОРАБЛИ В ИСТОРИИ**

**Аннотация**

Сегодня сферы применения беспилотных морских транспортных средств в морских операциях расширяются с каждым днем. В последние годы военно-морские силы многих стран исследуют возможность использования беспилотных морских транспортных средств в военно-морских операциях. Ожидается, что благодаря использованию беспилотных морских транспортных средств в морских операциях снизятся затраты на персонал, материалы и риски при выполнении этих операций. В будущих военно-морских операциях совместное использование боевых кораблей, беспилотных военно-морских транспортных средств и беспилотных летательных аппаратов повысит успех боевых действий. Области применения этих систем и средств в военно-морских операциях с каждым днем расширяются в рамках технологического развития, влияя на деятельность ВМФ во многих областях, начиная от обнаружения и идентификации до управления транспортными средствами противника, наблюдения и защиты определенных морских территорий, границ, стратегических объектов на море. На военно-морском этапе российско-украинской войны беспилотные морские транспортные средства и беспилотные летательные аппараты были эффективно использованы и привели к уничтожению части надводных транспортных средств России и серьезному ущербу. В этом контексте возникает необходимость создания новой тактики и методов, связанных с

применением боевых кораблей, беспилотных морских аппаратов и беспилотных летательных аппаратов в морской войне в будущих военно-морских операциях. В этой статье мы рассмотрим концепцию использования беспилотных морских транспортных средств.

**Turan Ahmadov**

**AIRCRAFT SHIPS IN HISTORY**

**Abstract**

Today, the areas of use of Unmanned Marine Vehicles in maritime operations are increasing day by day. In recent years, many countries' navies have been researching the use of Unmanned Maritime Vehicles in naval operations. With the use of Unmanned Marine Vehicles in maritime operations, it is expected that personnel, material costs and risks will be reduced during the execution of these operations. In future naval operations, the combined use of Warships and Unmanned Naval Vehicles and Unmanned Aerial Vehicles will increase the success of combat operations. The areas of application of these systems and tools in naval operations are increasing day by day within the framework of technological development, influencing the activities of the Navy in many areas, ranging from detection and identification to control enemy vehicles, surveillance and protection of defined sea borders, strategic objects in the sea. has reached a level that will During the naval phase of the Russian-Ukrainian war, Unmanned Naval Vehicles and Unmanned Aerial Vehicles were used effectively and caused the destruction of some of Russia's surface vehicles and some serious damage. In this context, there is a need to create new tactics and methods related to the use of Warships, Unmanned Naval Vehicles and Unmanned Aerial Vehicles in naval warfare in future naval operations. In this article, we will explore the concept of using Unmanned Marine Vehicles.

# BEYNƏLXALQ TERRORİZMƏ FƏLSƏFİ BAXIŞ

***Vüqar Səlimov***
***fəlsəfə üzrə fəlsəfə doktoru***
***vugarsalimov73@gmail.com***

***Açar sözlər:*** fəlsəfə, qlobal problemlər, beynəlxalq terrorizm, terrorizmin motivləri, terrorizmin tarixi, zorakılıq, sosial risklər, terrorizmə qarşı mübarizə

***Ключевые слова:*** философия, глобальные проблемы, международный терроризм, мотивы терроризма, цели терроризма, история терроризма, насилие, социальные риски, борьба с терроризмом

***Keywords:*** philosophy, global problems, international terrorism, motives of terrorism, goals of terrorism, history of terrorism, violence, social risks, fight against terrorism

**Giriş.** Beynəlxalq terrorizm qlobal problem kimi dünyada təhlükəsizliyə və sabitliyə mənfi təsir göstərir. Müxtəlif formalarda təzahür edən terrorizm insan tələfatına, dövlətlərarası ziddiyyətlərə və münaqişələrə səbəb olur, cəmiyyətdə neqativ psixoloji atmosfer yaradır. Qeyd edək ki, terrorizm probleminin mürəkkəbliyi onun müxtəlif elmlər tərəfindən öyrənilməsini zəruri edir. Hətta bununla bağlı olaraq "terrorologiya" adlı elmi fənn meydana gəlmişdir. Fəlsəfədə terrorizm və onun formaları ontoloji, epistemoloji və aksioloji baxımdan tədqiq edilir. Sosial fəlsəfi araşdırmalarda terrorizmə dair elmi biliklər ümumiləşdirilir, onun mahiyyəti və qlobal problemə çevrilməsinin səbəbləri öyrənilir. Bu aspektdə terrorizmə həm çoxtərəfli mürəkkəb hadisə, həm də ictimai münasibətlərin altsistemlərindən olan faktor kimi baxılır.

**Əsas hissə.** "Terrorizm" termininin ümumi qəbul edilmiş tərifi olmasa da, o, geniş mənada qorxutmaq, dağıdıcı niyyətlərə nail olmaq üçün zorakılığa əl atılması və yaxud hədələmə yolu ilə məcburetmə üsulu kimi başa düşülür. "Terrorizm" və "terror" anlayışları bir-birindən fərqlənir. Terrorizm antisosial hadisə olmaqla terrorçu şüur, terrorçu qüvvələr və terror aktları kimi komponentlərdən ibarətdir. Terror isə destruktiv fəaliyyət formasıdır. Tədqiqatçıların fikrincə, terrorizmin tədqiqi metodologiyası öz məzmununa görə, müasir tarixi proseslərin elmi dərk edilməsi ilə sıx bağlıdır (1, 123).

Beynəlxalq sənədlərdə terrorizm zorakılığın artan tezliyi və genişmiqyaslı olması ilə xarakterizə edilir (2, 13). Beynəlxalq terrorizm dedikdə qlobal xarakter daşıyan, mütəşəkkil və məqsədli şəkildə törədilən zorakılıq əməlləri başa düşülür. Buna görə də tədqiqatçılar terrorizmin əlamətləri içərisində zorakılıq faktoruna, onun sosial fəlsəfi cəhətlərinə xüsusi diqqət yetirirlər (3, 31-33).

Terrorizmin ontoloji aspektdən təhlili onun yaranması səbəblərinin daha dərindən izahına kömək edir ki, bu da terrorizmə qarşı mübarizədə səmərəli strategiyaların işlənib hazırlanması üçün əhəmiyyətlidir. Terrorizmin epistemoloji baxımdan təhlilində terrorizmlə bağlı məlumatların insanların dünyagörüşündə, inanclarında hansı dəyişikliklər yaratdığı öyrənilir. Epistemoloji təhlil vasitəsilə terrorçuların destruktiv inanclarının formalaşmasının xüsusiyyətləri izah edilir. Həmçinin, terrorçu qrupların öz ideyalarını təbliğ etmək üçün hansı manipulyativ vasitələrə əl atdığı araşdırılır. Terrorizmə aksioloji baxış terror təşkilatlarının özləri üçün məqbul hesab etdiyi, əslində isə zorakılığı təşviq edən "dəyərlərin" təhlili baxımından vacibdir. Bu aspektdə terrorçu qrupların daha çox hansı siyasi-ideoloji və yaxud siyasiləşmiş dini baxışlardan çıxış etdiyi şərh olunur.

Qeyd edək ki, terrorizmin mahiyyəti müxtəlif elmlər tərəfindən də tədqiq olunur. Məsələn, sosioloji araşdırmalarda əsasən terrorizmə kəskin sosial münaqişələr yaradan faktorlardan biri kimi baxılır. Politoloji yanaşmada terrorizm dövlətin siyasətinə təsir

göstərmək məqsədi daşıyan zorakılıq üsulu kimi şərh olunur. Hüquqi yanaşmada terrorizm ictimai təhlükə yaradan xüsusi cinayət əməli kimi izah edilir.

Elmi ədəbiyyatda terrorizmin tarixinin aşağıdakı mərhələlərdən ibarət olduğu göstərilir:

| Antik dövrdən XIX əsrin 40-cı illərinə qədər | XIX əsrin 40-cı illərindən XX əsrin 20-ci illərinə qədər | XX əsrin 20-ci illərinin əvvəlləri – 50-ci illərinin sonu | XX əsrin 60-cı illərinin əvvəlləri – 80-ci illərinin sonu | XX əsrin 90-cı illərinin əvvəlləri – hazırkı dövr |
|---|---|---|---|---|
| Terrorçu təşkilatlar meydana gəlməklə terrorizmin əsası qoyuldu. | Terrorçu fəaliyyə-tin əsas formaları və metodları müəyyən edildi, terror strategiyası və taktikasına dair nümunələr formalaşdı. | Fərdi terrorizmdən kütləvi terrorizmə keçid baş verdi, terror fəaliyyətinin yeni üsulları yarandı. | Böyük terror qrupları yaradıldı, terrorizm beynəlxalq siyasətdə qlobal faktora çevrildi. | Terrorizm beynəlxalq siyasətin qlobal faktorundan müasir dövrün qlobal probleminə transformasiya etdi. |

Hazırda dünyada terrorizmin xeyli sayda növü vardır ki, onların əsasən aşağıdakı üç istiqamət üzrə təsnifatı aparılır:

- ictimai-siyasi sistemlərin və dövlət quruluşunun dəyişdirilməsinə cəhd edən sosial terrorizm;
- etno-separatçı ideyalardan qaynaqlanan milli terrorizm;
- müxtəlif dinlərin və məzhəblərin tərəfdarlarının bir-biri ilə qarşıdurmasından yaranan dini terrorizm (4, 80).

Beynəlxalq terrorizm isə terrorizmin xüsusi növü olmaqla qlobal xarakter daşıyır. Müasir dövrdə beynəlxalq terrorizmin subyektləri əsasən transmilli terror təşkilatları, ekstremist siyasi və dini cərəyanlardan ibarətdir. Terrorizmin obyektini isə siyasi, dini liderlər və tamamilə günahsız insanlar, habelə xalqlar (məsələn, tarixən ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi çoxsaylı qanlı terror hadisələri) təşkil edir.

Beynəlxalq terrorizm bir qayda olaraq ictimai proseslərə siyasi radikalizm və yaxud dini fanatizm nöqteyi-nəzərindən yanaşılması, dünyagörüşün mistik xarakter daşıması, hansısa ideyalara kor-koranə inanılması, fərqli baxışlara dözümsüz və düşmən münasibətin göstərilməsi kimi səbəblərdən yaranır. Elmi ədəbiyyatda beynəlxalq terrorizmin əsaslandığı ideologiyaların əsasən sağçı ekstremizmlə dini fundamentalizmin sintezi, radikal millətçiliklə solçu ekstremizmin qarışığı və dini ekstremizmlə radikal millətçiliyin birləşməsi kimi kombinasiyalardan ibarət olduğu göstərilir.

Terrorçu qruplar cəmiyyətdə siyasi, dini ayrı-seçkiliyin və nifrət hissinin yayılmasına cəhd göstərir, xüsusilə onlayn təbliğat vasitəsilə özlərinə tərəfdarlar cəlb etməyə çalışır. Hətta bu məqsədlə internetdə terror aktlarının imitasiyasını yaradan, eləcə də istifadəçiləri virtual terrorçu rolunda oynamağa sövq edən video-oyunlardan istifadə olunur. Əvvəllər terrorçuluğu təbliğ edən materiallar şəxsən və yaxud kompakt disklər (CD), rəqəmsal video disk (DVD), Fləş disk vasitəsilə yayılırdısa, hazırda o, xüsusi yaradılmış veb-saytlardan və sosial şəbəkələrdən istifadə olunmaqla ictimai rəyə çatdırılır. İnternetdən yalnız terrorizmin təbliği vasitəsi kimi deyil, həm də terrorçu təbliğata qoşulanlarla əlaqələr yaratmaq və onlardan dəstək almaq üçün istifadə edilir. Terrorçu qruplar niyyətlərinə nail olmaq üçün gənclərin təsir altına düşməsinə xüsusi səy göstərirlər. Bu qrupların özləri üçün ideoloji məkan yaratmasının və psixoloji vasitələrlə tərəfdarlarına daim təsir göstərməsinin nəticəsində ictimai şüurun xüsusi növü kimi "terrorogen şüur" formalaşır.

Beynəlxalq terrorizm milli sərhədləri aşdığından ona qarşı mübarizədə müxtəlif mexanizmlərdən istifadə olunur. Onlara sülh və diplomatik danışıqlardan başlayaraq hərbi güc tətbiq etmə kimi vasitələr daxildir (5, 109). Terrorizmə qarşı mübarizə beynəlxalq

təşkilatların fəaliyyətində xüsusi yer tutur. Bu qurumların sənədlərində terrorizm bəşəriyyəti narahat edən qlobal problemlərdən biri kimi qeyd edilir (6).

Xüsusilə, BMT-nin Qlobal Terrorla Mübarizə Strategiyası terrorizmə qarşı mübarizədə milli, regional və beynəlxalq səyləri gücləndirmək məqsədi daşıyan vacib sənədlərdən biridir. 2006-cı ildə qəbul edilmiş həmin sənəddə terrorizmə qarşı mübarizədə ümumi strateji məqsədlər öz əksini tapır. Terrorizmin yayılmasına imkan yaradan şəraitin aradan qaldırılması və terrorizmə qarşı mübarizədə dünya dövlətlərinin birgə səy göstərməsi strategiyanın əsas prinsipial hədəfləridir (7). Sənəddə BMT-nin üzvü olan dövlətlərin qarşısında terrorizmin bütün forma və təzahürlərinə qarşı ardıcıl və qətiyyətli mübarizənin aparılması; sivilizasiyalar, mədəniyyətlər, xalqlar və dinlər arasında dialoq, tolerantlıq və anlaşmanın təşviqinə dair tədbirlərin həyata keçirilməsi; bütün dinlərə, dini dəyərlərə və inanclara, mədəniyyətlərə hörmətlə yanaşılması və s. vəzifələr qoyulmuşdur.

Terrorizmin digər növləri ilə müqayisədə beynəlxalq terrorizmin fərqli xüsusiyyəti onun genişmiqyaslı olması, əsasən siyasi radikalizmdən və yaxud siyasiləşmiş dini motivasiyadan çıxış etməsidir. Xüsusilə, dini radikalizm beynəlxalq terrorizmə rəvac verən zərərli ideoloji faktordur. Radikal dini təşkilatlar xüsusilə gənclər arasında dini təbliğatın aparılmasına üstünlük verir, dinin siyasiləşdirilməsi vasitəsilə ictimai rəyi çaşdırmağa çalışır. Onlar öz əməllərinə hansısa "müqəddəs missiyanın yerinə yetirilməsi" kimi bəraət qazandırmağa çalışır.

Azərbaycan dövləti beynəlxalq terrorçuluğa qarşı mübarizədə fəal iştirak edir və onun bu sahədə qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyası, "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanun, tərəfdar çıxdığı dövlətlərarası müqavilələr, habelə digər qanunvericilik aktlarından ibarətdir. Azərbaycan Respublikası terrorçuluğa qarşı mübarizəyə dair beynəlxalq konvensiyalara qoşulmuşdur. "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (1999-cu il) terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati əsasları müəyyən edilmiş və terrorçuluq əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyəti əlaqələndirilmişdir (8).

Bu qanuna görə, terrorçuluğa qarşı mübarizənin məqsədi aşağıdakılardır:

- insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;
- terrorçuluğun aşkar edilməsi, qarşısının alınması və terrorçuluq nəticəsində gözlənilən zərərin minimuma endirilməsi;
- terrorçuluğun yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin, habelə terrorçuluğun maliyyələşdirilməsi və digər yardımlar edilməsi hallarının aşkar və ləğv edilməsi.

"Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda terrorçuluğa qarşı mübarizənin aşağıdakı prinsiplərə əsaslandığı qeyd olunur:

- qanunçuluğun təmin edilməsi;
- terror fəaliyyətinin həyata keçirilməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cəzanın labüdlüyü;
- terrorçuluğa qarşı mübarizə zamanı açıq və gizli metodların əlaqələndirilməsi;
- hüquqi, siyasi, sosial-iqtisadi və təşkilati profilaktik tədbirlərin kompleks istifadəsi;
- terror fəaliyyəti nəticəsində təhlükəyə məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin üstünlüyü və s.

Azərbaycan BMT-nin Terrorçuluqla Mübarizə İdarəsi, ATƏT-in Transmilli Təhdidlər Departamenti, Avropa Şurasının Terrorçuluğa Qarşı Mübarizə üzrə Ekspertlər Qrupu, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı və digər qurumlarla terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq edir. Azərbaycanın və müxtəlif dövlətlərin hüquq mühafizə orqanları arasında terrorizmə və ekstremizmin digər

təzahürlərinə qarşı mübarizə sahəsində qarşılıqlı anlaşma haqqında memorandumlar imzalanmışdır.

## ƏDƏBİYYAT

1. Барышников С.Г. О социально-философском соотношении понятий «терроризм» и «террористическая деятельность» // Вестник Пермского Университета, 2011, Выпуск 3 (7), 123-128 с.
2. Борьба с терроризмом. Организация Объединенных Наций, Вена, 2019, 26 с.
3. A.Schwenkenbecher. Terrorism: A Philosophical Enquiry. Publisher: Palgrave Macmillan, 2012, 191 p.
4. Бурова Ю. В. Природа современного терроризма: социально-философский анализ // Гуманитарий: актуальные проблемы гуманитарной науки и образования, № 1 (21), 2013, 80-82 с.
5. Chris. O. Opukri, and Kimiebi Imomotimi Ebienfa. International Terrorism and Global Response: An Appraisal // American Journal of Humanities and Social Sciences, 2013, №3, 109-115 p.
6. Международные документы, касающиеся предупреждения и пресечения международного терроризма. Организация Объединенных Наций, Нью-Йорк, Том I, 2019, 608 с.
7. Глобальная контртеррористическая стратегия Организации Объединенных Наций https://www.un.org/counterterrorism/ru/un-global-counter-terrorism-strategy
8. "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/3855

***Vüqar Səlimov***

## BEYNƏLXALQ TERRORİZMƏ FƏLSƏFİ BAXIŞ

## XÜLASƏ

Sosial və humanitar elmlərdə beynəlxalq terrorizmin müxtəlif tərəfləri öyrənilir. Bu sahədə aparılan araşdırmalarda problemin fəlsəfi baxımdan tədqiqi aktual əhəmiyyət daşıyır. Terrorizm problemi fəlsəfədə ontoloji, epistemoloji və aksioloji aspektlərdən təhlil edilir.

Terrorizm zorakılığın, mistik və radikal dünyagörüşün, zərərli ideologiyaların qarşılıqlı bağlılığı nəticəsində meydana gələn sosial hadisədir. Göstərilən faktorların simbiozu mütərəqqi siyasi, hüquqi və mənəvi normalara zidd olan fəaliyyətə gətirib çıxarır. Terrorogen şüurda cəmiyyət "özününkünə" və "yadlara" bölünür, təcavüzkarlıq, radikalizm və ekstremizm əsas yer tutur. Beynəlxalq terrorizm müxtəlif formalarda təzahür etməklə insan tələfatına və dövlətlərarası münaqişələrə səbəb olur, qlobal xarakter daşıyan mənfi nəticələrinə görə bəşəriyyəti təhdid edir.

Beynəlxalq terrorizmin əsas məqsədlərindən biri terror aktları vasitəsilə ictimai rəydə çaşqınlıq və gərginlik yaratmaqdan ibarətdir. Terror aktı haqqında məlumatın sürətlə yayılması onu terror taktikasının əsas elementi kimi geniş müzakirələrə səbəb olan hadisəyə çevirir. Bu istiqamətdə informasiya-kommunikasiya texnologiyalarının, xüsusilə sosial şəbəkələrin imkanlarından sui-istifadə edilir, onların vasitəsilə zərərli və destruktiv ideyalar yayılır.

Terrorizminin mahiyyətinin öyrənilməsi üçün onun əsasında dayanan ideologiyaların təhlili vacibdir. Terrorizm ideologiyası ictimai münasibətlərin müxtəlif subyektlərinin maraqlarını ifadə edən və zorakılığa bəraət qazandıran radikal, ekstremist xarakterli ideya və baxışların məcmusundan ibarətdir. Bu ideologiya müxtəlif siyasi və dini baxışların

sintezindən yaranır, özündə anarxizm, ultra-mühafizəkarlıq və millətçilik, faşizm kimi faktorları birləşdirir.

Terrorizmə qarşı mübarizə beynəlxalq təşkilatların fəaliyyətində xüsusi yer tutur. Bu qurumların sənədlərində terrorizmə qarşı mübarizənin aparılmasında dünya dövlətlərinin birgə səy göstərməsinin vacibliyi qeyd olunur. Beynəlxalq terrorizmə qarşı mübarizənin aparılması Azərbaycan dövlətinin siyasətində prioritet məsələlərdən biridir.

**Вугар Салимов**

## ФИЛОСОФСКИЙ ВЗГЛЯД НА МЕЖДУНАРОДНЫЙ ТЕРРОРИЗМ

### АННОТАЦИЯ

Различные аспекты международного терроризма изучаются в социальных и гуманитарных науках. В исследованиях, проводимых в этой области, актуальное значение имеет изучение проблемы с философской точки зрения. Проблема терроризма анализируется в философии с онтологического, гносеологического и аксиологического аспектов.

Терроризм – это социальное явление, возникающее в результате взаимозависимости насилия, мистического и радикального мировоззрения, вредных идеологий. Симбиоз указанных факторов приводит к деятельности, противоречащей прогрессивным политическим, правовым и моральным нормам. В террористическом сознании общество разделено на «своих» и «чужих», главное место занимают агрессия, радикализм и экстремизм. Международный терроризм проявляется в различных формах, вызывает человеческие жертвы и конфликты между странами, угрожает человечеству своими глобальными негативными последствиями.

Одной из главных целей международного терроризма является создание смятения и напряжения в общественном мнении посредством террористических актов. Быстрое распространение информации о террористическом акте делает его широко обсуждаемым событием как ключевым элементом террористической тактики. В этом направлении злоупотребляются возможности информационно-коммуникационных технологий, особенно социальных сетей, и через них распространяются вредные и деструктивные идеи.

Для изучения природы терроризма важно проанализировать лежащие в его основе идеологии. Идеология терроризма состоит из совокупности радикальных, экстремистских идей и взглядов, выражающих интересы различных субъектов общественных отношений и оправдывающих насилие. Эта идеология в основном возникает в результате синтеза различных политических и религиозных взглядов, в ней сочетаются такие факторы, как анархизм, ультраконсерватизм и национализм, фашизм.

Борьба с терроризмом занимает особое место в деятельности международных организаций. В документах этих объединений упоминается важность совместных усилий государств мира в борьбе с терроризмом. Борьба с международным терроризмом является одним из приоритетных вопросов в политике Азербайджанского государства.

**Vugar Salimov**

## THE PHILOSOPHICAL VIEW OF INTERNATIONAL TERRORISM

### Summary

Various aspects of international terrorism are studied in the social sciences and humanities. In research conducted in this area, studying the problem from a philosophical

point of view is of current importance. The problem of terrorism is analyzed in philosophy from ontological, epistemological, and axiological aspects.

Terrorism is a social phenomenon that arises as a result of the interdependence of violence, mystical and radical worldviews, and harmful ideologies. The symbiosis of these factors leads to activities that contradict progressive political, legal, and moral norms. In the terrorist consciousness, society is divided into “friends” and “strangers”; the main place is occupied by aggression, radicalism, and extremism. International terrorism manifests itself in various forms, causes casualties and conflicts between countries, and threatens humanity with its global negative consequences.

One of the main goals of international terrorism is to create confusion and tension in public opinion through terrorist acts. The rapid dissemination of information about a terrorist attack makes it a widely discussed event as a key element of terrorist tactics. In this direction, the capabilities of information and communication technologies, especially social networks, are abused, and harmful and destructive ideas are spread through them.

To study the nature of terrorism, it is important to analyze the underlying ideologies. The ideology of terrorism consists of a set of radical, extremist ideas and views that express the interests of various subjects of social relations and justify violence. This ideology mainly arises as a result of the synthesis of various political and religious views; it combines factors such as anarchism, ultra-conservatism, nationalism, and fascism.

The fight against terrorism is one of the main activities of international organizations. The documents of these organizations mention the importance of joint efforts by the world's states in the fight against terrorism. The fight against international terrorism is one of the priority issues in the policy of the Azerbaijani state.

# ГОСУДАРСТВЕННО - ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА

***Алиева Пери Фарид гызы,***
***магистрант второго курса***
***Бакинского Государственного Университета***
*aliyevaperi1997@gmail.com*

***Ключевые слова:*** СМИ, информационно – коммуникационные технологии, Интернет, информационная безопасность, информационное общество, электронное правительство, Азербайджан, государственная стратегия.

***Açar sözlər:*** KİV, informasiya və kommunikasiya texnologiyaları, İnternet, informasiya təhlükəsizliyi, informasiya cəmiyyəti, elektron hökumət, Azərbaycan, dövlət strategiyası.

***Keywords:*** mass media, information and communication technologies, Internet, information security, information society, electronic government, Azerbaijan, state strategy.

Современное общество можно охарактеризовать как информационное. СМИ, Интернет-технологии стали неотъемлемой частью действительности нашего века. Информационные технологии стали влиять и на политические процессы. Любая политика базируется на информации и знаниях, позволяющих принимать ответственные решения, способные повлиять на дальнейшую судьбу страны [1].

Исключительное влияние СМИ на политическое сознание и поведение граждан демонстрируют решающую роль «четвертой ветви» власти в мире в наши дни. Исследователи СМИ отмечают грядущую эру «медиаакратии» – власти медиа, конструирующей реальность по своим правилам и усмотрению, а не отражающей и интерпретирующей ее.

Конечно, юридически СМИ не являются «продолжением» представительной власти. Принятие обязательных для исполнения решений политического или экономического характера не является спецификой и силой «четвертой власти». Его сила – духовно-идеологическое воздействие на формирование общественного сознания и направленность воли, вытекающие из состояния общественного сознания, общественного мнения и его идеологического содержания.[2]

Выделим следующие особенности современного информационного общества :

- Создание глобальной информационной среды;
- Массовое применение ИКТ;
- Трансформация информации в продукт, формирование и продвижение рынка информации и новостей;
- Повышение уровня системы образования, профессиональной и общей культуры ввиду расширения возможностей коммуникативных систем как на национальном, так и на международном уровнях.
- Формирование для граждан удобной и доступной среды, обеспечивающей возможность получать, использовать и передавать информацию. [3]

Азербайджанская Республика достигла прогресса во всех социально-экономических областях, а также в сфере связи в период независимости. Информационно-коммуникационные технологии (ИКТ) считаются вторым приоритетным направлением после нефтяного сектора, и в последние годы эта деятельность развивалась в Азербайджане более высокими темпами. Современные коммуникационные и информационные технологии позволили добиться успехов в общем развитии страны, повысить уровень интеллекта населения, создать новые возможности для вовлечения в глобальные интеграционные процессы.

В современных условиях в стране необходимы следующие работы и мероприятия: эффективное использование имеющегося потенциала, а также дальнейшее развитие этого потенциала на более высоком уровне; совершенствование коммуникационных и информационных технологий в части их организации, юридического обеспечения, технического развития и кадрового обеспечения; формирование индустрии ИКТ; привлечение новых инвестиций и поддержка бизнеса; следование принципам свободного рынка и добросовестной конкуренции; реализация проектов социальной значимости и другие.

Как показывает международная практика, страны с более высоким уровнем использования ИКТ меньше ощущают влияние экономического кризиса. В этой связи похвально, что взаимосвязанному развитию науки, образования и ИКТ уделяется внимание со стороны правительства Азербайджана. Реализуется ряд последовательных мер по использованию инновационных проектов в сфере науки и техники.

Уровень использования ИКТ в стране зависит от интеллектуального и научного потенциала и является одним из основных показателей развития прозрачности и демократии. Рост роли электронного бизнеса в международной торговле и конкурентоспособности страны приводит к зависимости от ИКТ. Как показывает мировая практика, рост использования ИКТ способствует общему развитию стран, позволяя решать и социально-экономические проблемы, и сокращать бедность [4].

В последнее десятилетие в Азербайджане были предприняты значительные шаги в сфере применения ИКТ. Серьёзные успехи были достигнуты и в применении данных технологий, что, в свою очередь стало одним из приоритетов государственной политики. Нормативной базой для государственной поддержки СМИ в Азербайджане выступают такие документы как Национальная Стратегия развития информационных и коммуникационных технологий в Азербайджанской Республике (2003-2012 гг.) , Государственная Программа развития связи и информационных технологий в Азербайджанской Республике на 2005-2008 гг. (Электронный Азербайджан), Государственная Программа развития связи и информационных технологий в Азербайджанской Республике на 2010-2012 гг. (Электронный Азербайджан).

В целях перехода к информационному обществу **Государственной Программой развития связи и информационных технологий в Азербайджанской Республике были утверждены меры по:**

- Расширению мероприятий по сокращению цифровой отсталости;
- повышению численности пользователей компьютеров;
- просвещению населения в области современных средств информации и коммуникации и их использования, повышению грамотности населения в области ИКТ;
- расширению возможностей ИКТ, включая Интернет для всех категорий населения;
- созданию и развитию информационных ресурсов в социо-культурной среде;
- обеспечению прозрачности деятельности ИКТ, учет международной практики;
- ускорению перехода к электронной экономике;
- осуществлению мероприятий по обеспечению информационной безопасности;
- подготовке квалифицированных кадров в области ИКТ и информационной безопасности [5].

Роль государства в создании информационного общества в Азербайджане выражается в выработке и реализации плана по развитию информационного общества, партнерстве с деловым и гражданским обществом при их выполнении, обеспечении материальной поддержки для реализации принятых мер, оказывающих влияние на стремительное развитие страны и имеющих огромное общественно-политическое значение, определении индикаторов развития информационного общества в АР, развитии и постоянном совершенствовании законодательного урегулирования развития и применения ИКТ, ускоренном развитии науки, образования и культуры, создании современных информационных и коммуникационных технологий и формировании благоприятных условий для ее производства, развитии «электронного правительства», электронизации услуг, оказываемых государственными органами, обеспечении равноправного доступа к информации гражданам, защите авторского права и интеллектуальной собственности, обеспечении информационной безопасности страны, повышении уровня компьютерной грамотности государственных служащих и граждан, имплементации возможностей ИКТ в области укрепления безопасности государства, охране правопорядка, повышении обороноспособности, расширении взаимоотношений с другими государствами и международными организациями в целях интеграции во всемирное информационное пространство [6].

В результате осуществляемых в АР мер в области ИКТ, были реализованы проекты по развитию информационно-коммуникационных технологий, ускорению интеграции АР в глобальное электронное пространство, разработке соответствующих современным стандартам форм общественной и экономической деятельности (электронное правительство, электронная торговля, дистанционное обучение и др.), росту продуктивности во всех сферах экономики, повышению качества продукции и услуг. Сфера развития ИКТ и информационного общества была объявлена одной из приоритетных направлений политики Азербайджана, Распоряжением Президента АР было принято решение об объявлении 2013 года "Годом информационно-коммуникационных технологий".

Внедрение современных информационных технологий, создание электронного правительства (e-gov) создало благоприятные условия в государственных структурах для предоставления электронных услуг гражданам, включая физическим и юридическим лицам, гражданам иных государств и другим лицам, проживающим на территории АР. Создание и внедрение цифрового правительства (e-gov) обеспечило упрощенный доступ к разному спектру электронных услуг повсеместно, независимо от локации просителя. Данная практика способствовала росту эффективности деятельности государственных органов, сокращению затрачиваемого времени, повышению качества электронных услуг, оптимизации электронных услуг и упрощению процесса их реализации.

Одним из составляющих государственно-информационной политики Азербайджана является информационная борьба против клеветы, дезинформации которые распространяются Арменией.

Дезинформация, проводимая армянской стороной, часто практикуется в целях манипулирования общественным мнением, не только в самой Армении, но и за её пределами.

Для компенсирования неудач на передовой, Армения проводила широкомасштабную информационную войну против Азербайджана. Армянской стороной осуществлялись манипуляции и давление на мировую общественность. Однако, противник получал достойный отпор. Азербайджан одержал победу и на этом фронте. Распространяемая Арменией клевета была своевременно опровергнута.

Объективная информация доводилась мировой общественности Азербайджанской стороной. Многочисленные армянские кибератаки также своевременно пресекались.

В целях развития ИКТ в Азербайджане, в 2016 году Президентом была одобрена дорожная карта, которая включает следующие задачи:

**1. Улучшить управленческие структуры, и укрепить ИКТ.**

Для реализации этой цели необходимо создать независимый регулирующий орган, осуществить либерализацию телекоммуникационного рынка, увеличить инвестиции в мобильную инфраструктуру.

**2. Увеличить производительность и оперативную эффективность бизнес-среды.**

В данном направлении особое внимание уделяется расширению области применения цифровых платежей, технологических операций в бизнес-среде, модернизации технологического образования с привлечением предприятия, усовершенствованию электронных систем государственных учреждений, повышению знаний и навыков в сфере ИКТ и применению ИКТ в системе обучения.

**3. Оцифровать правительство и социальную среду.**

Предполагается улучшение информационные системы государственных учреждений и создание комплексной интегрированной инфраструктуры электронного здравоохранения.[7]

В современном мире ИКТ являются важнейшим средством обеспечения устойчивого и постоянного развития страны, усиления ее интеллектуального потенциала, сокращения бедности и безработицы, продвижения бизнеса, развития прозрачности и демократии в обществе. Интернет-технологии также превратились в эффективное средство борьбы с коррупцией. С помощью ИКТ были выработаны новые ценности в области государственного управления, образования, здравоохранения, бизнеса, банковского дела и других сфер. Они превратились в неотъемлемую составляющую общественно-экономических отношений. Развитие СМИ, свобода мысли и слова в Интернете, рост популярности электронных газет и журналов, иностранных и внутренних социальных сетей — это новые возможности Интернет-технологий, предоставленных обществу.

## Список литературы

1. Вершинин М.С. Политическая коммуникация в информационном обществе. М.: Издательство Михайлова, 2001. С. 109.
2. Media system of Azerbaijan: current state and problems, Serhiy Danylenko, Maryna Grynchuk
3. Национальная Стратегия развития информационных и коммуникационных технологий в Азербайджанской Республике (2003-2012 гг.)
4. Information and Communication Technologies in Azerbaijan and Importance of Their Use Zeynalova K.Z.
5. Государственная Программа развития связи и информационных технологий в Азербайджанской Республике на 2010-2012 гг. (Электронный Азербайджан)
6. Национальная стратегия по развитию информационного общества в Азербайджанской Республике на 2014-2020 годы
7. Government of Azerbaijan. 2016. Strategic Roadmap for Development of Telecommunications and Information Technologies in Azerbaijan Republic. Baku

## Государственно - информационная политика Азербайджана

**Алиева Пери**

**Аннотация**

Холодная война характеризует период сразу после Второй мировой войны, который привел к различным изменениям в мировой политике и международных отношениях. Этот период начался в 1945 году и продолжался до 1991 года. Он характеризуется как глобальный политический конфликт и гонка ядерных вооружений между двумя крупнейшими военными державами — Соединенными Штатами и Советским Союзом. Холодную войну называли «холодной», потому что между двумя сторонами не было открытого военного вмешательства, а между двумя сверхдержавами шла политическая, экономическая и дипломатическая борьба. Этот период был периодом развития ядерного оружия, начала космической гонки и прокси-войн. Создание таких военных союзов, как НАТО и Варшавский договор, привело к разделению мировой культуры между разными идеологиями и ценностями двух сверхдержав. В этот период произошли крупные события, такие как Карибский кризис, Берлинский конфликт и напряженность на Корейском полуострове. Окончание Холодной войны произошло в 1991 году с распадом Советского Союза. Это привело к серьёзным изменениям в мировой политике и возникновению новых глобальных отношений. В современном мире последствия эпохи «холодной войны» все еще ощущаются и обсуждаются в политической, экономической и культурной истории.

# ŞUŞA BƏYANNAMƏSİ VƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI YENİ MƏRHƏLƏDƏ REGİONDA TƏHLÜKƏSİZLİYİN TƏMİNATI KİMİ

***İskəndərova Minayə Mehman***
***BDU-nun II kurs magistrantı***
*ilahaiskanderova@gmail.com*

***Açar sözlər*:** Şuşa Bəyannaməsi, Azərbaycan-Türkiyə münasibətləri, hərbi-siyasi müttəfiqlik, Zəngəzur dəhlizi, Cənubi qafqaz.

***Key words*:** Shusha declaration, relations between Azerbaijan and Turkey, military-political alliance, Zangezur corridor, South Caucasus.

***Ключевые слова*:** Шушинская декларация, Азербайджано-Турецкие отношения, военно-политический союз, Зангезурский коридор, Южный Кавказ.

44 günlük vətən müharibəsi sonrasında imzalanmış ən mühüm sənədlərdən biri də, Şuşa bəyannaməsidir. 15 iyun 2021-ci il tarixli Şuşa bəyannaməsi, Azərbaycan və Türkiyə arasındakı əlaqələrin yeni inkişaf mərhələsi hesab olunur. Bəyannamənin məzmunu 1921-ci ildə imzalanmış Qars müqaviləsi ilə oxşarlıq təşkil edir. Qars müqaviləsindən 100 il keçməsinə baxmayaraq Türkiyə yenədə Azərbaycana qarşı öz mövqeyini qoruyub saxlayır. Şuşa bəyannaməsinin siyasi prizmadan əhəmiyyəti Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, ikinci qarabağ müharibəsində Türkiyənin Azərbaycanı mənəvi-siyasi cəhətdən dəstəkləməsi dövlətimiz tərəfindən daima yüksək qiymətləndirilir. İki dövlət arasındakı əlaqələr Heydər Əliyevin qeyd etdiyi kimi "Bir millət iki dövlət" tezisinə əsaslanır [2]. Bəyannamənin imzalanması iki dövlət arasında qardaşlıq münasibətlərinin göstəricisidir.

Hal-hazırda Azərbaycan-Türkiyə əlaqələri özünün ən yüksək mərhələsindədir. Ölkələrimiz arasındakı müttəfiqlik münasibətləri müxtəlif strateji sahələri- təhsil, mədəniyyət, iqtisadiyyat, siyasət, nəqliyyat-kommunikasiyanı əhatə edir. Xalqlarımız ortaq eyni köklər, din və dil faktoru, tarix, mədəniyyət, milli dəyərlər və milli maraqlar kimi bir çox digər qarşılıqlı bağlara malikdirlər.

Şuşa bəyannaməsində dünya birliyinə verilən tutarlı mesajlar:

- Şuşada baş konsulluğun açılması.
- Azərbaycan və Türkiyə hərbi, siyasi və digər sahələrdə tam müttəfiqdirlər.
- İki qardaş ölkənin əmin-amanlığa və sülhə sadiqliyi.

Dövət başçısı tərəfindən müttəfiqlik bəyannaməsinin iki ana tezisi - hərbi sahədə əməkdaşlığın gücləndirilməsi və strateji potensiala malik Zəngəzur dəhlizi məsələləri irəli sürülmüşdür.

Bəyannamənin əsas müddəaları beynəlxalq hüququn əsas prinsiplərinə, Birləşmiş millətlər təşkilatı nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq müəyyənləşdirilmişdir. Bəyannamənin diqqət çəkən əsas müddəalarından biri hərbi sahədə əməkdaşlıq, qarşılıqlı hərbi yardım məsələsidir. Tərəflərin təhlükəsizliyinə qarşı digər dövlət vəya dövlətlər tərəfindən xarici təhdidlər, təcavüz kimi hallar olarsa, tərəflərin bu kimi halların qarşısının alınması məqsədilə beynəlxalq sənədlərə yəni BMT nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünü müdafiə tədbirləri həyata keçirəcəklər. Beləliklə, iki dövlət arasındakı qardaşlıq münasibəti müttəfiqlik münasibətinə çevrildi. Azərbaycanın təhlükəsizlik təminatı daha da möhkəmləndirildi. Hərbi sahədə qarşılıqli yardım müddəası Şimali atlantika müqaviləsi təşkilatının ən önəmli maddələrindən hesab olunan 5-ci maddəsi ilə mahiyyət etibarı ilə eyni məzmuna sahibdir. Bəyannamədə təkcə ortaq təhlükəsizlik və onun təmin olunması deyil, həmçinin təhlükəsizliyi təmin edəcək hərbi sənayenin yaradılması əsas müzakirə mövzusudur.

Eyni zamanda silahlı qüvvələrimizin türk standartlarına uyğunlaşdırılması modeli və təkmilləşdirmə tədbirləri bəyannamədə öz əksini tapıb. Xarici təhdid, hücum vəya digər və-

ziyyətlərdə birgə məsləhətləşmələrin həyata keçirilməsi. Terrozim kimi beynəlxalq əhəmiyyətli təhdidlərə qarşı birgə səylə mübarizə məsələləri xüsusi əhəmiyyət kəsb edir. Türkiyənin dünyanın ən böyük hərbi-siyasi alyansı olan Nato-nun üzvü olması, müasir texnologiyalara sahib olması onun hərbi prizmadan üstünlüyünün göstəricisidir. Azərbaycanın xarici siyasətində, belə üstün mövqeyə malik olan ölkə ilə müttəfiqlik xüsusi əhəmiyyətə malikdir.

Tərəflər arasındakı birgə əməkdaşılığın əsas sahələrini aşağıdakı şəkildə qeyd etmək olar:

- birgə maraqların müdafiəsi sahəsində qarşılıqlı əməkdaşlıq.
- Milli maraqlara əsaslanan ərazi bütövlüyü və suverenlik kimi məsələlərdə əməkdaşlıq.
- Tərəflər arasında ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi həmçinin ortaq maraq doğuran məsələlərdə həmrəylik.
- Beynəlxalq nüfuza malik təşkilatlar çərçivəsində tərəflərin bir- birilərinin mövqelərinin dəstəkləməsi.

Bəyannamənin ortaya qoyduğu məsələlərdən biri də beynəlxalq arenada effektiv fəaliyyət üçün diaspora təşkilatlarının qarşılıqlı fəaliyyət göstərməsidir. Burada əsas məqsəd milli mənafelərin müdafiəsi və tarixi həqiqətlərin dünya birliyinin diqqətinə çatdırılmasıdır. Diaspora sferasında qarşılıqlı əlaqələrin genişlənməsi beynəlxalq aləmdə daha səmərəli fəaliyyət üçün əlverişli mühit yaradacaq. Bəyannamədə diaspora istiqamətində gələcəkdə geniş miqyaslı tədbirlərin aparılması öz əksini tapmışdır.

Şuşa bəyannaməsinin əsas üstün cəhətlərindən biri də Təhlükəsizlik Şurasının birgə iclaslarının keçirilməsi idi. Birgə iclasların əsas məqsədi təhlükə yaranmadan qabaq preventiv tədbirlərin görülməsi, mütəmadi şəkildə təhlükələrin qiymətləndirilməsi, əlaqələndirmə mexanizmi və onun icrasıdır. Təhlükəsizlik Şurasının birgə iclaslarının keçirilməsi yeni dünya nizamında, xüsusəndə regionumuzda Azərbaycanı və Türkiyəni söz sahibi edəcək.

Sənədin ortaya qoyduğu mühüm məsələlərdən biri də soydaşlarımızın işğaldan azad olunmuş ərazilərə qaytarılması məqsədilə həmin ərazilərdə normal infrastrukturun qurulması yenidən qurma və bərpa işləri istiqamətində lazımi tədbirlərin həyata keçirilməsi istiqamətində əməkdaşlıq və birgə fəaliyyət. Həmin ərazilərdə sərmaye qoyuluşu prosesinin stimullaşdırılması və yüksələn investisiya potensialı yeni iqtisadi əlaqələrin yaranmasına səbəb olacaq.

44 günlük vətən müharibəsi sonrasında Azərbaycan Respublikası iqtisadi potensiala malik olan nəqliyyat-kommunikasiya layihələrinə xüsusi əhəmiyyət vermişdir. Azərbaycan Respublikası tarixi ədaləti və ərazi bütövlüyünü bərpa edərək, Cənubi Qafqaz regionunda yeni geostrateji reallıqlar formalaşdırmışdır. Yeni geostrateji reallıqlar yalnız region dövlətləri üçün deyil, bütövlükdə beynəlxalq münasibətlərin aparıcı subyektləri üçün də xüsusi əhəmiyyətə malik olmuşdur. Müttəfiqlik haqqında imzalanmış Şuşa bəyannaməsində də Azərbaycan və Türkiyə arasında nəqliyyat-kommunikasiya münasibətlərinin inkişafı məqsədilə Zəngəzur dəhlizi layihəsinin reallaşdırılması məsələsi öz əksini tapıb. Dəhlizin növbəti mərhələsi kimi Naxçıvan-Qars dəmiryolu layihəsinin reallaşdırılması tədbirləri də bəyannamədə öz əksini tapıb. Böyük iqtisadi potensiala malik layihənin reallaşması Cənubi Qafqaz regionu üçün çox böyük geosiyasi əhəmiyyətə malikdir.

Azərbaycan üçün Zəngəzur dəhlizinin əhəmiyyəti:

- Bu layihə Naxçıvanla Azərbaycan arasında nəqliyyat körpüsü rolunu oynamaqla faktiki olaraq Naxçıvan Muxtar Respublikasının nəqliyyat-kommunikasiya blokasından azad olunması. Naxçıvan Muxtar Respublikası ilə quru sərhədlərin bərpası.
- Dəhliz boyunca yeni istehsal sahələrinin və böyük sənaye zonalarının yaradılması.
- Azərbaycanın geostrateji mövqeyi güclənəcək.
- Azərbaycanın tranzit imkanları genişlənəcək. Beləliklə Avrasiyanın mühüm logistika və nəqliyyat mərkəzinə çevriləcək.

Türkiyə üçün Zəngəzur dəhlizinin əhəmiyyəti:

- Orta asiya ölkələri ilə Xəzər dənizi vasitəsilə əlaqə yaranacaq və bu marşrutla Türkiyə məhsulları Mərkəzi Asiyaya çatdırılacaq.

Dəhlizin reallaşması ilə regional ticarətə müsbət təsir göstərən iqtisadi əməkdaşlıq mexanizmi formalaşacaq.

Müttəfiqlik bəyannaməsində enerji təhlükəsizliyi sahəsində Cənub qaz dəhlizi layihəsinin səmərəliliyinin və funksionallığının artırılması məsələləri öz əksini tapmışdır. Məlum olduğu kimi iki qardaş ölkə qlobal əhəmiyyətə malik olan layihələr çərçivəsində enerji təhlükəsizliyinin təmin olunması istiqamətində fəal əməkdaşlıq edirlər. Azərbaycan Respublikası beynəlxalq arenada enerji təhlükəsizliyinin təmin olunması sahəsində etibarlı tərəfdaş statusuna malik olan ölkələrdəndir.

Bu müddəalar tərəflər arasında yeni yaxınlaşma kursunun göstəricisidir. Bütün müstəviləri əhatə etməklə Azərbaycanın beynəlxalq  nüfuzunu gücləndirəcək.

Cənubi qafqaz regionu üçün Şuşa bəyannaməsinin əhəmiyyətini aşağıdakı şəkildə qiymətləndirmək olar:

Birgə bəyannamə qlobal və regional təhlükəsizliyin təmin olunmasında böyük rol oynayır.

Tərəflərin birgə təşəbbüslərinin əsas məqsədi regionda sülhün, təhlükəsizliyin, sabitliyin və barışın gücləndirilməsidir. Tərəflər arasındakı münasibətlərin yüksək səviyyədə inkişafı yalnız tərəflərin deyil, həmçinin də regionun ümumi tərəqqisinə mühüm töhfələr verəcək.  Bəyannamənin imzalanması ilə Türkiyə Cənubi Qafqazda iki böyük gücdən birinə çevrildi. Cənubi Qafqazda Azərbaycanın və Türkiyənin mövqeyi möhkəmləndi. Azərbaycanın qlobal geosiyasi sistemə sürətli inteqrasiyasına təkan verdi.  Bəyannaməni Qars müqaviləsinin davamı adlandırmaq olar. Bəyannamə regional təhlükəsizliyə töhfə vermək məqsədilə imzalanıb. Bəyannamə hər hansı üçüncü dövlətə qarşı yönəlməmişdir əksinə üçüncü dövlətlərlə əməkdaşlığa açıqlığı nəzərdə tuturdu. Əməkdaşlıq qismində Ermənistana da təkliflər səsləndirilmişdir ki, bu da öz növbəsində regiondakı münasibətlərin normallaşdırılması məqsədi daşıyırdı. Hər nə qədər bəyannamənin regiona təhdid deyil, sülh məqsədilə hazırlandığı qeyd olunsa da, Ermənistan yenə də bu bəyannaməni öz əleyhinə hazırlanmış müttəfiqlik bəyannaməsi kimi dəyərləndirilmişdir [6, s.8].

Dövlət başçıları Şuşa bəyannaməsinin əhəmiyyətini aşağıdakı şəkildə qiymətləndirmişdir:

- Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Şuşa bəyannaməsinin əhəmiyyətini lakonik və dolğun şəkildə yüksək dəyərləndirərək: "Bəyannamə yaxşı bir əməkdaşlıq sənədi olmaqla yanaşı gələcək münasibətlər üçün zəmanətdir"[3]
- Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə Şuşa bəyannaməsi ilə ikitərəfli münasibətlərdə yeni bir yol xəritəsi təyin etdiklərini bildirdi.[3]

## ƏDƏBİYYAT

1. Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb.15 iyun 2021.
https://president.az/az/articles/view/52115

2. Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan Respublikasının müstəqillik tarixində ən önəmli hadisələrdən biridir. 14 iyul 2021.
https://mod.gov.az/az/pre/36788.html

3. Şuşa Bəyannaməsi regional və qlobal təhlükəsizliyə zəmin yaradır. Xalq qəzeti 20 iyun 2021.
http://www.anl.az/down/meqale/xalqqazeti/2021/iyun/748464(meqale).pdf

4. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti çox böyükdür. İki sahil ictimai-siyasi qəzeti. 18 iyun 2021.
https://ikisahil.az/post/227755-shusha-beyannemesinin-tarixi-ehemiyyeti-chox-boyukdur
5. Şuşa Bəyannaməsi Zəfər tariximizin siyasi zirvəsidir. Şərq qapısı. 14 fevral 2024. https://serqqapisi.gov.az./index.
6. Şuşa Beyannamesinin Önemi ve Olası Etkileri. Manas Sosyal Araştırmalar Dergisi. https://dergipark.org.tr/en/download/article-file/2842605

**İskəndərova Minayə**
**Şuşa Bəyannaməsi və Azərbaycan-Türkiyə əməkdaşlığı yeni mərhələdə regionda təhlükəsizliyin təminatı kimi**
**XÜLASƏ**

Bu məqalədə, Qədim mədəniyyət beşiyi və Qarabağın tacı hesab olunan Şuşa şəhərində imzalanmış, Şuşa bəyannaməsinin Azərbaycan və Türkiyə münasibətlərindəki rolu əhəmiyyətli şəkildə tədqiq olunmuşdur. Həmçinin Şuşa bəyannaməsinin əsas müddəalarının mahiyyəti təhlil olunmuşdur. Məqalədə, Cənubi Qafqaz regionunda təhlükəsizliyin, sülhün və sabitliyin təminatında Şuşa bəyannaməsinin rolu qeyd edilir. Həmçinin hər iki ölkə arasında əməkdaşlığın yeni mərhələsi və beynəlxalq əhəmiyyəti qeyd edilir.

**Iskanderova Minaya**
**The Shusha Declaration and Azerbaijan-Turkey cooperation as a guarantee of security in the region at a new stage.**
**SUMMARY**

İn this article, the role of the Shusha Declaration signed in the city of Shusha, which is considered the cradle of ancient culture and the crown of Karabakh, in the relations between Azerbaijan and Turkey is significantly studied. The essence of the main provisions of the Shusha Declaration was also analyzed. The article mentions the role of the Shusha Declaration in ensuring security, peace and stability in the South Caucasus region. The new stage of cooperation between the two countries and its international importance are also noted.

**Искандерова Миная**
**Шушинская Декларация и Азербайджано-Турецкое сотрудничество как гарантия безопасности в регионе на новом этапе**
**АННОТАЦИЯ**

В данной статье она была подписана в городе Шуша, который считается колыбелью древней культуры и короной Карабаха, а также существенно изучена роль Шушинской декларации в отношениях между Азербайджаном и Турцией. В данной статье существенно изучена роль Шушинской декларации в отношениях между Азербайджаном и Турцией, подписанной в городе Шуша, который считается колыбелью древней культуры и короной Карабаха. Также была проанализирована суть основных положений Шушинской декларации. В статье отмечена роль Шушинской декларации в обеспечении безопасности мира и стабильности в регионе Южного Кавказа. Также отмечен новый этап сотрудничества между двумя странами и его международное значение.

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

## AZERBAYCAN RESPUBLİKASININ NEFT SƏNAYESİ VƏ ONUN İNKİŞAF TARİXİ

***professor Pəri Həsənova***
***BDU-nun İqtisadiyyat kafedrası***
***Qurbanov Novruz Ədalət oğlu***
***BDU-nun II kurs magistrantı***
*novruzzqurbanovv@gmail.com*

***Açar sözlər:*** Azərbaycanın neft sənayesi, tarixi mərhələlər, neft yataqları, yeni strategiya, əsrin müqaviləsi.

***Ключевые слова:*** Нефтяная промышленность Азербайджана, исторические этапы, запасы нефти, новая стратегия, контракт века

***Keywords:*** Oil industry of Azerbaijan, historical stages, oil reserves, a new strategy, contract of the Century

Şübhəsiz ki, neft ölkəsi deyildikdə ilk ağla gələn ölkə Azərbaycandır. Dünyada neftin tarixi vətəni Azərbaycan sayılır. Azərbaycanın neft diyarı olduğunu, burada zəngin neft hasilatı haqqında məlumatları hələ erkən orta əsrlərdə yaşamış tarixçilər, coğrafiyaşünaslar və səyyahlar ( Əhməd Əl-Bəlaruri (IX əsr), Əbu-İshaq İstəxri (XI-X əsrlər), Əbu-d-Həsən Əli Məsudi (X əsr) ) öz əsərlərində dəfələrlə qeyd etmişlər. Hətta onlar Abşeronun "ağ" və "qara" nefti barəsində və Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğu haqqında bir çox məlumatlar qeyd ediblər.

Azərbaycan neft sənayesinin inkişaf tarixi bir neçə mərhələyə ayırmaq olar: **I mərhələ** - 1846-cı ildə 21 metr dərinliyində Bibiheybət neft yatağında yerləşən quyudan sənaye üsulu ilə neft çıxarılıb və bu hadisə dünyada bir ilk idi. Elə məhz həmin ildən də Azərbaycanın neft sənayesinin inkişafının tarixi başlanır.

1859-cu ildə ilk neftayırma zavodu (qurğusu) Bakıda tikildi. 1863-cü ildə Cavad Məlikov Bakıda kerosin zavodu inşa etdirib və dünyada ilk dəfə bu zavodda neftayırma prosesində fərqli metoddan istifadə edildi. Bu metod prosesdə soyuduculardan istifadə etmək idi. 1867-ci ildə Azərbaycanda 15 neftayırma qurğusu fəaliyyət göstərirdi.

Texnologiya inkişaf etdikcə və mexaniki üsulla quyuların qazılması nəticəsində bir sıra yeni neft yataqları aşkar olunur (Binəqədi, Pirallahı a., Suraxanı və s.), neft hasilatı getdikcə artır, neft sənayesinin əsas infrastrukturları və neftin emalı səviyyəsi yüksəlməyə başlayır. Bunun nəticəsində də neftin hasilatı, emalı və satışı üzrə yüzlərlə şirkətlər yaradılırdı. Bu da öz növbəsində Azərbaycanın milli burjuaziyasını formalaşdırırdı. Beləliklə Bakı şəhəri dünyanın önəmli sənaye mərkəzlərindən birinə çevrilirdi.

İlk addım olaraq Abşeron yarımadasında 1871-ci ildə Balaxanı-Sabunçu-Ramanı yatağının sənaye üsulu ilə işlənilməsi planı həyata keçirilməyə başlandı. İlk dəfə 1872-ci ildə neft sənayesində münasibətləri tənzimləmək məqsədilə qanun qəbul edilib və bu qanunlar belə idi: "Neft mədənləri və neft məhsullarından aksiz vergisi haqqında" və "İcarədarların əlində olan neftli sahələrin hərracla fiziki şəxslərə satılması". 31 dekabr 1872-ci ildə neftli sahələrin ilk satışında Balaxanıda 15 sahə, Bibiheybətdə 2 sahə hərraca çıxarıldı.

Həmin dövrdə bir qayda olaraq dövlətə mənsub olan istifadəsiz torpaqlarda neft axtarışı və aşkar edilmiş neftli sahələrin istismarı üçün 24 il müddətinə icarəyə verilirdi və

icarədar onun satış qiymətini təyin etmək və hasil etdiyi nefti ixrac etmək hüququna malik idi.

Sahibkarın neftin satışından əldə etdiyi xalis qazanc 14% ilə 15% aralığında idi. 19-cu əsrin 70-ci illərində neft sənaye sahəsində xalis milli valyutanın qoyuluşu cəmi 4% idi və 10% isə qarışıq valyutaya daxil edilirdi. 19-cu əsrin sonlarına doğru neft sənayesi sahəsində xidmət göstərən göstərən 166 sahibkarın 48-i (təqribən 23%-i) yerli vətəndaşlar idi. Elə məhz həmin dövürdə neft sənayesinin inkişafında milli "neft milyonçuları"nın (Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuz Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayev və b.) əvəzssiz rolları oldu. Azərbaycanda ilk səhmdar neft şirkəti Bakıda 1874-cü ildə yaradıldı və bu səhmdar şirkət "Bakı neft cəmiyyəti" adlandırıldı. 1876-cı ildə Nobel qardaşları tərəfindən Bakıda neft hasilatı və emalı üzrə neft şirkəti fəaliyyətə başladı. Həmin vaxtlar Azərbaycanda bir çox neft mədənləri, neft emalı fabrikləri, ilk dəfə Xəzər dənizində quraşdırılmış neftdaşıyan tanker, barjlar, dəmir yolları, mehmanxanalar və s. Nobel qardaşlarının tabeliyində idi. 1876-cı ildə neft məhsullarına aksiz verqisi ləğv edildikdən sonra yeni neftayırma zavodlarının tikintisinə başlanıldı və tez bir zamanda istismara verildi. 1878-ci ildə Rusiyada ilk neft kəməri inşa edildi və bu boru Balaxanı yatağı ilə Bakı neftayırma zavodunu birləşdirirdi, boru 12 km uzunluğunda idi. Hələ 1898-ci ildə neft mədənləri ilə Bakı neftayırma zavodlarını birləşdirən neft kəmərlərinin ümumi uzunluğu 230 km idi.

1883-cü ildə Bakı-Batum dəmir yolu tikilib istifadəyə verilir ki, bu da Azərbaycanın neft və neft məhsullarının ilk dəfə Avropa ölkələrinə ixrac edilməsinə şərait yaratdı və bu neftdən alınan gəlirin artmasında mühüm əhəmiyyətə malik idi. 1883-cü ildən Rotşild Bakıda maliyyə-kredit əməliyyatlarına və neftin satışı ilə məşğul olmağa başladı və 3 il sonra Rotşildin Xəzər-Qara dəniz neft müəssisəsi yaradıldı. 1890-cı ildə Rotşildin bankı Bakı neftinin ixracının 42%-nə tam şəkildə nəzarət edirdi. İlk olaraq 1901-ci ildə Azərbaycanda 11 milyon ton neft hasil edildi ki, bu da dünya neft hasilatının yarısından çoxunu təşkil edirdi. İlk dəfə 1880-ci ildə məşhur kimyaçı-alim D.İ.Mendeleyev tərəfindən Azerbaycan neftinin dünya bazarlarına çıxarılmasını təmin etmək üçün Bakı-Batum neft kəmərinin çəkilməsi təklifini irəli sürdü və uzunluğu 833 km olan kəmərin tikintisinə 1897-ci ildə başlanıldı, 1907-ci ildə uğurla başa çatdırıldı.

**II mərhələ** - bu mərhələ 1920-ci ildə Azərbaycanda neft sənayesinin milliləşdiril-məsindən sonra başlayır və 1949-cu ildə açıq dənizdə "Neft Daşları" yatağının kəşfi dövrü daxildir. Qeyd etmək lazımdır ki, 1921-ci ildə neft hasilatı 2,4 milyon tonadək azaldı.

**III mərhələ** - bu mərhələdə axtarış-kəşfiyyat işlərinin genişləndirilməsi ilə əlaqədar Azərbaycanda bir neçə yeni neft yataqları (xüsusilə Qala, Buzovna-Maştağa və s.) aşkar edilərək istismara başlanıldı. Neft hasilatı 1941-ci ildə 23,6 milyon tona çatdırıldı ki, bu da o dövrdə SSRİ-nin neft hasilatının 76%-ni təşkil edirdi.

7 noyabr 1949-cu ildə Neft Daşlarında 942 metr dərinliyində 1№-li quyu gündə 100 ton hasilatla istismara daxil oldu və ilk dəfə dənizdən neftçıxarmanın təməli qoyuldu və bu yataq üzrə ilk geoloq Ağa Qurban Əliyev idi.

**IV mərhələ** - bu mərhələyə 1950-ci ildə "Neft Daşları" yatağının istismara verilməsi və Azərbaycanda dəniz neft sənayesinin inkişafı ilə başlayaraq, 1969-cu ilə kimi davam edib. Bu dövürdə dəniz geoloji-kəşfiyyat işləri genişlənir, bir sıra neft və qaz yataqları aşkar edilərək istismara verildi (Qum-dəniz, Səngəçal-Divannı-dəniz-Xərə-Zirə a. və s.), dəniz qazma işlərinin, hidrotexniki neft qurğularının tikilməsinin texnika və texnologiyası, dənizdə neftçıxarmanın infrastrukturu daha da inkişaf etdirildi. Dünyada ilk dəfə olaraq açıq dənizdə estakada dirəkləri üzərində dəniz mədəni inşa edildi və öz növbəsində bu bir-biriylə əlaqəli mühəndis və elmi-texniki tədbirlərin tətbiqi nəticəsində külli miqdarda kapital qoyuluşuna, metala qənaət edilərək yüksək əmək məhsuldarlığına, neftin hər bir tonunun maya dəyərinin aşağı düşməsi ilə nəticələndi.

**V mərhələ** - bu mərhələyə 1969-cu ildən başlayaraq Azərbaycanın bütün sənaye sahələri kimi neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə addım atması ilə səciyyələnir və bu da ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə daxildir. 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi yaradıldı və SSRİ Neft Sənayesi Nazirliyi Xəzərdə Azərbaycan neftçilərinin dəniz şəraitində iş aparmaq təcrübəsini nəzərə alaraq Xəzərin bütün sektorlarında (həmin ildən Xəzər sektorlara bölündü) geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılması birbaşa Azərbaycan neftçilərinin öhdəliyinə verildi.

**VI mərhələ** - bu dövr SSRİ-nin dağılmasını, müstəqillik dövrünü və Azərbaycanın yeni tarixini əhatə etməklə "Yeni neft strategiyası"nın yaranması ilə nəticələnir.

Belə ki ,1993-1994-cü illərdə Azərbaycanın müstəqil inkişafının əsas vasitəçisi kimi ümummilli lider Heydər Əliyevin əvəzssiz xidmətləri və rəhbərliyi altında ölkəmiz özünün yeni neft stratejik metodlarını müəyyən etdi. Bu strategiyanın önəmli aspektləri bundan ibarət idi ki, Azərbaycanın zəngin neft-qaz ehtiyatlarının müasir və qabaqcıl texnika və texnologiyanın köməyi ilə hasilatı,bu resursun səmərəli istifadəsi, xarici bazarlara ixrac olunması, satışı və bu sahədən əldə olunan gəlirlərin bu sənayenin düzgün və davamlı şəkildə inkişaf etdirilməsinə yönəldilməsi, bu demək olar ki, bütün problemlərinin həlli üçün ən önəmli nüans ola bilər.

Lakin Azərbaycan öz məhdud maliyyə və texniki imkanları ilə Xəzər dənizinin zəngin karbohidrogen yataqlarını işləməyə, kifayət qədər neft və qaz hasil etmək iqtidarında deyildi. Məhz bu səbəbdən də Azərbaycanın dünya təcrübəsinə müraciət etmək, dünyanın maliyyə vəsaitinə, müasir texnika və texnologiyaya malik olan ölkələri və şirkətləri ilə qarşılıqlı əlaqə yaratmaq, onların bu sahəyə sərmayə yatırmasına lazımi şərait yaratmaq vacib idi və yalnız bu metodla Azərbaycan neft sənayesinə çox böyük məbləğdə xarici valyuta cəlb edə və eləcədə neft və qaz hasilatını təqdirə layiq şəkildə artıra bilərdi.

Möhtərəm Heydər Əliyevin qətiyyəti, əzimkarlığı, uzaqgörənliyi və inandırıcı addımları sayəsində 1994-cü il sentyabr ayının 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici dövlətlərin neft şirkətləri qrupu (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti- ABƏŞ) arasında **"Əsrin müqaviləsi"** adını almış və 1994-2024-cü illəri əhatə edən Hasilatın Pay Bölgüsü Sazişi hər iki tərəfin iştirak etməsi ilə qol çəkildi. Bunun nəticəsi olaraq Azərbaycan dövlətinin yeni neft strategiyası rəsmiləşdirilirdi.

Bu mərhələdən sonra "Əsrin müqaviləsi"nin müqavilə çərçivəsində hasil olunacaq neftin Qərb bazarlarına nəqli marşrutu müzakirə olundu və bu proses daha da aktuallaşdırıldı. Bakı-Novorossiysk və Bakı-Tbilisi-Supsa neft kəmərlərindən əlavə Bakı-Tbilisi-Ceyhan (BTC) ixrac boru kəmərinin reallaşdırılması mütləq bir amil hesab edildi.

Möhtərəm lider ulu öndər Heydər Əliyev Bakı-Tiblisi-Ceyhan boru kəmərinin nə dərəcədə önəmli olduğunu vurğulamış və bildirmiş ki, bu boru kəməri nəinki iqtisadi baxımdan, eləcə də siyasi baxımdan olduqca xüsusi əhəmiyyətə malikdir və ulu öndərin uzaqgörənliyi nəticəsində ölkəmizin iqtisadiyyatının və sənaye sahələrinin daha da inkişaf etdirilməsi məqsədilə bir sıra sazişlər imzalanmış və artiq sənaye sahələrinin davamlı inkişafı üçün əmin addımlar atılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə BTC-nin fərziyyədən reallığa çevrilməsinə nail olundu. Azərbaycanda 2005-ci il may ayının 25-də kəmərin neftlə doldurulması münasibəti ilə müxtəlif qeydetmə tədbirləri keçirildi.

2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə ölkəmiz üçün rəmzi səciyyə daşıyan önəmli hadisəyə çevrildi.

Nəticədə, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında hər üç dövlətin prezidentlərinin iştirakı ilə BTC tam istismara təqdim olundu. Tədbirdə çıxış edən dövlət başçısı cənab İlham Əliyev qeyd etmiş ki, bu gün hər birimiz bir daha şahid olduq ki, bu böyük transmilli layihənin əsas təməli məhz 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi"

layihəsinin imzalanması ilə başlanıb. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin əzmkarlığı və uzaqgörənliyinin nəticəsi kimi "Əsrin müqaviləsi" imzalandı və bundan sonra bütün məsələlər öz lazımi həllini tapdı. Beləliklə yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı və neft emalı prosesində qabaqcıl, üstün texnologiyalardan istifadə olnumağa başlanıldı . Həmin illər Azərbaycanda çox ciddi təlatüm müşahidə olunurdu, Azərbaycan böyük təzyiqlərə məruz qalırdı. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif mənfi reaksiyalar verirdi. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin şəxsi iradəsi, qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını inkişaf etdirə bilsin və bütün bunların nəticəsində bu gün məhz bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır".

2017-ci sentyabr ayının 14-ündə ildə Bakı şəhərində Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azər, Çıraq və Günəşli yataqlarının dərinlikdə mövcud olan hissələrin kompleks işlənməsi və eləcədə neft hasilatının pay bölgüsü barəsində müsbət yöndə dəyişikliklər planlaşdırıldı və yüksək dəqiqliklə tərtib edilmiş sazişin imzalanması mərasimi baş tutdu. Təzə sazişə əsasən Azəri-Çıraq-Günəşli neft yatağının tam bitməsi 2050-ci ilə kimi uzadıldı. Bu saziş Azərbaycana paralel şəkildə əcnəbi investorlar tərəfindən 3,5 milyard dollar bonus ödənilməsini və SOCAR-ın payının 11%-dən 25%-ə artmasını göstərdi və beləliklə, Azərbaycanın payına düşən gəlir neftin səviyyəsinin 75% həcmində olması planlaşdırılır. Bu sazişlə Azərbaycanda neft sənayesinin inkişafında yeni bir mərhələnin əsası qoyulur və mən bu məqaləni möhtərəm umummilli liderimiz **Heydər Əliyev'in** sözləri ilə bitirmək istəyirəm: "***Azərbaycan, Bakı öz nefti ilə dünya şirkətlərini, iş adamlarını XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindən cəlb etmiş və bir çox xarici şirkətlər burada uğurlu fəaliyyət göstərmiş, neft hasilatını təmin etmişlər. Heydər Əliyev***".

## ƏDƏBİYYAT


1. İsayev Ağaheydər Seyfulla oğlu Neft və qaz sənayesinin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2008
2. Prezident kitabxanas. - 2017.- 8 noyabr. - № 204. - S. 22-25. Azərbaycan neft sənayesinin tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır
3. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı". Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamıilə təsdiq edilmişdir.
4. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dovlət proqramı"nın icrasının üçüncü ilinin yekunları. Uğurlu siyasətin nəticələri. Bakı- 2012.
5. Azərbaycansənayesi. Statistikməcmuə. B., 2015.
6. Azərbaycanregionları. Statistikməcmuə. B., 2015.


# AZERBAYCAN RESPUBLİKASININ NEFT SƏNAYESİ VƏ ONUN İNKİŞAF TARİXİ

*Pəri Həsənova, Qurbanov Novruz*

## XÜLASƏ

Azərbaycan dünyada Neft sənayesi üzrə inkişaf etmiş qabaqcıl ölkələrdən biridir. Azərbaycanın Neft sənayesinin inkişaf tarixini cari dövür daxil olmaqla 6 mərhələdə quruplaşdırmaq olar. Bibiheybət neft yatağında yerləşən quyudan sənaye üsulu ilə neft

çıxarılılması Azərbaycanın neft sənayesinə ilkin addımlarını atmasında tətikləyici rol oynadı. İlk dəfə Azərbyacan neftinin dünya bazarına çıxarılması üçün 1897-ci ildə başlanılan layihənin 1907-ci ildə uğurla tamamlanması. Möhtərəm Umummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Neft sənayesinin inkişafında əvəzssiz rolu.

## НЕФТЯНАЯ ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ИСТОРИЯ ЕЕ РАЗВИТИЯ

***Пари Гасанова, Новруз Гурбанов***

### АННОТАЦИЯ

Азербайджан является одной из передовых стран в нефтяной отрасли в мире. Историю развития нефтяной промышленности Азербайджана можно разделить на 6 этапов, включая современный период. Промышленная добыча нефти из скважины, расположенной на Бибиэйбатском нефтяном месторождении, сыграла пусковую роль в том, что Азербайджан сделал первые шаги в нефтяной отрасли. Успешное завершение в 1907 году проекта, начатого в 1897 году, по первому выводу азербайджанской нефти на мировой рынок. Незаменимая роль уважаемого общенационального лидера Гейдара Алиева в развитии нефтяной промышленности Азербайджанской Республики.

## OIL INDUSTRY OF THE REPUBLIC OF AZERBAIJAN AND ITS DEVELOPMENT HISTORY

***Pari Hasanova, Novruz Gurbanov***

### SUMMARY

Azerbaijan is one of the advanced countries in the oil industry in the world. The history of the development of Azerbaijan's oil industry can be divided into 6 stages, including the current period. The industrial extraction of oil from a well located in the Bibiheybat oil field played a triggering role in Azerbaijan taking its first steps in the oil industry. Successful completion in 1907 of the project started in 1897 to introduce Azerbaijani oil to the world market for the first time. The irreplaceable role of the respected national leader Heydar Aliyev in the development of the oil industry of the Republic of Azerbaijan.

# AZƏRBAYCANDA SƏNAYENİN İNKİŞAFININ ƏRAZİ ÜZRƏ TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***professor Pəri Həsənova***
***BDU-nun İqtisadiyyat kafedrası***
***Qurbanov Novruz Ədalət oğlu***
***BDU-nun II kurs magistrantı***
*novruzzqurbanovv@gmail.com*

***Açar sözlər:*** Regional siyasət, bazar münasibətləri, sənaye strukturunun stimullaşdırılması, aqrar sektordakı islahatlar, sənaye dünya təcrübəsində.

***Ключевые слова:*** Региональная политика, рыночные отношения, стимулирование промышленной структуры, реформы в аграрном секторе, отрасли мировой опыт.

***Key words:*** Regional policy, market relations, stimulation of industrial structure, reforms in the agrarian sector, in industry world experience.

Azərbaycan Respublikasında məhsuldar qüvvələrin əlverişli şəkildə yerləşdirilməsi və bütün regionların iqtisadi patensialından tam şəkildə istifadə olunması ölkənin iqtisadi inkişaf baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkəmiz üçün məhsuldar potensial qüvvələrin ərazi baxımından qeyri-bərabər yerləşməsi səciyyəvidir. Deyə bilərik ki, hələ keçmiş sovetlər dönəmində respublikada regionlar daxilində sosial-iqtisadi inkişaf göstəricisinə görə böyük təzadlar var idi. Belə ki, ölkənin məhsuldar qüvvələrinin çox böyük hissəsi Bakı şəhəri və ətrafında cəmlənmişdi ki, bu göstərici müasir dövrdə də eynidir. Respublika iqtisadiyyatının bazar münasibətlərinə keçidi ərəfəsində ayrı-ayrı regionlarda istehsal göstəricisinin aşağı düşməsi nəticəsində işsizliyin yüksəlməsi sosial-iqtisadi vəziyyətin böhran hal alması, əhalinin regionlardan Bakı və xarici ölkələrə toplu şəkildə axını, bütövlükdə isə ölkənin iqtisadi potensialından istifadə edilməməsi və digər bir çox sosial problemlərin meydana çıxmasına səbəb olmuşdur. Buna görə, indiki dövrdə ölkəmizin iqtisadi rayonlarında mövcud olan iqtisadi potensialdan tam, səmərəli və düzgün istifadə etməklə onların sosial-iqtisadi inkişaf səviyyələrinin artırılması ölkəmizdə aparılan iqtisadi islahatların strateji istiqamətlərindən biri kimi qiymətləndirilmişdir.

Ölkənin sosial-iqtisadi inkişafının təmin olunması regionnarın sosial-iqtisadi, təbii-iqtisadi, demoqrafik, ekoloji və ümumi xüsusiyyətlərinin hərtərəfli nəzərə alınması və analiz edilməsi sayəsində mümkündür. Belə ki, regionlarda mövcud olan problemlərin həlli, iqtisadi resursların təsərrüfat amili dövriyəsinə cəlb edilməsi məsələləri dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri hesab olunur. Müasir dövrdə ölkə iqtisadiyyatının bazar münasibətləri və xarakteristikalarına bilavasitə əsaslanması iqtisadi inkişafın idarə olunmasında direktiv (birbaşa) planlaşmadan indikativ planlaşmaya keçidi məcuburi etmişdir. Belə ki, planlaşdırılmış iqtisadiyyatda planların qanuni qüvvəsi və yerinə yetirilməsi zəruri xarakter daşıyırdı.

Həmçinin bazar münasibətləri şəraitində də planlaşdırma mütləq şəkildə həyata keçirilir. Belə ki, hökumət iqtisadi inkişafın əsas özək istiqamətlərini müəyyən etməli, bu sahədə həyata keçiriləcək önəmli tədbirləri dəqiqləşdirməli, müəyyən olunmuş məqsədlərin yerinə yetirilməsi üçün tənzimlənmə mexanizimindən səmərəli şəkildə istifadə olunmalıdır. Bütün bu metodlar özlüyündə inzibati və iqtisadi metodlar şəklində quruplaşdırılır. Hökumət bu metodlardan istifadə edərək qarşıya qoyulan məqsədlərə müvəffəqiyyətlə nail olur. Hökumətin iqtisadi siyasətinin özəyinin istiqamətlərindən biri də məhsuldar qüvvələrin ərazi baxımından rasional yerləşdirilməsi prinsipinə əməl etməkdir. Bu da hər bir iqtisadi rayonda inkişaf istiqamətlərinin gedişinin müəyyənləşdirilməsini zəruri edir.

Müasir dövürdə hökumətin əsas məqsədi ölkənin rayonlarında mövcud olan potensialdan səmərəli istifadə etmək yolunun dəqiqləşdirilməsi ilə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırlmasına, yerli sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin həyat səviyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyəsinin, xüsusilə də gənclərin faydalı əməyə cəlb olunmasının artırılmasına, ümumilikdə isə, ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə tam şəkildə nail olmaqdır.

Azərbaycanda istənilən regionun sosial-iqtisadi inkişafının yüksəldilməsinin qarşısında duran əsas məqsədlərə aşağıdakılar daxildir:

- iqtisadi-rayonda davamlı iqtisadi artıma nail olunması;
- region iqtisadiyyatının strukturunun stimullaşdırılması;
- iqtisadi-rayonda əməkqabiliyyətli əhalinin məşğulluq probleminin həlli;
- bir işçiyə düşən əmək haqqı və adambaşına real gəlirlərin yüksəldilməsi;
